FHTAŞ

Fövqəladə Hallarda Təhsil üzrə Müəssisələrarası Şəbəkə
Réseau Inter-Agences pour l´Éducation en Vəziyyətlər d´Urgence
La Red Interagencial para la Educación en Situaciones de Emergencia
Rede Inter-Institucional para Educação em Situação de Emergência
الشبكة المشتركة لوكالات التعليم في حالات الطوارئ

# TƏHSİL ÜZRƏ MİNİMUM STANDARTLAR:

## HAZIRLIQ, CAVAB TƏDBİRLƏRİ, REABİLİTASİYA

Fövqəladə Hallarda Təhsil üzrə Agentliklərarası Şəbəkə (FHTAŞ) – bütün şəxslərə keyfiyyətli təhsil hüququnu, həmçinin fövqəladə halların erkən mərhələsindən yenidənqurma mərhələsinədək təhlükəsiz təlim mühitini təmin etmək üçün birgə çalışan icraçılarla yüksək vəzifəli şəxslərin açıq, qlobal şəbəkəsidir. FHTAŞ-nin rəhbərliyi şəbəkəyə ümumiyyətlə başçılıq edir və onu istiqamətləndirir; hazırkı rəhbərliyin üzvləri bunlardır: “Qayğı”, Beynəlxalq Uşaq Fondu, Beynəlxalq Xilas Komitəsi (BXK), Qaçqınlar üçün Təhsil Təşkilatı (QTT), «Uşaqları Xilas edin» Alyansı, Açıq Cəmiyyət İnstitutu (ACİ), YUNESKO, BMTQAK, UNICEF UNICEF və Dünya Bankı.

FHTAŞ-nin Minimum Standartlar üzrə İş Qrupu *Təhsil üzrə Minimum standartlar: hazırlıq, yardım, yenidənqurmanın* qlobal tətbiqinə yardım edir. FHTAŞ-nin İş Qrupu (2009-2011) münaqişə və fəlakət vəziyyətləri üzrə təcrübəli 19 təşkilatdan ibarətdir: Təhsilin İnkişafı Akademiyası (TİA), “ActionAid” Amerika Araşdırma İnstitutu (AAİ), Əfqanıstanlı Qaçqınlar üçün Əsas Təhsil (AQƏT), Afrika Pedaqoqlar Qadın Forumu (APQF), “Deutsche Gesellschaft für Technische Zusammenarbeit” Təşkilatı (GTZ), Beynəlxalq Xilas Komitəsi (BXK), “Mavikalem” Sosial Yardım və Xeyriyyə Assosiasiyası, Norveç İnkişaf Agentliyi (NİA), Norveç Qaçqınlar Şurası (NQŞ), “Oxfam Novib” Təşkilatı, “Plan International” Təşkilatı, «Uşaqları xilas edin» Alyansı, YUNESKO, BMTQAK, UNICEF , USAID Təşkilatı, Hollandiya Müharibə Bölgəsində Uşaqlara Yardım Təşkilatı, Ümumdünya Təhsil Təşkilatı, ZOA Qaçqınlara Qayğı Təşkilatı.

FHTAŞ başlanğıcından indiyədək onu dəstəkləyən 41-dən çox təşkilata minnətdarlıq bildirir. Mİnnətdarlıq etdiyi təşkilatların tam siyahısını FHTAŞ-nin saytında görə bilərsiniz: **www.ineesite.org.**

FHTAŞ fövqəladə hallarda təhsili tətbiq edən, dəstəkləyən və təbliğ edən bütün maraqlı fərdlər və təşkilatlarla əməkdaşlıq etməyə hazırdır. Üzv olmaq istəyənlər FHTAŞ-nin saytında qeydiyyatdan keçə bilərlər: **www.ineesite.org/join.** Üzvlük ödəmələri və ya öhdəçiliyi özündə birləşdirmir.

Əlavə məlumat üçün bax. **www.ineesite.org** və ya Minimum Standartlar üzrə FHTAŞ-nin Əlaqələndiricisi ilə əlaqə saxlayın: **minimumstandards@ineesite.org**

İlk nəşr: FHTAŞ © 2004
Təkrar nəşr: FHTAŞ © 2006
Təkrar nəşr: FHTAŞ © 2009
Təkrar nəşr: FHTAŞ © 2010
2-ci nəşr: FHTAŞ © 2010
Təkrar nəşr: FHTAŞ © 2010

Bütün hüquqlar müdafiə olunub. Bu material müəlliflik hüququna malikdir, lakin təhsil məqsədlərlə istənilən metodla təkrar dərc edilə bilər. Bütün bu hallarda rəsmi icazə tələb olunur və bu icazə adətən təxirə salınmadan verilir. Başqa məqsədlə surət çıxarmaq, digər nəşrlərdə istifadə etmək, tərcümə və ya uyğunlaşma üçün müəlliflik hüququnun sahibindən yazılı sürətdə icazəni əldə etmək gərəkdir.
Kanadadakı “Creatrix” Layihə Qrupu tərəfindən layihələşdirilmişdir

Üz səhifəsindəki şəkillər: Beynəlxalq Xilas Komitəsi, «Uşaqları xilas edin» Alyansı, “Oxfam Novib” Təşkilatı.

# Mündəricat

*Təhsil üzrə Minimum Standartlar: Hazırlıq, Cavab tədbirləri, Reabilitasiya*
*Təqdimat ........ 1*

**Sahə 1: Əsas standartlar ........ 17**
İcmanın iştirakı
Standart 1: İştirak ........ 21
Standart 2: Resurslar ........ 27

Koordinasiya
Standart 1: Koordinasiya ........ 30

Araşdırma
Standart 1: Dəyərləndirmə ........ 34
Standart 2: Yardım strategiyaları ........ 40
Standart 3: Monitorinq ........ 44
Standart 4: Qiymətləndirmə ........ 47

**Sahə 2: Əlverişlilik və Təlim mühiti ........ 51**
Standart 1: Bərabər əlverişlilik ........ 54
Standart 2: Müdafiə və Rifah ........ 60
Standart 3: Binalar və Xidmətlər ........ 67

**Sahə 3: Tədris və Təlim ........ 73**
Standart 1: Kurrikulum ........ 76
Standart 2: Təlim, Peşəkar İnkişaf və Dəstək ........ 82
Standart 3: Təlimat və Təlim Prosesləri ........ 86
Standart 4: Təlim nəticələrinin dəyərləndirilməsi ........ 88

**Sahə 4: Müəllimlər və digər təhsil işçiləri ........ 91**
Standart 1: İşçilərin cəlb edilməsi və seçilməsi ........ 94
Standart 2: İş şəraiti ........ 97
Standart 3: Dəstək və nəzarət ........ 100

**Sahə 5: Təhsil siyasəti ........ 103**
Standart 1: Qanun və siyasətin formalaşması ........ 106
Standart 2: Planlama və Tətbiq ........ 111

**Əlavələr ........ 114**
Əlavə 1: Lüğət ........ 114
Əlavə 2: Akronimlər ........ 123
Əlavə 3: Siyahı ........ 124
Əlavə 4: Rəy Forması ........ 131

# TƏHSİL ÜZRƏ MİNİMUM STANDARTLARIN TƏQDİMATI: HAZIRLIQ, CAVAB TƏDBİRLƏRİ, REABİLİTASİYA

## Fövqaladə hallarda təhsil nədir?

Təhsil – bütün insanların əsas insan hüququdur. Münaqişə və fəlakətlərin təsir etdiyi on milyonlarla uşaq və gənclərə təhsil xüsusilə zəruridir. Təhsil hüququ çox vaxt fövqəladə hallarda da ciddi şəkildə pozulur və bu, tələbələri keyfiyyətli təhsilin dəyişdirən təsirlərindən məhrum edir.

Fövqəladə hallarda təhsil bütün yaşda olan adamlara təlim imkanlarını təşkil edir. Bu, uşaqların erkən inkişafını, ibtidai, orta məktəbi, qeyri-formal, texniki, peşə, ali və yetkin yaşlıların təhsilini özündə birləşdirir. Fövqəladə halların erkən mərhələsindən yenidənqurma mərhələsinədək keyfiyyətli təhsil həyatı dəstəkləyən və həyatları xilas edən fiziki, psixoloji və koqnitiv müdafiəni təmin edir.

Fövqəladə hallarda təhsil ləyaqəti təmin edir və təhlükəsiz təlim mühiti vasitəsilə həyata yardımçı olur. Bu təhlükəsiz təlim mühitlərində uşaqların və gənclərin digər ehtiyacları müəyyən edilir və dəstəklənir. Keyfiyyətli təhsil təhlükələrdə və böhran mühitinin istismarından fiziki müdafiə təmin etməklə həyatları xilas edir. Təhlükəsiz təlim mühitində olanda tələbənin cinsi və ya iqtisadi cəhətdən istismar olunmaq, yaxud məcburi və ya erkən nikah, silahlı qüvvələrə və silahlı qruplara, təşkil edilmiş cinayətə cəlb edilmə kimi başqa risklərə məruz qalmaq ehtimalı az olur. Bundan başqa, xilasedici məlumatı təmin edərək təhsil zəruri olan həyat bacarıqlarını və problemlərin öhdəsindən gələn mexanizmləri möhkəmlədir. Məsələn, torpaq minalarından necə yan keçmək, cinsi təhqirdən özünü necə müdafiə etmək, İİV infeksiyadan özünü necə qorumaq, səhiyyə xidmətlərini və qidanı necə əldə etmək kimi məlumatlarla.

Həmçinin təhsil imkanları münaqişənin və fəlakətlərin psixoloji təsirini zəiflədərək nizam hissini, sabitlik, struktur və gələcəyə ümidi təmin edir. Problemi həlletmə və stresslərin öhdəsindən gəlmə bacarıqlarını möhkəmləndirərək, təhsil tələbələri şüurlu qərarlar qəbul etməyə,  təhlükəli mühitdə sağ qalmağa, özlərinin və başqalarının qeydinə qalmağa qadir edir. Təhsil adamlara siyasi xəbərlərə və ya münaqişə tərəflərinin məlumat mənbələrinə tənqidi yanaşmaqda kömək edə bilər.

Məktəblər və digər təlim məkanları təhsil sektorundan başqa müdafiə, qidalanma, su və sanitariya, sağlamlıq xidmətləri kimi digər zəruri dəstəyin təminatı üçün zəruri sahə ola bilər. Təhsil, müdafiə, sığınacaq, su və sanitariya, sağlamlıq və psixoloji sektorlarının işçiləri arasında koordinasiya tələbə üçün əlverişli, təhlükəsiz mühitin yaradılmasında əhəmiyyətlidir.

Keyfiyyətli təhsil icmaların bilavasitə sosial, iqtisadi və siyasi sabitliyini dəstəkləyir. Sosial birliyi gücləndirərək, münaqişənin həllini və sülh yaratma işini dəstəkləyərək təhsil zorakı münaqişə riskinin azalmasına kömək edir. Əgər münaqişənin təsir etdiyi əhali savadlıdırsa, uzunmüddətli sülh yaratma şansları xeyli artır. Lakin buna baxmayaraq, təhsil sülh və sabitliyə mənfi təsir də göstərə bilər.

Əgər təhsil qeyri-bərabərliyi və sosial ədalətsizliyi gücləndirirsə, bəzi tələbələrə təhsil almaq imkanını vermirsə, yaxud əgər kurrikulum və ya tədris təcrübələri obyektiv deyilsə, onda o, münaqişəyə imkan yarada bilər. münaqişə zamanı təhsil binaları hədəfə götürülə bilər və ya tələbələr və təhsil işçiləri məktəbə gedib-gələndə hücuma məruz qala bilər. Fövqəladə hallardan dərhal sonra başlayan və yaxşı layihələndirilmiş olan təhsil islahatı təhsil sistemlərinin müdafiəsini təmin etmək və münaqişəyə aidiyyəti olan icmaları sabit sülh və inkişaf yoluna gətirmək üçün mühümdür.

Böhran milli hökumət orqanlarına, cəmiyyətlərə və beynəlxalq maraqlı tərəflərə daha çox ədalətli təhsil sistemləri və strukturlar yaratmaqla sosial dəyişiklik istiqamətində birlikdə əməkdaşlıq etmək imkanını göstərə bilər. Balaca uşaqlar, qızlar, yeniyetmələr, əlil uşaqlar, qaçqınlar və məcburi köçkünlər (MK-lər) kimi adətən kənarda qalan qruplar təhsil əldə etmə imkanlarından faydalana bilər. Bu, böhranın bir hissəsi ola bilər; bunun nəticəsində təhsil daha əlverişli və daha keyfiyyətli ola bilər.

Böhran cəmiyyətin bütün üzvlərinə yeni bacarıqlar və dəyərlər öyrənmə imkanı verə bilər. Məsələn, hərtərəfli təhsilin, iştirak etməyin və dözümlülüyün əhəmiyyəti, münaqişənin qarşısının alınması, insan hüquqları, ətraf mühitin qorunması və fəlakətin qarşısının alınması. Fövqəladə halların erkən mərhələsindən yenidənqurma mərhələsinədək təhsilin müvafiq və münasib olması mütləqdir. Təhsil əsas savad və hesablama (sinfi) bacarıqları üzrə təlimi özündə birləşdirməlidir, tələbələrin ehtiyaclarına müvafiq kurrikulumu təmin etməlidir, tənqidi düşüncəni həvəsləndirməlidir. Təhsil təhlükələr barədə təlim vasitəsilə məktəbləri fəlakət zamanı riskin azaldılması üzrə cəmiyyətin mərkəzləri olaraq möhkəmləndirərək, fəlakətin qarşısının alınmasında uşaqları və gəncləri rəhbərlər kimi hazırlayaraq təhlükəsizlik və dözümlülük mədəniyyətini yaratmalıdır.

## Təhsil və humanitar yardım necə uyğun ola bilər?

Böhran dövründə cəmiyyətlər təhsilə üstünlük verirlər. Məktəblər və başqa təlim məkanları çox vaxt cəmiyyətin əsası, gələcək nəsillərə imkanın və həyata daha yaxşı ümidin simvoludur. Tələbələrin və onların ailələrinin arzuları var; təhsil – hər şəxsin öz cəmiyyətinin iqtisadi, sosial və siyasi həyatında tam iştirak etmək qabiliyyətini artıran əsas vasitədir.

Son zamanlara qədər humanitar yardım qida, sığınacaq, su və sanitariya, tibbi xidmətlər təmin edirdi. Təhsil fövqəladə hallarda göstərilən mühüm yardımın

hissəsi deyil, uzunmüddətli inkişafın bir hissəsi hesab olunurdu.

Lakin təhsilin həyatı dəstəkləyən və həyatı xilas edən rolu tanındı və indi təhsilin humanitar yardıma daxil edilməsi zəruri hesab olunur.

Təhsil – humanitar yardımın planlama və təminatının ayrılmaz hissəsidir; təhsil təxirəsalınmaz yardımdan daha böyük yardımdır. Təhsil və digər fövqəladə hallar sektorları arasında koordinasiya və əməkdaşlıq bütün tələbələrin hüquqlarına və ehtiyaclarına istiqamətləndirilən səmərəli yardım üçün zəruridir.

Bu, Sfera–FHTAŞ-nin Əməkdaşlıq Müqaviləsində qeyd edilir və Müəssisələrarası Daimi Komitənin (MDK) Təhsil Qrupunun fəaliyyətində görünür (səh. 15-16-da strateji əlaqələr sektoruna bax).

Humanitar yardım böhrandan əvvəl fəlakətə hazırlığı, fövqəladə hallarda yardımı, sonra isə erkən yenidənqurma mərhələsini özündə birləşdirir. Daimi qeyri-sabit vəziyyətlərdə həyatda belə düzgün inkişaf baş vermir. Lakin o, araşdırma və planlama üçün səmərəli struktur üzə çıxara bilər.

## FHTAŞ-nin Minimum Standartları nədir?

FHTAŞ-nin Minimum standartları üzrə kitabça 19 standartdan ibarətdir, hər birində əsas fəaliyyətlər və Rəhbər göstərişlər qeyd edilir. Kitabçanın məqsədi – təhsilə hazırlığın, yardımın və yenidənqurmanın keyfiyyətini gücləndirmək, təhlükəsiz və müvafiq təlim imkanlarını daha əlverişli etmək və bu xidmətlərin göstərilməsində məsuliyyəti təmin etməkdir.

Fövqəladə Hallarda Təhsil üzrə Agentliklərarası Şəbəkə (FHTAŞ) 2004-cü ildə bu kitabçanın tərtib edilməsində və 2010-cu ildə redaktə olunmasında dünyanın müxtəlif hissələrindən olan milli hökumət orqanları, icraçıları, siyasətçiləri, pedaqoqlar və digər müəllimlərin məsləhətləşmə prosesində əməkdaşlığını təşkil etdi (daha ətraflı məlumat əldə etmək üçün aşağıda qeydlərə bax).

FHTAŞ-nin Minimum standartları üzrə kitabçasındakı göstərişlər böhranda yardım zamanı bir sıra vəziyyətlərdə istifadə üçün nəzərdə tutulmuşdur; buraya təbii təhlükələr və münaqişələr nəticəsində yaranmış fəlakətlər, kənd və şəhər mühitində tədriclə istila və gözlənilmədən işğal nəticəsində yaranan vəziyyətlər və fövqəladə hallar da daxildir.

FHTAŞ-nin Minimum standartları üzrə kitabçasının məqsədi – keyfiyyəti, uzlaşdırılmış humanitar yardımı təmin etməkdir: fəlakətin təsir etdiyi adamların ləyaqətini müdafiə edən proseslər vasitəsilə onların təhsil hüquqlarını və ehtiyaclarını qarşılamaqdır. Həmçinin təhsil sektorunda humanitar və inkişaf dəstəyi uzlaşdırmaq əhəmiyyətlidir. Xüsusilə münaqişənin təsir etdiyi kontekstlərdə sabitlik dövrlərini münaqişə, qeyri-sabitlik və humanitar böhran poza bilər. Bu vəziyyətlərdə humanitar və inkişaf təşkilatları təhsili dəstəkləyərkən çox vaxt birgə hərəkət edirlər.

Təhsili səmərəli dəstəkləmək işində maraqlı tərəflər arasında koordinasiya və yaxın əməkdaşlıq zəruridir; buraya humanitar yardım mərhələsindən inkişafı dəstəkləmə mərhələsinə keçid müddəti də daxildir. Kitabça kəskin fövqəladə hallara necə hazırlaşmaq və riski azaldan yollarla necə yardım etmək, gələcəyə hazırlığı daha da yaxşılaşdırmaq və keyfiyyətli təhsil üçün möhkəm təməl yaratmağa aid göstərişləri təqdim edir. Bu, yenidənqurma və inkişaf mərhələlərində daha güclü təhsil sistemləri qurmaq işinə kömək edir.

## FHTAŞ-nin Minimum standartları necə tərtib olundu?

2003–2004-cü illərdə yerli, milli və rayon nümayəndələrinin iştirakı ilə təşkil edilmiş proses vasitəsilə baş tutan məsləhətləşmələr, İnternetdə FHTAŞ-nin elektron poçt reyestri və həmyaşıdların yoxlama prosesi vasitəsilə təşkil edilmiş məsləhətləşmələr nəticəsində FHTAŞ-nin Minimum standartları tərtib olundu, müzakirə edildi və razılaşdırıldı. Çox məşvərətçi proses FHTAŞ-nin əməkdaşlıq, şəffaflıq, səmərəlilik və qərar qəbul edərkən məsləhətləşmə üzrə əsas prinsiplərini əks etdirdi. 50-dən çox ölkədən gələn 2250-dən çox insan FHTAŞ-nin Minimum Standartlarının ilk nəşrinin tərtibatında iştirak etdi. Qiymətləndirmə nəticələrinə və standartların istifadəçilərindən gələn tövsiyələrə əsasən 2009–2010-cu illərdə Şəbəkə Kitabçanı dəyişməyə başladı ki, o:

- fövqəladə hallarda təhsil sahəsində son yenilikləri əks etdirsin;
- Kitabçadan istifadə edən və öz kontekstlərinə standartları uyğunlaşdıran adamların təcrübələrini və uğurlu praktikalarını özündə birləşdirsin;
- istifadəçilər üçün Kitabçanın 2004-cü ildəki nəşrindən daha əlverişli olsun.

2010-cu ildə dəyişdirilmiş FHTAŞ-nin Minimum Standartları orijinal məsləhətləşmə prosesinə və FHTAŞ-nin təhsil, humanitar və inkişaf sahələrinin icraçıları, həmçinin siyasətçilərlə güclü əməkdaşlığına əsaslandı. Dünyanın müxtəlif yerlərindən olan 1000-dən çox insanın iştirakı ilə keçən bu prosesdə əsas addımlar bunlar idi: Kitabçaya aid rəylərin araşdırılması, İnternetdə məsləhətləşmə, mütəxəssislər qrupundakı məsləhətləşmələr vasitəsilə mühüm məsələlərin möhkəmləndirilməsi, hər bir standart sahənin birləşdirilməsi və möhkəmləndirilməsi, həmyaşıdların yoxlaması və şəbəkənin elektron poçt reyestri vasitəsilə FHTAŞ-nin üzvlərinin İnternetdə yoxlanması.

## Ləyaqətli həyat yaşamaq hüququnu təmin edən insan hüquqlarının strukturu

İnsan hüquqları, humanitar hüquq və qaçqınlara aid qanun – sülh dövründə və münaqişə və fəlakətlərin yaratdığı böhran zamanı insan hüquqlarını təmin edən və nizamlayan beynəlxalq hüquq sazişlərinin və normativ standartların əsasıdır. İnsan hüquqları üzrə əsas sənədlərdə qeyd edildiyi kimi, FHTAŞ-nin Minimum Standartları öz kökünü insan hüquqlarından, xüsusilə də təhsil hüququndan götürüb.

1990-cı ildə qəbul edilən Jomtien Deklarasiyası, 2000-ci ildə “Hamıya Təhsil” hərəkatına aid Ümumdünya Təhsil Forumunun Strukturu və 2000-ci ildə Minil-

liyin İnkişaf Məqsədləri rəsmi olmasa da, təhsil hüququnu təsdiqlədilər və bəzi hallarda onu daha da inkişaf etdirdilər.

Bu deklarasiyalar böhran vəziyyətlərində təhsilə xüsusi diqqət yetirir; buraya qaçqınlar və MK-lər kimi yerini dəyişmiş adamları dəstəkləyənlər də aiddir. Onlar uşaqların erkən təhsilini, bütün gənclərin və yetkin yaşlı şəxslərin təlim proqramlarında iştirak etmək imkanını və mövcud olan təhsil proqramlarının keyfiyyətinin yüksəlməsini vurğulayır.

FHTAŞ-nin Minimum Standartları öz kökünü həmçinin Sfera Layihəsinin Humanitar Nizamnaməsindən götürür. Bu, beynəlxalq humanitar qanunun, beynəlxalq insan hüquqları üzrə qanunun, qaçqınlara aid qanunun və Beynəlxalq Qırmızı Xaç və Qırmızı Aypara Hərəkatının, həmçinin qeyri-hökumət təşkilatlarının (QHT-lar) Fəlakətdə yardım zamanı davranış qaydalarının prinsip və təminatlarına əsaslanır.

Humanitar Nizamnamə hesab edir ki, fəlakətin və silahlanmış münaqişənin təsir etdiyi bütün adamların ləyaqətli və təhlükəsiz həyat üçün əsas şəraitləri təmin edən yardıma və mühafizəyə hüququ var. Nizamnamə dövlətlərin və müharibə edən tərəflərin müdafiə və yardım hüququnu təmin edən qanuni öhdəliklərini qeyd edir. Müvafiq hökumət orqanları öz öhdəliklərini yerinə yetirə bilməyəndə və ya yerinə yetirmək istəməyəndə onlar humanitar təşkilatlara müdafiə və yardımı təmin etməyə imkan yaratmalıdırlar (bax. **www.sphereproject.org**).

## FHTAŞ-nin Minimum Standartlarının əsasında olan Beynəlxalq hüquq vasitələri

İnsan hüquqları üzrə Qlobal Deklarasiya (1948) (Paraqraf 2, 26)

4-cü Cenevrə Konvensiyası (1949) (Paraqraf 3, 24, 50) Əlavə Protokol II (1977) (Paraqraf 4.3 (a))

Qaçqınların Statusuna aid Konvensiya (1951) (Paraqraf 3, 22)

Mülki və Siyasi Hüquqlara aid Beynəlxalq Müqavilə (1966) (Paraqraf 2)

İqtisadi, sosial və mədəni hüquqlara aid Beynəlxalq Müqavilə (1966) (Paraqraf 2, 13, 14)

Qadınlara qarşı hər növ ayrı-seçkiliyinin azaldılması üzrə Müqavilə (1979) (Paraqraf 10)

Uşaq Hüquqları üzrə Müqavilə (1989) (Paraqraf 2, 22, 28, 29, 30, 38, 39)

Beynəlxalq Cinayət Məhkəməsinin Roma Nizamnaməsi (1998) (Paraqraf 8(2)(b)(ix) and 8(2)(e)(iv))

Məcburi Köçkünlərə aid Əsas Prinsiplər (icbari deyil) (1998) (Paraqraf 23)

Əlillərin Hüququna aid Müqavilə (2006) (Paraqraf 24)

### Fövqəladə hallarda təhsil hüququ mövcuddurmu?

Bəli. İnsan hüquqları universaldır və onlar hətta fövqəladə hallarda tətbiq edilir. Təhsil almaq hüququ həm insan hüququdur, həm də səlahiyyət verən hüquqdur. Təhsil adamları tam potensiallarına nail olmaq, həyat yaşamaq və sağlam olmaq hüququ kimi digər hüquqlarını tətbiq etmək üçün bacarıqlarla təmin edir. Məsələn, əgər insan torpaq minaları barədə təhlükəsizliyə aid xəbərdarlığı oxuya bilirsə, minalı sahədən yan keçə biləcək. Əsas savad sağlamlıq hüququnu da dəstəkləyir. O, adamlara həkimlərin tibbi göstərişlərini oxumağa və dərman dozalarını düzgün qəbul etməyə imkan yaradır.

Bütün insanlara keyfiyyətli təhsil imkanını təmin etmək – əsasən milli hökumət orqanlarının məsuliyyətidir; bu vəzifə təhsil nazirliklərinə və yerli təhsil orqanlarına tapşırılır. fövqəladə hallarda digər maraqlı tərəflər – Birləşmiş Millətlər Təşkilatı (BMT), milli və beynəlxalq QHT-lar və ictimai təşkilatlar kimi çoxfunksiyalı təşkilatlar da təhsil fəaliyyətlərini üzərinə götürürlər. Müvafiq yerli və milli hökumət orqanları öz öhdəçiliklərini yerinə yetirməyə qadir olmayanda və ya yerinə yetirmək istəməyəndə, bu maraqlı tərəflər təhsilin təminatına aid məsuliyyəti üzərinə götürə bilərlər. FHTAŞ-nin Minimum Standartları üzrə kitabça bütün maraqlı tərəflərə keyfiyyətli təhsilə nail olmaqda dəstək məqsədilə səmərəli təcrübə strukturunu təmin edir.

Keyfiyyətli təhsil – əlverişli, əldə edilməsi mümkün olan, məqbul və uyğunlaşdırıla bilən təhsildir. FHTAŞ-nin Minimum Standartları insan hüquqları qanununun dilini və mahiyyətini təhsilin planlamasının əsası olaraq qəbul edir. Bunlar iştiraketmə, məsuliyyət, ayrı-seçkiliyin salınmaması və hüquqların müdafiəsi prinsiplərini tətbiq edərək keyfiyyətli təhsilə nail olmağa kömək edir.

## FHTAŞ-nin MİNİMUM STANDARTLARI ÜZRƏ KİTABÇANIN İSTİFADƏSİ

### FHTAŞ-nin Minimum Standartlarının məzmunu nədir?

FHTAŞ-nin Minimum Standartları 5 sahə üzrə təşkil edilmişdir:

*Əsas standartlar:* bunlar hazırlandı və koordinasiya, cəmiyyətin iştirakı və araşdırmaya aid hissələri daxil edərək genişləndirildi. Bu standartlar bütün sahələrdə tətbiq olunmalıdır və qlobal, keyfiyyətli yardımı təmin etməlidir. Konteksti daha yaxşı anlamaq və sonrakı sahələrdə standartları daha düzgün tətbiq etmək üçün bu standartlar layihə dövrəsinin bütün mərhələlərində yaxşı diaqnoza ehtiyac duyulmasına xüsusi diqqət yetirir.

*Əlverişlilik və Təlim mühiti:* bu sahədəki standartlar diqqəti təhlükəsiz və müvafiq təlim imkanlarının əlverişliliyinə cəmləyir. Onlar başqa sektorlarla zəruri əlaqələri vurğulayır, məsələn: sağlamlıq, su və sanitariya, qidalanma və sığınacaq; bunlar təhlükəsizliyin, mühafizənin, həmçinin fiziki, koqnitiv və psixoloji rifahın gücləndirilməsinə kömək edirlər.




*Tədris və Təlim:* bu standartlar səmərəli tədris və təlimi möhkəmlədən zəruri elementləri göstərir; buraya kurrikulum, təlim, peşəkar inkişaf və dəstək, təlimat və təlim prosesləri, həmçinin təlim nəticələrinin dəyərləndirilməsi daxildir.

*Müəllimlər və digər təhsil işçiləri:* bu sahədəki standartlar təhsil sahəsində insan resurslarının idarə olunması və təşkili barədə bəhs edir. Bu, işçilərin cəlb edilməsini və seçilməsini, həmçinin xidmət şərtlərini, , nəzarəti və dəstəyi də özündə birləşdirir.

*Təhsil siyasəti:* bu sahədəki standartlar siyasətin formalaşmasına, qüvvəyə minməsinə, planlamasına və tətbiqinə diqqət yetirir.

Bu Kitabçanın hər sahəsi təhsil işinin xüsusi sahəsini təsvir edir. Kitabçadakı hər standart başqaları ilə əlaqəlidir. Keyfiyyətli təhsili hərtərəfli təsvir etmək məqsədilə bəzən Rəhbər göstərişlər başqa müvafiq standartlarla və ya başqa sahələrin Rəhbər göstərişləri ilə əhəmiyyətli əlaqələri əhatə edir.

## 2010-cu ildə dərc edilən Minimum Standartlar üzrə Kitabçada yeni olan nədir?

2004-cü ildə dərc edilən Kitabça ilə tanış olanlar bu nəşrdə onun xeyli məzmununa yenə rast gələcək. Təkmilləşdirmələr bu bəndləri özündə birləşdirir:

- kontekstin araşdırılması; müdafiə, psixoloji dəstək, münaqişənin qarşısının alınması, fəlakət zamanı riskin azaldılması, uşaqların erkən inkişafı, gender, İİV və QİÇS, insan hüquqları, hərtərəfli təhsil, sektorlararası əlaqələr (sağlamlıq; su, sanitariya və gigiyenanın möhkəmləndirilməsi; sığınacaq; qida və qidalanma) və gənclər kimi əsas məsələlərin möhkəmləndirilməsi. Bu əsas məsələlərin tətbiqində köməkçi vəsait əldə etmək üçün FHTAŞ-nin vəsaitlərinə bax.: **www.ineesite.org/toolkit.**
- standartlara uyğun olmaq üçün Rəhbər göstərişlər deyil, əsas fəaliyyətlər nəzərə alınmalıdır (növbəti səhifədəki cədvələ bax);
- bütün təhsil işində bu standartların əsas olaraq istifadə edilməsini göstərmək üçün birinci sahədə «Bütün kateqoriyalarda olan Standartlar» başlığının «Əsas standartlar» başlığı ilə əvəz edilməsi. Bundan başqa, bütün təhsil işində koordinasiyaya ehtiyac duyulduqdan, Koordinasiyaya aid standart Təhsildə Siyasət sahəsindən bu sahəyə keçirilmişdir.

### *Kontekstin araşdırılması*

Böhranın təsir etdiyi adamlar humanitar yardımın mərkəzində olmalıdır; eləcə də təkmilləşdirilmiş FHTAŞ-nin Minimum Standartlarının mərkəzində böhranın təsir etdiyi adamlar durur. Resurslar və imkanlar üzərində nəzarətin qeyri-bərabərliyi səbəbi ilə fəlakətlər və münaqişə adamlara müxtəlif təsir edir. Həssaslıq – fəlakətin və ya münaqişənin zədələyən təsirinə məruz qalan adamları daha həssas edən səciyyəvi xüsusiyyət və ya şəraitdir. Adamların həyatlarındakı sosial, nəsillərə aid, fiziki, ekoloji, mədəni, coğrafi, iqtisadi və siyasi kontekstlər həssaslığın müəyyən edilməsində rol oynayır. Kontekstdən asılı olaraq, həssas adamlardan ibarət olan qadınların, əlil adamların, uşaqların, qızların, əvvəllər silahlı qüvvələr və silahlı qruplarla birgə olan uşaqların, və İİV-lu adamların qruplarını özündə birləşdirə bilər. Bacarıq – fərddə, cəmiyyətdə, icmada və ya təşkilatda olan və razılaşdırılmış məqsədlərə nail olmaq üçün istifadə edilə bilən güclü tərəflərin, atributların və resursların kombinasiyasıdır.

Kontekstin həssaslığa və bacarığa necə təsir etdiyini anlamaq üçün təhsildə maraqlı olan tərəflər yerli kontekstə aid araşdırmalarında üst-üstə gələn və dəyişən həssaslığı və bacarıqları nəzərə almalıdır. Bəzi kontekstlərdə etnik mənsubiyyət, sinif və ya təbəqə, köçmə, dini və ya siyasi mənsubiyyət səbəbi ilə adamlar daha çox həssas ola bilər. Bu elementlər keyfiyyətli təhsil xidmətlərinin əlverişli olmasına təsir göstərə bilər. Məsələn, hər kontekstdə olan adamların ehtiyaclarının, həssaslıq və bacarıqlarının hərtərəfli araşdırılması səmərəli humanitar yardım üçün zəruridir. Əsas standartlar kontekst araşdırması üzrə göstərişi özündə birləşdirir; bu mövzuya həmçinin bütün kitabçada rast gəlmək olar.

Böhranda adamların həssaslığını azaltmaq üçün onların dözümlülüyünü və bacarıqlarını müəyyən etmək və bunların üzərində təşviq etmək zəruridir. Əsas məsələ – yerli adamların və təşkilatların göstərdiyi yardımları anlamaq və dəstəkləmək, yerli nümayəndələrin bacarıqlarını təşviq etməkdir. Əsas standartlarda kontekstin araşdırmasını gücləndirməklə və əsas məsələləri qeyd etməklə Kitabçanın 2010-cu ildəki nəşri təhsilə hazırlıq, yardım və yenidənqurma işlərində konteksti, həssaslığı və bacarığı daha hərtərəfli tərzdə nəzərə almaq üçün strukturu təmin edir.

### Standart, əsas fəaliyyət və göstəriş arasında fərq nədir?

Hər standartın formatı eynidir. Əvvəlcə ***Minimum Standart*** qeyd edilir. Standartlar prinsipdən yaranıb. Bu prinsipə görə, fövqəladə halın və ya münaqişənin təsir etdiyi əhalinin ləyaqətlə və təhlükəsiz həyat yaşamağa, keyfiyyətli və müvafiq təhsil almağa hüququ var. Beləliklə, mahiyyətinə görə onlar keyfiyyətlidir və istənilən kontekstdə tətbiq edilə bilər.

Standartlardan sonra ***əsas fəaliyyətlər*** bölməsi gəlir. Əsas fəaliyyətlər standarta nail olmaq üçün təklif edilən metodlardır. Bəzi fəaliyyətlər bütün kontekstlərdə tətbiq oluna bilməz; onlar xüsusi kontekstə uyğunlaşdırılmalıdır. İcraçı standarta nail olmaq üçün alternativ fəaliyyəti özü fikirləşib tapa bilər.

Və nəhayət, ***rəhbər göstərişlər*** minimum standartların tətbiq edilməsinin vaxtına və müxtəlif vəziyyətlərdə əsas fəaliyyətləri uyğunlaşdırma yollarına aid səmərəli təcrübənin xüsusi bəndlərini əhatə edir. Onlar prioritet məsələlərə və təcrübi problemlərin həllinə aid məsləhətlər verir, kontekstə aid məlumatı və tərifləri təmin edir.

## FHTAŞ-nin Minimum Standartlarını kim istifadə edir?

Fəlakət zamanı riskin azaldılması və münaqişənin qarşısının alınması işləri daxil olmaqla, fövqəladə hallarda təhsilə hazırlıq, yardım və yenidənqurma işlərində iştirak edən bütün maraqlı tərəflər bu minimum standartları, əsas fəaliyyətləri və Rəhbər göstərişləri istifadə etməli və möhkəmləndirməlidir.
Təhlükəsiz və keyfiyyətli təhsili əlverişli etmək üçün bunlar texniki bilik və səmərəli təcrübə strukturunu təmin edir və ölkə və qlobal səviyyələrdə maraqlı tərəfləri birləşdirir. Maraqlı tərəflər növbəti bəndlərdə qeyd olunanlar daxildir:

- milli və yerli səviyyələrdə olan təhsil orqanları;
- BMT-nin agentlikləri;
- birtərəfli və çoxtərəfli donor agentlikləri;
- QHT-lar və cəmiyyət-əsaslı təşkilatlar, valideyn-müəllim assosiasiyaları daxil olmaqla;
- müəllimlər, başqa təhsil işçiləri və müəllimlər ittifaqları;
- təhsil sektoru üzrə koordinasiya komitələri və Təhsil Qrupları;
- təhsil məsləhətçiləri;
- tədqiqatçılar və pedaqoqlar;
- insan və humanitar hüquqları üzrə vəkillər.

## FHTAŞ-nin Minimum Standartlarını öz yerli kontekstimə necə tətbiq edə bilərəm?

İnsan hüquqlarına əsaslanan ümumi standartlarla onları həyatda tətbiq etmək imkanları arasında həmişə qeyri-uyğunsuzluqlar olur. Standartlar ümumiyyətlə keyfiyyətli təhsili əlverişli etmək üçün məqsədləri, əsas fəaliyyətlər isə hər standarta nail olmaq üçün lazım olan xüsusi addımları müəyyən edir. Hər kontekst fərqli olduğuna görə, kitabçadakı əsas fəaliyyətlər hər xüsusi yerli vəziyyətə uyğunlaşdırılmalıdır. Məsələn, müəllim-tələbə nisbətinə aid əsas fəaliyyət qeyd edir: «Müvafiq müəllim-tələbə nisbətini təmin etmək üçün kifayət qədər müəllim səfərbər edilməlidir» (bax. Müəllimlər və digər təhsil işçilərinin standartı 1, Rəhbər göstəriş N5, səh. 97). Bu, kontekstə uyğunlaşdırılmalıdır; müvafiq maraqlı tərəflərlə məsləhət vasitəsilə yerli şəraitdə məqbul olan müəllim-tələbə nisbəti müəyyən edilməlidir. Fövqəladə halların kəskin mərhələsində bir müəllimə 60 tələbə nisbəti məqbul ola bilər, daimi böhran və ya yenidənqurma kontekstində isə bu rəqəm azalmalı və bir müəllimə 30 və ya 40 tələbə olmalıdır. Yerli şəraitlərə məqbul və kontekstə uyğun fəaliyyətləri müəyyən etdikdə əlverişli resurslar daxil olmaqla, kontekst və fövqəladə halın mərhələsi nəzərə alınmalıdır.

Ümumiyyətlə, kontekstə uyğunlaşdırma prosesi istənilən fövqəladə halın baş verməsindən əvvəl, fövqəladə halda təhsilin planlaması və hazırlıq mərhələsi zamanı baş verməlidir. FHTAŞ-nin Minimum Standartlarının istifadəçilərinin təcrübəsi göstərir ki, kontekstə uyğunlaşdırma birgə çalışma və əməkdaşlıq çərçivəsində icra ediləndə daha səmərəli olur. Fəaliyyət zamanı yerli şəraitlərə müvafiq, dəqiq və standartlara uyğun tətbiqi mümkün olan fəaliyyətləri inkişaf etdirmək üçün təhsil sektoru üzrə koordinasiya komitəsi və ya Təhsil Qrupu ən müvafiq forumdur (FHTAŞ-nin Minimum Standartlarının kontekstə uyğunlaşdırılmasına aid bax. FHTAŞ-nin vəsaitləri: **www.ineesite.org/toolkit**.).

Bəzi hallarda yerli faktorlara görə minimum standartların və əsas fəaliyyətlərin tətbiqi qısa müddət ərzində qeyri-mümkün olur. Belə hallarda standartlarla kitabçada qeyd edilən əsas fəaliyyətlər və yerli kontekstin reallığı arasında fərqi nəzərə almaq və anlamaq zəruridir. Standartları anlamaq üçün çətinliklər müəyyən edilməli və dəyişikliyə aid strategiyalar qəbul edilməlidir. Proqram və siyasət üzrə strategiyalar sonra inkişaf edə bilər və fərqi azaltmaq məqsədilə təbliğat aparıla bilər.

FHTAŞ-nin Minimum Standartları humanitar fəaliyyəti fəlakətlərin təsir etdiyi adamların təhsil hüquqlarına və ehtiyaclarına daha məsul etmək üçün tərtib edilmişdir. Məqsəd – böhranın təsir etdiyi adamların həyatlarını xeyli dəyişdirməkdir. Heç bir kitabça özbaşına buna nail ola bilməz; bunu yalnız siz edə bilərsiniz. FHTAŞ-nin Minimum Standartlarının 2010-cu il nəşrinə aid sizin rəyinizi göndərsəniz, FHTAŞ məmnun olar. Bu, gələcəkdəki təkmilləşdirmə işinə kömək edəcək. Xahiş edirik kitabçanın sonundakı və ya **www.ineesite.org/feedback** ünvanındakı Rəy Formasından istifadə edin.

## FHTAŞ-nin Minimum Standartlarını tətbiq və qəbul etməyə kömək edən vasitələr

FHTAŞ-nin Minimum Standartlarını tətbiq və təşkil etməyə kömək edən materiallar FHTAŞ-nin saytından əldə edilə bilər: **www.ineesite.org/standards**

FHTAŞ-nin Minimum Standartlarının tərcümələri:
**www.ineesite.org/translations**

Hal-hazırda 2004-cü ildə dərc edilən FHTAŞ-nin Minimum Standartları üzrə Kitabçanın 23 dildə tərcümələri mövcuddur. Bu nəşr isə ərəb, fransız, ispan, portuqal və başqa dillərə tərcümə ediləcəkdir.

**FHTAŞ-nin vəsaitləri:**
**www.ineesite.org/toolkit.**

FHTAŞ-nin vəsaitləri növbəti qeyd olunanları özündə birləşdirir: FHTAŞ-nin Minimum Standartları üzrə kitabça, təlim və reklam materialları (bütün tərcümələr daxil olmaqla), standartları tətbiq etmək məqsədilə göstəricilərin yerli şəraitə uyğunlaşdırılmasına aid təcrübi vasitələr. Vasitələr kitabçanın hər sahəsi və kitabçadakı əsas məsələlər ilə əlaqəlidir. Vəsaitlər həmçinin FHTAŞ-nin Minimum Standartları üzrə kitabçanı tamamlayan və dəstəkləyən bir sıra FHTAŞ vasitələrini özündə birləşdirir: məsələn, Təhlükəsiz məktəbin inşaatına aid Rəhbər göstərişlər, Müəllimin kompensasiyasına aid Rəhbər göstərişlər, Tədris və təlimə aid Rəhbər göstərişlər, Hərtərəfli təhsil üzrə Göstəriş kitabçası və Gender üzrə kitabça.

**FHTAŞ-nin Minimum Standartlarına aid istinad vasitəsi:**
**www.ineesite.org/MSreferencetool**

Bu vasitə balaca kitabça formasında olan rahat istinad alətidir; burada bütün standartlar, əsas fəaliyyətlər və Rəhbər göstərişlər asan oxunan formatda qeyd olunur.

**FHTAŞ-nin Minimum Standartlarının qəbuluna aid siyahı:**
**www.ineesite.org/institutionalisation**

Müxtəlif növ təşkilatların (BMT-nin agentlikləri, QHT-lar, hökumətlər, donorlar və təhsil üzrə koordinasiya orqanları və Təhsil qrupları) xüsusi ehtiyaclarına uyğun tərtib edilmiş bu siyahılar təşkilatların minimum standartları öz strukturunda, birtərəfli və çoxtərəfli işlərində tətbiq etməsi üçün lazım olan müxtəlif hərəkətləri əhatə edir.

**FHTAŞ-nin Minimum Standartlarından istifadə etməliyəmmi?**
Standartları başqa sahələrdə (Əlverişlilik və Təlim mühiti, Tədris və təlim, Müəllimlər və digər təhsil işçiləri, və Təhsil siyasəti) tətbiq edərkən həmişə Əsas Standartları istifadə edin. Həmçinin standartların hər sahəsinin əvvəlində olan qısa Giriş sözünü oxuyun; bu, həmin sahəyə müvafiq olan əsas məsələləri qeyd edir. Standartları tətbiq etməkdə kömək edən səmərəli texniki vasitələr FHTAŞ-nin vəsaitləri bölməsindən əldə edilə bilər: **www.ineesite.org/toolkit.**
FHTAŞ-nin Minimum Standartları üzrə kitabça humanitar yardım zamanı planlama, tətbiq, monitorinq və qiymətləndirmə üçün istifadə edilmək məqsədilə tərtib edilmişdir (aşağıda bax. nümunə 1). Kəskin fövqəladə hallarda göstərilən yardım zamanı kitabçadan istifadə etməzdən əvvəl təhsildə maraqlı olan tərəflər kitabça ilə artıq tanış olmuşlarsa və ona aid təlim almışlarsa, kitabça çox səmərəli istifadə edilə bilər (aşağıda bax. nümunə 2). Kitabça bacarığın inkişafı üçün dəyərli təlim vasitəsidir. Humanitar sahə və resursların təminatına aid danışıqlar aparılarkən Kitabça həmçinin təbliğat vasitəsi kimi istifadə edilə bilər (aşağıda bax. nümunə 3). Kitabça fəlakətə hazırlıq, fövqəladə planlama və sektor üzrə koordinasiya işində yararlı ola bilər.

# BİZ FHTAŞ-nin MİNİMUM STANDARTLARINA UYĞUN OLA BİLƏRİK

2004-cü ildə dərc olunandan sonra FHTAŞ-nin Minimum Standartları üzrə kitabça fövqəladə halların erkən mərhələsindən yenidənqurma mərhələsinədək keyfiyyətli təhsili əlverişli etmək işində 80-dən çox ölkədə səmərəli vasitə olub. Standartlar ümumi strukturu təmin edir və müxtəlif maraqlı tərəflərin ümumi məqsədlərinin aydınlaşdırılmasını dəstəkləyir; maraqlı tərəflər həmçinin hökumət üzvlərini, cəmiyyətləri və beynəlxalq agentlikləri özündə birləşdirir. FHTAŞ-nin Minimum Standartlarının istifadəçiləri qeyd ediblər ki, Kitabça aşağıdakı hallarda kömək edir:

- fövqəladə halların erkən mərhələsindən yenidənqurma mərhələsinədək təhsil proqramlarının layihələşdirilməsində və tətbiqində cəmiyyətlərin mənalı iştirak etməsini təmin etmə;
- təhsilin dəyərləndirilməsini və təhsilə göstərilən yardımı daha yaxşı uzlaşdırma;
- milli təhsil sistemlərinin möhkəmlənməsi;
- təkmilləşdirilmiş xidmətin göstərilməsinə imkan yaratma;
- fövqəladə halların erkən mərhələsindən yenidənqurma mərhələsinədək, həmçinin inkişaf mərhələsində təhsil işinə nəzarət etmə və qiymətləndirmə;
- yüksək keyfiyyətli təhsil proqramlarının tətbiqi zamanı bilik və bacarıqları artırmaq məqsədilə bacarığı təşviq etmə;
- donorların təhsil sektoruna investisiyalarını istiqamətləndirmə.

FHTAŞ-nin Minimum Standartları həmçinin təhsili təmin edənlərin əsas məsuliyyət vasitəsi olaraq xidmət göstərir. Donor agentlikləri dəstəklədikləri təhsil layihələrinin keyfiyyət və məsuliyyət strukturu kimi Minimum Standartlardan daha çox istifadə edirlər.

Növbəti nümunələr standartların xüsusi kontekstlərdə istifadə edilməsinə aiddir:

1. *İraqda Məktəbin yenidən qurulması:* adamları evlərindən didərgin salan döyüşlərdən sonra Fəllucə şəhərində 5 orta məktəbin yenidənqurma işlərində FHTAŞ-nin Minimum Standartları istifadə edilmişdir. 2007-ci ildə evlərinə qayıdan və döyüş zamanı evlərini tərk etməyən tələbələr, valideynlər və müəllimlər məktəbin yenidənqurma proqramında əsas sahələrin müəyyən edilməsinə aid məqsəd-qrupunun müzakirələrində iştirak etdilər. Cəmiyyətin İştirakına aid standartların, həmçinin Əlverişlilik və Təlim mühiti sahəsinin göstərişlərinə əsasən, su və sanitariya, həmçinin sinif otaqlarının hazırlanması əsas məsələ olaraq qəbul edildi və İcmanın Təhsil Komitəsi (İTK) təşkil olundu. İTK-də qadınların iştirakını təmin etmək üçün layihənin qadın işçiləri evlərə baş çəkərək analar və gənc qadın tələbələrlə görüşdü, məktəbə gedən qızların sayının az olması səbəblərini müəyyən etməyə çalışdı. Qızların məktəbə birlikdə və ya mühafizə qrupunun müşayiəti ilə getməsinin təşkil olunması məktəbə gedən qızların təhlükəsizliyinə aid narahatlıqları aradan qaldırdı. Subay kişi müəllimlərin məktəblərdə işləməsinə aid narahatlıqları aradan qaldırmaq məqsədilə işə qəbul etmə prosedurаlarını daha şəffaf etmək istiqamətində İTK nümayəndələri məktəb administrasiyası ilə birgə işlədilər. Bu, ailələri arxayın etdi, etibarlı müəllimlərin uşaqlarla məsuliyyətli davranacaqlarına valideynlər əmin oldular və məktəbə gələn qızların sayı artdı.

2. *Hind okeanındakı sunami nəticələrinin müəssisələrarası koordinasiyası:* 2004-cü ilin dekabr ayında İndoneziyada ən ağır insan itkiləri və fiziki zədə ilə nəticələnən zəlzələ və sunami baş verdi. Acə rayonunda 44000-dən çox tələbə və 2500-dən çox müəllim və təhsil sahəsinin işçiləri həlak oldu, 150000-dən çox sağ qalmış tələbə əlverişli və müvafiq təhsil binalarından məhrum oldu. Yardım etmək məqsədilə FHTAŞ-nin Minimum Standartları müvafiq layihələşdirmə və tətbiqetmə vasitələri olaraq geniş şəkildə qəbul olundu, fövqəladə halın mərhələsində koordinasiyanın və təkmilləşdirilmiş təcrübənin daha yüksək səviyyəsini mümkün etdi. Koordinasiya işində Minimum Standartlardan istifadə edərək yerli hökumət orqanları və beynəlxalq agentliklər Təhsil üzrə Koordinasiya Komitəsini təşkil etdi; bu Komitə müntəzəm olaraq Banda Aceh-də görüşlər keçirirdi. Müəssisələrarası Minimum Standartlar üzrə İşçi Qrupu agentliyin işçi heyətinə minimum standartların istifadəsinə aid təlim verdi, təcrübəsi və səmərəli praktikası ilə bölüşdü. Kitabça İndoneziyanın Bahasa dilinə tez tərcümə olundu və Acə Rayonunun Təhsil Nazirliyi tərəfindən istifadə edildi. Öyrəndikləri əsas dərs – işçi heyətinin kəskin fövqəladə hallarda koordinasiya tempinin və tətbiqinin davamlılığını qoruyub saxlamasının əhəmiyyəti idi. Yeni işçilərin istiqamətləndirilməsində FHTAŞ-nin Minimum Standartları üzrə sistematik təlimin verilməsi belə fövqəladə halların kontekstlərində koordinasiya işinin təkmilləşdirilməsinə böyük təsir göstərmişdir.

3. *Donor siyasətinin möhkəmləndirilməsi:* Norveç humanitar siyasətinin tərkib hissəsi olaraq bilavasitə təhsilə müraciət edən 5 donordan biridir. Norveç

FHTAŞ-ni və Minimum Standartları çox dəstəkləyir. 2007-ci ildə Norveç İnkişaf Agentliyi (NİA) Fövqəladə hallarda Təhsil Komandasını yaratdı. Bu komandanın vəzifəsi – NİA-nın, Norveç Xarici İşlər Nazirliyinin (XİN) və onların partnyorlarının FHTAŞ-nin Minimum Standartları üzrə yüksək səviyyədə məlumatlandırılmasıdır, həmçinin FHTAŞ-nin Minimum Standartlarının həyata keçirilməsini və sistematik istifadəsini dəstəkləməkdir. Fövqəladə hallarda Təhsil Komandası XİN-ə və NİA-ya təhsilə qrantlarının bölüşdürülməsinə aid məsləhət verir və FHTAŞ-nin Bülletenlərindəki işə aid olan məlumatları müvafiq kolleqalarla bölüşür. O, NİA-dan maddi dəstək istəyən təşkilatlara FHTAŞ-nin Minimum Standartlarından istifadə etdiklərini qeyd etmələrini tövsiyə edir. 2008-ci ildə FHTAŞ-nin Minimum Standartları Cənubi Sudana illik birgə donor missiyasının öhdəliklərinə daxil edilmişdir. Bu missiyaya UNICEF , Dünya Bankı və Avropa İttifaqı da daxildir. NİA iştirakçı donor təşkilatlarının və təhsil sektorunun bərpasına görə məsuliyyət daşıyan Cənubi Sudanın Təhsil Nazirliyini FHTAŞ-nin Minimum Standartların istifadə və qəbul etməsini dəstəklədi. NİA FHTAŞ-nin üzvləri olan əsas Norveç QHT-larının Minimum Standartları qəbul etməsini dəstəkləyir. Fövqəladə hallarda Təhsil Komandası isə öz növbəsində digər Norveç QHT-larını və tədqiqat təşkilatlarını standartları  öz inkişaf proqramlarına qəbul etmək və onlara istinad etməyə ruhlandırır. Norveç hökumətinin FHTAŞ-ni dəstəkləməsi və FHTAŞ-nin Minimum Standartlarını tətbiq etməsi onun qlobal müzakirələrdə,  həmçinin müəllimlərə, genderə və fövqəladə hallara aid təhsil sahəsi üzrə debatlarda aparıcı rol oynadığına şəhadət edir.

Dünyanın müxtəlif yerlərində FHTAŞ-nin Minimum Standartlarının tətbiqi və təsirinə aid başqa nümunələrlə tanış olmaq üçün bax.: **www.ineesite.org/MScasestudies.**

## STRATEJİ ƏLAQƏLƏR

### FHTAŞ-nin Minimum Standartları və Humanitar fəaliyyətə aid Minimum Standartlarının sahəsi arasında hansı əlaqələr mövcuddur?

1997-ci ildə humanitar QHT-ların qrupu, Qırmızı Xaç və Qırmızı Aypara hərəkatları tərəfindən tərtib edilmiş Sfera Layihəsinin Humanitar Nizamnaməsi və Fəlakətdə Yardımın Minimum Standartları fəlakətlərin təsir etdiyi adamların humanitar yardım gözləməyə hansı hüquqlarının olduğunu qeyd edir. Sfera Kitabçası Humanitar Nizamnaməni və su təchizatı, sanitariya və gigiyenanın möhkəmləndirilməsi; təhlükəsiz qida və qidalanma; sığınacaq, məskən salma və qeyri-ərzaq əşyaları; sağlamlıq hərəkəti sektorlarına aid minimum standartları özündə birləşdirir.

FHTAŞ-nin Minimum Standartları Sfera Layihəsinin əsas əqidələrini təkrarlayır: Fəlakət və münaqişə nəticəsində yaranan insan əzablarını azaltmaq üçün bütün mümkün olan tədbirlər görülməlidir və fəlakətin təsir etdiyi adamların ləyaqətlə həyat yaşamağa hüquqları var. 2008-ci ilin oktyabr ayında Sfera Layihəsi və FHTAŞ Əməkdaşlıq Müqaviləsini imzaladı; bu müqavilədə Sfera Layihəsi FHTAŞ-nin Minimum Standartlarının keyfiyyətli olduğunu və ge-

niş məsləhətləşmə prosesinin onların tərtib edilməsinə gətirib çıxarmasını qeyd edir. Beləliklə, Sfera Layihəsi FHTAŞ-nin Minimum Standartları Sfera Layihəsinin Humanitar Nizamnaməyə və Fəlakətdə Yardım üzrə Minimum Standartlara məlumat kitabı və standartlar dəsti olaraq istifadə edilməsini məsləhət görür. Əməkdaşlıq Müqaviləsi təhsil və Sferada təqdim edilən sektorlar arasında olan əlaqələrin fövqəladə halların başlanmasından əvvəl yaradılmasının əhəmiyyətini qeyd edir. Bunun məqsədi – böhranın təsir etdiyi adamlara göstərilən yardımın keyfiyyətinin yüksəldilməsini, həmçinin fəlakətə hazırlıq mərhələsində və yardım zamanı humanitar sistemin məsuliyyətini artırmasını təmin etməkdir.

FHTAŞ-nin Minimum Standartları üzrə Kitabçanın bu nəşrində Sfera Kitabçasının müvafiq göstərişlərinə xeyli istinadlar var. Eləcə də təhsil üzrə göstəriş Sfera Kitabçasının 2011-ci il nəşrinə daxil edilmişdir.FHTAŞ-nin Minimum Standartlarının Sfera Kitabçasına əlavə olaraq istifadə edilməsi sektorlararası əlaqələrin çoxsektorlu ehtiyacların dəyərləndirilməsi, ardından isə birgə planlama və qlobal yardım vasitəsilə yaranmasını təmin etməyə kömək edəcək.

Sfera Humanitar Nizamnamə və Fəlakətdə Yardım üzrə Minimum Standartlara aid daha çox məlumat əldə etmək üçün bax. **www.sphereproject.org** .

## FHTAŞ-nin Minimum Standartları və MDK-nin Təhsil Qrupu arasında hansı əlaqələr mövcuddur?

Qlobal şəkildə UNICEF və «Uşaqlara Xilas» təşkilatı tərəfindən birgə idarə edilən Təhsil Qrupu fövqəladə hallarda təhsil sahəsində proqnozlaşdırılma, hazırlıq və yardım üzrə öhdəliyi təqdim edir. Fəaliyyət göstərdiyi ərazilərdə Təhsil Qrupu fövqəladə hallarda təhsil ehtiyaclarını müəyyən etməkdə və uzlaşdırılmış tərzdə onlara birgə yardım göstərməkdə dövlətləri dəstəkləyən əsas koordinasiya mexanizmidir. FHTAŞ-nin Minimum Standartları təhsil üzrə keyfiyyətli yardımı təmin edən strukturu təşkil etmək məqsədilə Təhsil Qrupu tərəfindən istifadə edilən əsas alətdir. Qlobal Təhsil Qrupu və ölkə-əsaslı təhsil qrupları standartlardan bu məqsədlə istifadə edirlər:

- Qrupun koordinasiyasının keyfiyyətini yaxşılaşdırmaq, müəssisələrarası dialoqu və ümumi məqsədlərin inkişafını dəstəkləmək;
- hazırlığın, birgə ehtiyacları dəyərləndirmələr, əlaqəli monitorinq və qiymətləndirmə daxil olmaqla, riskin azaldılmasının və yardımın planlama və tətbiqini yaxşılaşdırmaq;
- işçi heyətini və iştirakçıları hazırlamaq və bacarığı inkişaf etdirmə səylərini dəstəkləmək;
- maliyyələşdirməyə aid sənədləri tərtib etmək;
- müəssisələrarası dialoqu, Qrup üzvləri, donorlar və başqa sektorlar arasında təbliğatı dəstəkləmək.

Əlavə məlumatı əldə etmək üçün bax.: **http://oneresponse.info/GlobalClusters/Education.**

## FHTAŞ-nin Minimum Standartlarına aid tez-tez verilən suallar

**FHTAŞ-nin Minimum Standartlarını mövcud hökumətin təhsil standartlarının gücləndirməsini necə bilərik?**

Bir çox təhsil nazirlikləri milli təhsil standartlarını tərtib etmişdilər. FHTAŞ milli hökumət orqanlarının təhsil qanunlarını və taktikaları müəyyən etməkdə və qaçqınlar, MK-lər və azlıq qruplarının üzvləri daxil olmaqla,

ölkədə yaşayan bütün uşaqlara əsas təhsil xidmətlərini təmin etməkdə əsas rol oynadığını tanıyır və dəstəkləyir. Milli standartların mövcud olduğu hallarda bu standartların fəaliyyət sahəsi, məqsəd və məzmun arasında fərqlər və FHTAŞ-nin Minimum Standartları təhlil edilməlidir. Təcrübə göstərir ki, FHTAŞ-nin Minimum Standartları ümumiyyətlə milli təhsil standartlarına uyğunlaşdırıla bilər. Bunlar milli standartları tamamlayan, onlara əlavə edən və onlara çatmaqda kömək edən faydalı alətdir. FHTAŞ-nin Minimum Standartları milli taktikaların və ya strategiyaların tam nəzərə almadığı FHTAŞ-nin Minimum Standartlarının tətbiqinə və xüsusi fövqəladə hallarda idarə olunmasına aid strategiyalar təmin edir.

**FHTAŞ-nin Minimum Standartları yüksək standartlar qoyur. Bunlar nə üçün «minimum» adlanır?**

Bir çox hüquqi aktlarda və beynəlxalq müqavilələrdə qeyd olunduğu kimi, FHTAŞ-nin Minimum Standartları təhsil hüququna əsaslanır, buna görə də kitabçadakı göstərişlər bu hüquqlara müvafiqdir. Standartlar beynəlxalq səviyyədə razılaşdırılmış insan hüquqlarını və səmərəli təcrübəni təsvir etdiklərinə görə yüksək hesab oluna bilər; onlar həmçinin keyfiyyətli təhsil və insan ləyaqətinə aid minimum tələbləri müəyyən edir.

**Maddi və təhsil resursları məhdud olanda FHTAŞ-nin Minimum Standartları istifadə oluna bilərmi?**

Resurslar məhdud olan kontekstlərdə FHTAŞ-nin Minimum Standartları üç faydalı yolla istifadə edilə bilər. Birincisi, standartların bir çox aspektləri yüksək xərc tələb etmədən effektiv təcrübəni müəyyən edir. Məsələn, Cəmiyyətdə iştirak etmə standartları əlavə çox xərc tələb etmir, lakin onların tətbiqi humanitar və təhsil işinin keyfiyyətini yüksəldə bilər. Bu, uzun müddət ərzində vaxt və resurslara qənaət etməyə kömək edir və uzun müddət müsbət təsirləri dəstəkləyə bilər. İkincisi, FHTAŞ-nin Minimum Standartları fövqəladə hallarda təhsil və yenidənqurma işləri üçün daha böyük və daha səmərəli maliyyələşdirmə tövsiyəsi üçün istifadə edilə bilər. Üçüncüsü, FHTAŞ-nin Minimum Standartlarının istifadəsi təhsil orqanları və başqa təşkilatların yardımın əvvəlində yaxşı qərarlar qəbul etməsini təmin edir və zəif layihələşdirilmiş proqram və ya sistemin təkmilləşdirilməsinə sərf ediləcək xərclərin olmamasını təmin edir.

# 1 ƏSAS STANDARTLAR


Əsas standartlar
İcmanın iştirakı
Koordinasiya
Araşdırma
Standart 1
İcma üzvləri təhsil üzrə yardımların araşdırılması, planlaşdırılması, layihələndirilməsi, icrası, monitorinqi və qiymətləndirilməsində fəal, şəffaf və ayrıseçkilik olmadan iştirak edirlər.
Standart 2 Resurslar
İcmanın resursları yaşa uyğun təlim imkanlarının həyata keçirilməsi üçün müəyyən edilir, səfərbər olunur və istifadə edilir.
Standart 1 Monitorinq
Təhsil üzrə koordinasiya mexanizmləri lazımi qaydadadır və keyfiyyətli təhsilin əldə olunması və davamlılığının təmin edilməsi üçün çalışan maraqlı tərəfləri dəstəkləyir.
Standart 1 Qiymətləndirmə
Fövqəladə vəziyyətdə təhsilin vaxtlı-vaxtında qiymətləndirilməsi tam, şəffaf və iştiraklı tərzdə həyata keçirilir.
Standart 2 Yardım strategiyaları
Hərtərəfli təhsil üzrə yardım strategiyalarına təhsil hüququna qoyulan kontekst baryerlərinin və həmin baryerləri aşmaq strategiyalarının aydın təsviri aiddir.
Standart 3 Monitorinq
Təhsil üzrə yardım fəaliyyətlərinin və təsirə məruz qalan əhalinin artan təlim ehtiyaclarının müntəzəm monitorinqi aparılır.

Bu fəsildə aşağıdakılar üzrə standartlar təsvir olunmuşdur:
İcmanın iştirakı: iştirak və resurslar
Koordinasiya
Araşdırma: dəyərləndirmə, yardım strategiyaları, monitorinq, qiymətləndirmə.

Burada təsvir edilmiş standartlar təhsil üzrə səmərəli yardım üçün vacibdir. Onlar Əlverişlilik və Təlim Mühiti, Tədris və Təlim, Müəllimlər və Digər Təhsil İşçiləri, Təhsil Sistemi üzrə standartların tətbiqi üçün əsasdır.

Fövqəladə hallarda təhsil üzrə səmərəli yardım icmanın fəal iştirakına – insanlara qərar qəbuletmə proseslərində iştirak etmək və təhsil məsələləri ilə bağlı tədbir görmək hüququ verən proseslərə və fəaliyyətlərə əsaslanır. İcmanın cəlb olunması və mənimsənilməsinin gücləndirilməsi məsuliyyəti yerli resursların səfərbər olunmasını gücləndirir və təhsil xidmətlərinin uzun müddət qorunub saxlanmasını dəstəkləyir. İştirak təhsil məsələlərinin və onların həlli yollarının xüsusilə yerli kontekstdə müəyyən edilməsinə imkan verir. Bu yolla icmanın dəyərləndirmə, planlaşdırma, icra etmə, idarəetmə və monitorinqdə iştirakı təhsil üzrə yardımların düzgün və səmərəli şəkildə olmasını təmin etməyə kömək edir.

İcmanın iştirakına icma üzvlərinin bacarıqlarının inkişafı aiddir və bu, artıq yerinə yetirilmiş təhsil fəaliyyətlərinə əsaslanır. İcmanın dözümlülüyü və yenidən qurulmasına yardım edə bilən uşaq və gənclərin iştirakı çox vacibdir.

İştirakın müxtəlif dərəcələri və formaları var. Rəmzi iştirak xidmətlərdən istifadədən tutmuş başqaları tərəfindən çıxarılan qərarların qəbuluna qədər olan sahəni əhatə edir. Tam iştirak qərar qəbuletmədə, təhsil fəaliyyətlərinin planlaşdırılması və icrasına birbaşa cəlb olunmaya və zamanın fəal töhfəsinə istinad edir. Təcrübə göstərmişdir ki, yalnız rəmzi iştirakın olması keyfiyyətin və təhsil üzrə davamlı yardımların təmin edilməsi üçün səmərə vermir. Çox vaxt fövqəladə vəziyyətlərdə tam və hərtəfərli iştiraka nail olmaq çətin olur, amma bu istiqamətdə çalışmaq vacibdir. Hər kəs üçün təhsil hüququnun təmin edilməsinə görə məsuliyyət daşıyan təhsil orqanları təhsil üzrə yardımın koordinasiyasına rəhbərlik etməlidirlər.

Beynəlxalq humanitar maraqlı tərəflər təhsil orqanlarının, vətəndaş cəmiyyəti təşkilatlarının və yerli icraçıların qanuni vəzifələri üzərində hüquqlarının pozulmamasına diqqət etməklə, onlara dəstək və bacarıqlarının inkişaf etdirilməsini təklif etməlidir. Təhsil orqanlarının bacarığı və ya qanunilik olmayan yerdə rəhbərlik razılıq əsasında Təhsil Qrupu və ya sektor üzrə digər koordinasiya qrupu kimi müəssisələrarası koordinasiya komitəsinə həvalə oluna bilər. Təhsil üzrə yardımın koordinasiyası vaxtlı-vaxtında, şəffaf, nəticələrə əsaslanan və cəlb olunmuş icma üçün izah oluna bilən olmalıdır.

Səmərəli  yardım etmək və təhsil üzrə yardımların "ziyan vurma" fikrini təmin etmək məqsədilə, fövqəladə halın yerli konteksti və inkişaf edən xarakteri-

ni lazımi qaydada təhlil etmək və başa düşmək lazımdır. Təhsil sektorunun araşdırılması digər humanitar sektorların araşdırılması ilə yanaşı aparılmalıdır. Məqsəd fövqəladə halın növünü, onun səbəblərini və əhali üzərində təsirini, dövlət orqanının öz hüquqi və humanitar vəzifələrini yerinə yetirmək bacarığını müəyyən etməkdir. Araşdırmada iqtisadi şərait, dini və yerli etiqadlar, sosial təcrübələr və gender münasibətləri, siyasi və təhlükəsizlik amilləri, psixoloji adaptasiya mexanizmləri və gözlənilən gələcək hadisələr nəzərə alınmalıdır. Bütün tələbələr üçün təhsil xidmətləri üzrə mövcud olan yerli resurslar və təhsil xidmətlərində mövcud olan boşluqlar da daxil olmaqla, təsirə məruz qalan əhalinin və müəssisələrin həssaslığı, ehtiyacları, hüquqları və bacarıqları müəyyən edilməlidir. İcmanın yerli təhlükələr barədə məlumatlılığının, yaxud həm qabaqlayıcı, həm də cavab tədbirlərinin görülməsi üçün malik olduğu və ya artırılmasına ehtiyac duyduğu bacarıqların dərk edilməsi də vacibdir.

Məlumatların toplanması və araşdırılması fövqəladə halın aradan qaldırılmasına doğru bütün mərhələlər üçün zəruri olan şəffaf, ictimaiyyət üçün anlaşılan və təfərrüatlara ayrılmış təhsilə dair məlumatları nümayiş etdirməlidir. Məlumatların toplanması və araşdırılması diqqətsizlik üzündən münaqişə və qeyri-stabilliyə töhfə verə bilər, buna yol verməmək üçün diqqətli olmaq lazımdır. Təhsil üzrə yardımın və artmaqda olan təhsil ehtiyaclarının  mütəmadi olaraq monitorinqi və qiymətləndirilməsi hərtərəfli və şəffaf olmalıdır. Tədris olunan dərslər də daxil olmaqla, monitorinq və qiymətləndirməyə dair hesabatlar gələcəkdə təhsil üzrə yardımları təkmilləşdirmək üçün paylaşılmalıdır.

## İcmanın iştirakı Standart 1: İştirak

İcma üzvləri təhsil üzrə yardımın araşdırılması, planlaşdırılması, layihələndirilməsi, icrası, monitorinqi və qiymətləndirilməsində fəal, şəffaf və ayrıseçkilik olmadan iştirak edirlər.

### Əsas fəaliyyətlər (rəhbər göstərişlərlə bağlı oxunmalıdır)

- Bir sıra icma üzvü təhsilin təhlükəsiz, səmərəli və obyektiv qaydada çatdırılması təmin etmək üçün təhsil fəaliyyətlərinin prioritetləşdirilməsi və planlaşdırılmasında fəal iştirak edir (rəhbər göstərişlər 1-4-ə baxın).
- Cəmiyyətin təhsil komitələrinə bütün həssas qrupların nümayəndələri daxildir (rəhbər göstərişlər 1-4-ə baxın).
- Uşaqlar və gənclər təhsil fəaliyyətlərinin inkişaf etdirilməsində, yerinə yetirilməsi, monitorinqi və qiymətləndirilməsində fəal iştirak edirlər (rəhbər göstəriş 5-ə baxın).
- İcma üzvlərinin geniş qrupu təhsil fəaliyyətlərinin dəyərləndirilməsi, kontekst araşdırılması, sosial auditində, büdcənin birgə yoxlanmasında, fəlakət zamanı riskin azaldılması və münaqişələrin qarşısının alınması fəaliyyətlərində iştirak edir (rəhbər göstəriş 6-ya baxın).
- İcma üzvləri üçün təlim və bacarıqların inkişaf etdirilməsi imkanları var (rəhbər göstəriş 7-yə baxın).

### Rəhbər göstərişlər

1. **İcmanın hərtərəfli iştirakı:** Təhsil orqanları və digər təhsilə maraqlı tərəflər icmanın təhsil üzrə yardımın araşdırılması, planlaşdırılması, layihələndirilməsi, icrası, monitorinqi və qiymətləndirilməsində iştirakını təmin etməlidir. Təsirə məruz qalan icmanın istənilən üzvü yaşından, cinsindən, etnik mənsubiyyətindən, dinindən, cinsi oriyentasiyasından, əmək qabiliyyətsizliyindən, İİV statusu, və ya digər amillərdən asılı olmadan, iştirak edə bilməlidir.

Təhsil orqanları və digər təhsilə maraqlı tərəflər icmanı aşağıdakıların müəyyən edilməsinə cəlb etməlidir:
– bütün tələbələrin təhsil ehtiyacları;
– yerli mövcud olan maliyyə, material və insan resursları;
– oğlan və qız uşaqları, gənclər və yetkinlik yaşına çatanlar arasında mövcud olan və dəyişən münasibətlər;
– dil qrupları və istisna edilə bilən hər hansı qruplar arasında münasibətlər də daxil olmaqla, icma daxilində potensial dinamikası;
– təhlükəsizlik məsələləri, narahatlıqlar və təhlükələr;
– təhsil müəssisələrinin, işçi heyətinin və tələbələrin gender əsaslı zorakılıq, da daxil olmaqla, mümkün təcavüzlərdən qorunması yolları;

– yerli təhlükələr, məktəblər və digər tədris yerləri üçün təhlükəsiz və rahat yerlər, fəlakət zamanı riskin azaldılmasına yerli yanaşmalar;
– icmadakı sağlamlıqla bağlı başlıca təhlükələri aradan qaldıran ismarıclar da daxil olmaqla, təhsil üzrə yardımın bütün aspektlərinə müvafiq həyat qoruyucu və münaqişəyə həssas təhsil ismarıclarının inteqrasiya edilməsi yolları.

Ailə, icma, məktəblər və ya digər tədris yerləri arasında daha güclü əlaqələrin dəstəklənməsi üzrə strukturlar iştiraklı, hərtərəfli və məşvərətçi tərzdə inkişaf etdirilməlidir (aşağıda verilmiş rəhbər göstərişlər 2-3-ə baxın;
səhifə 37-38-dəki standart 1-in araşdırılması, rəhbər göstəriş 3; səhifə 43-dəki standart 2-nin araşdırılması, rəhbər göstəriş 5; səhifə 45-47-dəki standart 3-ün araşdırılması, rəhbər göstərişlər 1-3; və səhifə 49-dakı standart 4-ün araşdırılması, rəhbər göstərişlər 3-4).

2. **İcmanın təhsil komitəsi** icmadakı bütün tələbələrin təhsil ehtiyaclarını və hüquqlarını müəyyən edən və araşdıran qrupa istinad edir. Alternativ adlara “valideyn-müəllim assosiasiyası” və ya “məktəbin idarəetmə komitəsi” aid ola bilər. Bu, icmaya təlim və bacarıqların inkişaf etdirilməsi fəaliyyətləri, yaxud təhsil orqanları və digər təhsilə maraqlı tərəflərlə əlaqəyə girməklə təhsil proqramlarını dəstəkləməkdə yardım edə bilər. Əgər cəmiyyətin təhsil komitəsi artıq mövcud deyilsə, onun yaradılması üçün stimul yaradılmalıdır (aşağıda verilmiş rəhbər göstərişlər 3 və 7-yə baxın).

Cəmiyyətin təhsil komitəsi icmadakı bütün qrupların nümayəndəsi olmalıdır və buraya aşağıdakılar aid ola bilər:
– məktəb administratorları, müəllimlər və işçi heyəti;
– valideynlər və yaxud qəyyumlar;
– uşaqlar və gənclər;
– vətəndaş cəmiyyəti təşkilatlarından olan işçi heyəti;
– yerli QHT-lərin və dini təşkilatların nümayəndələri;
– ənənəvi rəhbərlər;
– səhiyyə işçiləri.

Həssas qrupların nümayəndələrinin daxil edilməsi vacibdir.
Cəmiyyətin təhsil komitəsinin üzvləri kontekstə uyğun olan və qadınlara, kişilərə, qızlara və oğlanlara bərabər şəkildə iştirak etmək imkanı verən yerli müvafiq iştirak prosesi vasitəsilə seçilməlidir.

Etnik mənsubiyyət, millət, din və irq kimi sosial fərqlərin tətbiq oluna biləcəyi mürəkkəb fövqəladə hallarda cəmiyyətin təhsil komitəsi bütün tərəflərlə işləməlidir. Daxiletmə məqsəd olduğu üçün fərdlərin və qrupların təhlükəsizliyi öndə gəlir. Komitələr icmada hər kəs üçün təhsilin təhlükəsiz, qərəzsiz və lazımi qaydada təmin edilməsinə cəhd etməlidir.

Onlar dəyişən sosial-iqtisadi və siyasi kontekst barədə ilkin məlumata malik olmalı və qərar qəbul edənlərlə bütün səviyyələrdə ünsiyyət qurmalıdırlar

(həmçinin səhifə 37-38-dəki standart 1-in araşdırılması, rəhbər göstəriş 3-ə baxın).

3. Cəmiyyətin təhsil komitəsinin üzvlərinin **rol və öhdəlikləri** aydın şəkildə müəyyən edilməlidir. Buraya aid ola bilər:

– narahatlıq doğuran məsələlərin həll edilməsi üçün müntəzəm olaraq görüşmək;
– görüşlərin və qərarların protokollarının hazırlanması;
– icmanın maliyyə və natural ödənişlərinin səfərbər edilməsi;
– təhsil proqramlarının tələbələrin ehtiyaclarına və hüquqlarına uyğun olmasını təmin etmək üçün yaş və mədəniyyətə həssas müvafiq yanaşmaların müəyyən edilməsi. Nümunələrə icmanın kontekstini əks etdirən dəyişkən məktəb təqvimləri və yaşa uyğun kurrikulumlar;
– icma üzvləri ilə icmadan kənar qərar qəbul edənlər arasında yaxşı münasibətlərin gücləndirilməsi üçün icma, eləcə də yerli və dövlət təhsil orqanları ilə ünsiyyətin qurulması;
– təhsilə çıxışın və təhsilin keyfiyyətinin təmin edilməsinə görə məsuliyyət daşıyanların tabe olmasının təmin olunması;
– tədris və təlimin keyfiyyətinin təmin olunmasına yardım etmək üçün monitorinq təhsilinin təmin edilməsi;
– təlim imkanlarında kimin iştirak etməsi və kimin iştirak etməməsi barədə təfərrüatlara ayrılmış məlumatların toplanması və monitorinqi;
– məktəbə gedən və məktəbdən gələn işçi heyətinin və tələbələrin təcavüzdən qorunmasının və təhlükəsizliyinin gücləndirilməsi;
– fəlakət zamanı riskin azaldılmasının təhsil müddəasına daxil edilməsinin təmin olunması;
– müvafiq psixoloji dəstəyin təmin olunması.

(həmçinin səhifə 37-38-dəki standart 1-in araşdırılması, rəhbər göstəriş 3-ə baxın).

4. **Təhsil üzrə yerli fəaliyyət planı:** Yerli təhsil orqanları, icma və cəmiyyətin təhsil komitəsi icma əsaslı təhsil fəaliyyət planı ilə nəticələnəcək iştiraklı planlaşdırma prosesi vasitəsilə təhsil fəaliyyətlərini prioritetləşdirməli və planlaşdırmalıdır. İcma əsaslı təhsil planı dövlət təhsil planına (varsa) əsaslanmalı və formal və qeyri-formal təhsil proqramlarının keyfiyyətinin yaxşılaşdırılması üçün strukturla təmin etməlidir. Bu, xüsusən həssas qruplara məxsus olan fövqəladə vəziyyətdən zərər çəkən icmanın ehtiyaclarını, hüquqlarını, narahatlıqlarını və dəyərlərini əks etdirməlidir.

Təhsil üzrə fəaliyyət planında əsas diqqət təhsilin davamlılığının təmin olunmasına yönəldilir.
Bunun bir neçə məqsədi ola bilər, məsələn:

- fəaliyyətlər, göstəricilər, hədəflər və vaxt şkalası baxımından təsvir edilən, tədris və təlim mühitinin nəyə çevrilə biləcəyi barədə birgə baxışların təkmilləşdirilməsi;
- kurrikulumların müvafiq olaraq, münaqişələrə qarşı həssaslıq və fəlakət zamanı riskin azaldılması da daxil olmaqla, xüsusi kontekstə uyğunlaşdırılması;
- işçi heyətinin işə götürülməsi, onlara nəzarət edilməsi və onların təlimatlandırılması, müəllimlərin kompensasiyası və yardımı ilə bağlı prosedurlar barədə razılığa gəlinməsi;
- ayrıseçkiliyin azaldılması üçün insan hüquqlarına əsaslanan yanaşmanın prioritetləşdirilməsi və təhsilin əlçatan, uyarlı və məqbul olması barədə birgə anlayışın yaradılması;
- təhsilin təcavüzdən qorunması da daxil olmaqla, təhlükəsiz və dəstəkli təlim mühitinin inkişaf etdirilməsi üçün prioritetlər üzrə razılığın və birgə öhdəliyin əldə olunması;
- təhsil hüququnun müdafiəsinə görə qanuni məsuliyyət daşıyan təhsil orqanları və digər təhsilə maraqlı tərəflərin xüsusi tapşırıq və öhdəliklərinin təsvir olunması. Buraya resursların səfərbər olunması, texniki xidmət və infrastrukturun inkişaf etdirilməsi, xarici agentliklərlə, qida təhlükəsizliyi, səhiyyə, gigiyena, qidalanma və su təchizatı, sanitariya tədbirləri də daxil olmaqla digər sektorlarla  koordinasiyanı aid etmək olar.

İcmaların geniş şəkildə iştirakının qorunub saxlanmasına yardım etmək üçün onların müntəzəm qaydada monitorinqi və dəyərləndirilməsi fəaliyyət planına daxil edilməlidir (həmçinin səhifə 31-34-dəki koordinasiya standartı 1; səhifə 37-38-dəki standart 1-in araşdırılması, rəhbər göstəriş 3; səhifə 98-100-dəki müəllimlər və digər təhsil işçilərinin standartı 2; 110-cu səhifədəki Təhsil Sistemi standartı 1, rəhbər göstəriş 6-ya; səhifə 113-dəki Təhsil Sistemi standartı 2, rəhbər göstəriş 3-ə; və Su təchizatı, sanitariya və gigiyena barədə həvəsləndirmə, qida təhlükəsizliyi və qidalanma, səhiyyə fəaliyyəti ilə bağlı fəsillərdəki sahə standartlarına baxın).

5. **Uşaq və gənclərin təhsil fəaliyyətlərində iştirakı:** Təhsil sisteminin inkişafı və idarə edilməsi məsələsi də daxil olmaqla, uşaq və gənclərin onların həyatına təsir edən məsələlərdə dinlənilmək hüququ var. Onlar konstruktiv dialoqa hörməti gücləndirən sağlam, təhlükəsiz və xeyirxah mühitlərdə aparılan müzakirələrdə iştirak etmək üçün dəvət edilməlidirlər. Uşaq və gənclərə özlərini ifadə etməkdə yardımçı olmağın mədəni cəhətdən uyğun yollarından, məsələn: incəsənət, musiqi və dramdan istifadə etmək olar (həmçinin səhifə 107-108 və 110-dakı Təhsil Sistemi standart 1, rəhbər göstərişlər 1 və 6-ya baxın).

   Uşaq və gəncləri qorumaq, onların, onların ailə üzvlərinin və həmyaşıdlarının emosional və sosial rifahına yardım etmək üçün onlar təlimatlandırılmalıdırlar. Uşaq və gənclər fövqəladə haldan sonra kimin məktəbdə olmadığını və on-

lara qayğı göstərilməsinə yardım etdiyini müəyyən etməkdə çox vaxt dəyərli rol oynayırlar. Onlar həmçinin öz xəsarət almış və yaxud təhsil almaq imkanlarından məhrum olmuş həmyaşıdlarına yardım edə bilərlər. Bacarıqların inkişaf etdirilməsində onların sülh təşviqi, münaqişə və fəlakətlərin kökündə duran səbəblərin aradan qaldırılması da daxil olmaqla, müsbət dəyişiklik irəli sürmək qabiliyyətlərinə xüsusi diqqət verilməlidir. Məsələn: təlim təlim mühitində sui-istifadə barədə məlumat verilməsi və onun qarşısının alınmasında, həmyaşıdları arasında baş verən mübahisələrin və münaqişələrin həll edilməsində iştirak etməkdə uşaq və gənclərə yardımçı ola bilər (həmçinin aşağıda verilmiş rəhbər göstəriş 7-yə; səhifə 61-67-dəki Əlverişlilik və təlim mühiti standart 2; səhifə 102-dəki Müəllimlər və digər təhsil işçiləri standart 3, rəhbər göstəriş 5-6-ya baxın).

Tədris ləvazimatlarının paylaşdırılması və ya sığınacaqların tikilməsi kimi tapşırıqlar gənclərə onların icmaları üçün vacib olan fəaliyyətlərin planlaşdırılması və yerinə yetirilməsində iştirak etmək imkanı verə bilər. Bu cür iştirak cinayət və ya silahlı qruplara cəlb olunmaq üçün müsbət alternativlər təklif edə bilər, güclü psixososial üstünlüklərə malikdir və gəncliyin töhfələrinin qiymətləndirilməsində daha geniş icmaya yardım edir. Gənclərin təhsil proqramlarının planlaşdırılması, monitorinqi və qiymətləndirilməsində, xüsusilə də bacarıqlar və yaşayışı ilə bağlı təlimdə iştirakı bu proqramların onların cari və gələcək ehtiyaclarını ödəməsini təmin etməyə yardım edir. Qızların və gənc qadınların təhsil almaq imkanları və təhsil ehtiyacları onların həmyaşıdları olan kişi cinsinin nümayəndələrininkindən fərqli ola bildiyi üçün, onların öz səslərini eşitdirmək üçün iştiraka həvəsləndirilməsi ilə bağlı xüsusi səylər göstərilməlidir (həmçinin KMTH Şəbəkəsi Böhrandan sonra iqtisadi yenidənqurma üzrə minimum standartlar, Məşğulluğun təmin edilməsi standartı və Müəssisələrin inkişafı standartlarına baxın).

6. **Sosial auditlər təhsil proqramının icma əsaslı qiymətləndirilməsidir.** Bu qiymətləndirmələrdən aşağıdakı məqsədlər üçün istifadə olunur:
   – proqram üçün mövcud olan insanları, vəsaitləri və materialları müəyyən etmək;
   – boşluqları müəyyən etmək;
   – proqramın səmərəliliyini yoxlamaq.

Fövqəladə halın başlanğıc və ya orta mərhələsində sosial auditlərin həyata keçirilməsi həmişə mümkün olmaya bilər. Buna baxmayaraq, uzunmüddətli xroniki böhranlar və ya yenidənqurma işlərinin erkən mərhələsində sosial auditlər icmalara təhsil proqramlarını daha səmərəli şəkildə yoxlamaq və öz hüquqlarının pozulması hallarını sənədləşdirmək bacarıqlarını təkmilləşdirmək imkanı verir. Sosial auditlərdə iştirak xüsusilə gənclər, ələlxüsus da formal və ya qeyri-formal təhsil almayanlar üçün münasibdir. Sosial auditlərin nəticələrinin icmanın bütün üzvləri və müvafiq orqanlarla paylaşılması vacibdir (həmçinin səhifə 48-49-dakı standart 4-ün araşdırılmasına baxın).

7. **Bacarıqların inkişaf etdirilməsi** insanlara və təşkilatlara öz məqsədlərinə nail olmaqda yardım etmək üçün bilik, bacarıq, vərdiş və davranışı gücləndirir. Təsirə məruz qalan əhali arasından proqramın planlaşdırılması və icrasına cəlb olunmaq üçün, müəllimlər, digər təhsil işçiləri və kurrikulum hazırlayanlar da daxil olmaqla, təhsil ekspertlərinin müəyyən edilməsi üçün bütün səylər göstərilməlidir. Yerli təcrübənin kifayət qədər olmaması müəyyən edilərsə, və yaxud insanlar təhsil sisteminin qurulması (yenidən qurulması) işinə yardım edə bilməzlərsə və ya yardım etmək istəməzlərsə, onda icma üzvləri üçün bacarıqların inkişaf etdirilməsi fəaliyyətləri özünəməxsus şəkildə ola bilər. Dəyərləndirmələr zamanı həssas qruplar da daxil olmaqla, icmadakı qız və oğlan uşaqlarının, gənclərinin və yetkinlik yaşına çatanların müxtəlif bacarıqları, ehtiyacları və yardımları yoxlanılmalıdır. Təlim proqramlarında icmanın təlim və digər bacarıqların inkişaf etdirilməsi ehtiyaclarını və onların həlli yollarını müəyyən etmək bacarığı qiymətləndirilməlidir. Belə fəaliyyətlər təhsil proqramının icma tərəfindən mənimsənilməsinə, qorunub saxlanmasına və digər sektorlarla koordinasiyaya yardım etməlidir.

## İcmanın İştirakı üzrə Standart 2: Resurslar

Yaşa uyğun təlim imkanlarını həyata keçirmək üçün icmanın resursları təyin edilir, səfərbər edilir və istifadə olunur.

**Əsas fəaliyyətlər** (rəhbər göstərişlərlə birlikdə oxunmalıdır)

- Keyfiyyətli təhsil əldə etmə imkanını gücləndirmək üçün icmalar, təhsil işçiləri və təlim keçənlər yerli resursları təyin və səfərbər edir (baxın: rəhbər göstərişlər 1-3).
- Təhsil orqanları, yerli icma və maraqlı humanitar təşkilatlar mövcud bilik və bacarıqları tanıyır və bu imkanların istifadəsini artırmaq üçün təhsil proqramları hazırlayır (baxın: rəhbər göstərişlər 4-5).
- Milli orqanlar, yerli icma və maraqlı humanitar təşkilatlar fəlakət riskinin azaldılması və münaqişələrin yumşaldılmasına imkan yaradan təhsilin inkişafı, adaptasiyası və təmin edilməsi üçün icmanın resurslarından istifadə edir (baxın: rəhbər göstərişlər 5).

### Rəhbər göstərişlər

1. **İcmanın resursları** icmada mövcud olan insani, intellektual, linqvistik, maddi və maliyyə resurslarını əhatə edir. Təhsil yardımını planlaşdırarkən, mövcud yerli resurslar təyin edilməli və yoxlanmalıdır və təhsilə necə töhfə verəcəyi nəzərdən keçirilməlidir.

   İcmanın resursları milli orqanların hüquqi məsuliyyətlərini əvəz etmir. İcmanın resursları tədris və təlimin keyfiyyətini, əlverişlilik və təhlükəsizliyini təkmilləşdirə bilər. Fiziki mühitə töhfələr uşaqların erkən inkişafı mərkəzlərinin, məktəb və digər təlim məkanlarının tikintisi, təmir və bərpası üçün maddi və əmək cəhətdən dəstəyi əhatə edir. Müdafiə və emosional, fiziki və sosial rifahın yaxşılaşdırılmasına töhfələrə təlim keçənlər, müəllimlər, fasilitatorlar və qayğı göstərənlərə psixososial dəstək aid edilə bilər. Maaşlar və digər kompensasiya formaları üçün resursların səfərbər edilməsilə müəllimlərin motivasiyası artırıla bilər. Resurs səfərbərliyinin qeydləri şəffaflıq və hesabatlılıq məqsədləri üçün saxlana bilər. Monitorinqlər keçirilərək uşaqların imkanlarından artıq istismar edilməsinə icazə verilməməlidir (həmçinin baxın: Əlverişlilik və təlim mühiti üzrə standart 2, səhifə 61-67; Əlverişlilik və təlim mühiti üzrə standart 3, rəhbər göstərişlər 1-4, səhifə 68-70; və Təhsil siyasəti üzrə standart 2, rəhbər göstəriş 4, səhifə 113).

2. **Əlverişlilik və mühafizənin yüksəldilməsi:** Təhsil orqanları, yerli icma və maraqlı humanitar təşkilatlar həssas uşaqlar və gənclərin təyin edilməsi və müntəzəm qaydada məktəb yaxud digər təlim fəaliyyətlərinə davam etməsi üçün icmanın üzvlərini həvəsləndirməlidir. Məsələn, yoxsul ailələrdən olan uşaqlara geyim təmin edən yaxud uşaqların başçılıq etdiyi ailələrə qida təmin edən qadınlar və gənclərdən ibarət qruplar. İcmanın üzvləri təhsil orqanları ilə birgə işləyərək məktəblər, uşaqların erkən inkişafı mərkəzləri və digər təlim məkanlarının uşaqlar və gənclər üçün təhlükəsiz və etibarlı məkanlar olduğuna əmin olmalıdır. Onlar ucqar ərazilərə təhlükəsiz gediş və nəqliyyat, eləcə də yardım təmin edə bilər. Əmək qabiliyyətini itirmiş təlim keçənlər üçün əlverişliliyi artırmaq məqsədilə fiziki maneələr aradan qaldırılmalıdır. Əmək qabiliyyətini itirmiş qızlar və digər təlim keçənlərin məktəbə davam etməsini artırmaq və həvəsləndirmək üçün qadınlar sinif köməkçisi kimi çalışa və yaxud təqibə qarşı etibarlı mühit təmin edə bilər. Gənclər mədəniyyət yaxud müdafiə səbəblərinə görə özlərindən kiçik uşaqların olduğu siniflərə gedə bilmirsə, icma həmyaşıdlar üçün təhsil, texniki və peşə təhsili və təlimi, eləcə də kiçik sahibkarlıq fəaliyyətinin inkişafı üzrə təlimlər kimi qeyri-formal təhsil proqramları hazırlamalı yaxud tələb etməlidir. İcma resursları istifadə edilərək fəlakət riskinin azaldılması üzrə təhsil və icmanın yardım hazırlığına dair informasiya inkişaf etdirilməli, adaptasiya olunmalı və bölüşdürülməlidir (həmçinin aşağıda baxın: rəhbər göstəriş 5; Əlverişlilik və təlim mühiti üzrə standartlar 2-3, səhifə 61-72; və SEEP Şəbəkəsi
*Böhran vəziyyətindən sonra minimum iqtisadi yenidənqurma standartları,* Müəssisənin İnkişafı standartları).

3. **Uzunmüddətli quruluş:** Təhsil işçiləri və icmalar rollar və məsuliyyətlər üzrə uzunmüddətli təlimlərdə iştirak etməlidir. Məsələn, resursların səfərbər edilməsi və idarə edilməsi, binaların bərpası və uşaqlar və gənclərin iştirakını təmin etmək üçün xüsusi ölçülər üzrə təlimlər.

4. **İcma töhfələrinin qəbul edilməsi:** Bütün planlama, proqramlaşdırma və hesabatvermə proseslərində icmaların töhfəsinə dair məlumatlara yer verilməlidir. Təhsilin yenidən qurulmasına dair icmanın töhfələri fiziki ola bilər, məsələn, tikinti materialları. Onlar yerli biliklər kimi keyfiyyət bildirə bilər (yəni rəqəmlərlə hesablana bilməyən). Güclü icma töhfəsi sahibkarlığı bildirir və uzunmüddətli dəstəyin təmin edilməsinə kömək edir. Buna baxmayaraq, davamlı kənar dəstək belə icma töhfələrindən asılı olmamalıdır. Təhsil üzrə hüquqi məsuliyyət milli orqanların üzərinə düşür.

Gənclərin həmyaşıdlar üçün təhsilə davam etməsi və töhfəsi, icmanın səfərbərliyi və inkişafı təşəbbüsləri həvəsləndirilməli və qəbul edilməlidir. Hazırlıq və ehtiyacların dəyərləndirilməsi mərhələlərində gənclərin iştirakı xüsusi əhəmiyyət daşıyır.

5. **Yerli imkanlar:** Fəlakət riskinin azaldılması və münaqişənin yumşaldılması üzrə təhsilin inkişafı, adaptasiyası və çatdırılması müsbət yerli öhdəsindən gəlmə strategiyaları və imkanlarına əsaslanmalı və onları gücləndirməlidir.

   Resurslardan qeyri-bərabər istifadə və icma daxilində müxtəlif qrupların iştirakı təhsil müdaxilələrinə təsir göstərə bilər və ayrılmalar və bölünmələri artıra bilər. Fərdi yaxud qrup şəklində töhfə verənlər təhsil planları yaxud proqramlarında töhfə verə bilməyənlərdən üstün tutulmamalıdır. Töhfə vermək istəməyənlərə qarşı ayrı-seçkilik salınmamalıdır (həmçinin baxın: Araşdırma standartı 1, rəhbər göstəriş 3, səhifə 37-38 və Təhsil siyasəti standartı 1, rəhbər göstəriş 6, səhifə 110).

## İcmanın İştirakı üzrə Standart 2: Resurslar

Təhsil üzrə koordinasiya mexanizmləri mövcuddur və keyfiyyətli təhsildən istifadə və onun davamlı olmasını təmin etmək istiqamətində maraqlı tərəflərin işinə dəstək verir.

### Əsas fəaliyyətlər (rəhbər göstərişlərlə birlikdə oxunmalıdır)

- Təhsil hüququnun təmin edilməsinə görə məsuliyyət daşıyan təhsil orqanları təhsil yardımı sahəsində rəhbərlik vəzifəsini, eləcə də digər təhsildə maraqlı tərəflərlə koordinasiya mexanizmlərində iştirak etməyi qəbul edir (baxın: rəhbər göstəriş 1).
- Müəssisələrarası koordinasiya komitəsi dəyərləndirmə, planlama, məlumatın idarə edilməsi, resursların səfərbər edilməsi, imkanların inkişafı və dəstəkləmə işlərini koordinasiya edir (baxın: rəhbər göstəriş 1).
- Bir sıra təhsil səviyyələri və növləri koordinasiya işlərində nəzərə alınır (baxın: rəhbər göstəriş 1).
- Təhsil orqanları, donorlar, BMT-nin agentlikləri, QHT-lər, icmalar və digər maraqlı tərəflər təhsil fəaliyyətlərinə dəstək vermək üçün yerində, şəffaf, tərəfsiz və koordinasiya edilən maliyyələşdirmə strukturlarını tətbiq edir (baxın: rəhbər göstəriş 2).
- Yardımın planlanması və koordinasiyası üzrə informasiyanın paylaşılması üçün şəffaf mexanizmlər koordinasiya komitəsi və koordinasiya qruplarında mövcuddur (baxın: rəhbər göstərişlər 3-4). Təhsil üzrə yardıma dair imkanlar və çatışmazlıqları təyin etmək üçün birgə dəyərləndirmələr aparılır (baxın: rəhbər göstəriş 4).
- Nəticə əldə etmək üçün bütün maraqlı tərəflər bərabərlik, şəffaflıq, məsuliyyət və hesabatlılıq prinsiplərinə əməl edir (baxın: rəhbər göstərişlər 5–6).

### Rəhbər göstərişlər

1. **Müəssisələrarası koordinasiya komitəsi,** təhsil üzrə yardımı koordinasiya edir və geniş şəkildə təmsil olunmalıdır. Milli təhsil orqanları rəhbərlik etməli, yerli orqanlar və qruplar isə müvafiq şəkildə təmsil olunmalıdır. Təhsil müəssisələrinin imkanı və hüquqi səlahiyyətlərinin qənaətbəxş olmadığı yerlərdə razılaşma ilə rəhbərlik başqa müəssisələrə verilə bilər. Mövcud təhsil koordinasiya qrupu bu öhdəlikləri üzərinə götürməlidir, ya da MDK-nın təhsil qrupu sistemi aktivləşdirilibsə, Təhsil Qrupu yaradılmalıdır. Buna baxmayaraq, müvafiq təhsil orqanının nümayəndəsi həmişə qərarvermə prosesində iştirak etməlidir. Böhranın mahiyyətindən asılı olaraq, koordinasiya qruplarına milli və yerli səviyyələrdə ehtiyac ola bilər. Üzvlərin rolları və məsuliyyətləri komitənin Səlahiyyətlərində təyin edilməlidir (həmçinin baxın: Təhsil siyasəti standartı 2, rəhbər göstərişlər 3-4, səhifə 113).

Uşaqların erkən inkişafı və ibtidai, orta, qeyri-formal, texniki, peşə, ali və yetkinlərin təhsili daxil olmaqla, bütün təhsil səviyyələri və növləri koordinasiya fəaliyyətlərində əhatə edilməlidir.

2. **Resursların səfərbər edilməsi:** Fövqəladə halların erkən mərhələsindən yenidənqurma işlərinə qədər keyfiyyətli təhsil proqramlarını uğurla və vaxtında həyata keçirmək üçün xeyli vəsait tələb olunur. BMT-nin Təcili və Birgə Apelyasiya Prosesləri daxil olmaqla, maliyyələşdirmə üzrə hərtərəfli, şəffaf və koordinasiya edilən yanaşmaların tətbiqi üçün bütün səylər göstərilməlidir. Ciddi fövqəladə hallarda BMT-nin fövqəladə Hallar üzrə Mərkəzi Yardım Fondu və digər fövqəladə yardım fondları təhsilin maliyyələşdirilməsinə kömək edə bilər. Yerli partnyorların resurslardan istifadəsinə köməklik ediləcəkdir.

   Fövqəladə hallarda maliyyələşdirmə işlərində milli və regional bazar şərtləri və ənənələri nəzərə alınmalı və təmin edilə bilməyən presidentlərə yer verilməməlidir. Bölünmənin qarşısını almaq üçün xüsusən münaqişə vəziyyətlərində resursların paylaşdırılması barədə siyasi araşdırma keçirilərək məlumat verilməlidir. Müəllimlər və digər təhsil işçilərinin kompensasiyası və digər təhsil ödənişləri və rüsumları üzrə koordinasiya edilən siyasətin olması zəruridir. Davamlı müdaxilələrə dəstək vermək üçün fövqəladə hallarda maliyyələşdirmə prosesi uzunmüddətli planlama ilə həyata keçirilməlidir (məs. çoxdonorlu rast fondları yaxud hövzə şəklində maliyyələşdirmə yaxud milli maliyyələşdirmə kimi inkişafın maliyyələşdirilməsi metodları). Özəl sektor maliyyələşdirməsi də araşdırılmalıdır, xüsusən də texniki və peşə təhsili və təlimi üçün (həmçinin baxın: Əlverişlilik və təlim mühiti üzrə Standart 2, rəhbər göstəriş 8, səhifə 65; Müəllimlər və digər təhsil işçiləri üzrə standart 2, rəhbər göstəriş 2, səhifə 99; Təhsil siyasəti üzrə standart 2, rəhbər göstəriş 4, səhifə 113; *Müəllimlərin Kompensasiyası üzrə FHTAŞ Rəhbər Göstərişləri və Xarici Təhsil Maliyyələşdirməsi üzrə FHTAŞ İstinad Təlimatı* FHTAŞ Vasitələr Dəstində mövcuddur: **www.ineesite.org/toolkit**; və SEEP Şəbəkəsi *Böhran Vəziyyətindən sonra İqtisadi Yenidənqurma üzrə Minimum Standartlar*, Maliyyə Xidmətləri Standartı 5: Koordinasiya və Şəffaflıq).

3. **İnformasiyanın idarə edilməsi və biliyin idarə edilməsinə** daxildir:
   - ehtiyaclar, imkanlar və əhatə dairəsinin dəyərləndirilməsi;
   - informasiyanın toplanması, saxlanması, təhlili və paylaşılması;
   - monitorinq və qiymətləndirmə;
   - gələcək praktika haqqında məlumatlandırma üzrə öyrənilən dərslər.

   Effektiv məlumat və bilik idarəetmə sistemləri milli sistemləri təkrarlamaq əvəzinə yenidən qurularaq genişlənməlidir. Uşaqların müdafiəsi, psixososial dəstək, sığınacaq, su və sanitariya, sağlamlıq və yenidənqurmanın erkən mərhələsi üzrə işləyənlər kimi, milli və yerli əməkdaşların cəlb

edilməsi çox vacibdir. İnformasiya və biliyin idarə edilməsi sistemləri milli və yerli orqanlar tərəfindən uzun müddətə yaradılmalı və saxlanılmalıdır (həmçinin baxın: Araşdırma standartı 1, rəhbər göstəriş 6, səhifə 39; Araşdırma standartı 2, rəhbər göstəriş 6, səhifə 43; və Araşdırma standartı 3, rəhbər göstəriş 3, səhifə 46-47; Təhsil siyasəti üzrə standart 1, rəhbər göstəriş 5, səhifə 110; və SEEP Şəbəkəsi Böhran Vəziyyətindən sonra İqtisadi Yenidənqurma üzrə Minimum Standartlar, Ümumi Standart 6: Təsiri artırmaq üçün işlər koordinasiya edilməlidir).

4. **Birgə dəyərləndirmələr** – təhsil üzrə yardım sahəsində imkanlar və çatışmazlıqları təyin etmək üçün əvvəlcədən razılaşdırılmış Qlobal Təhsil Qrupunun Təhsil Ehtiyaclarını Birgə Dəyərləndirmə Vasitələri yaxud digər ehtiyac dəyərləndirmə vasitələri istifadə və adaptasiya edilməlidir. Bu vasitələrin istifadəsinə dair təlim hazırlıq və fövqəladə halların planlanması fəaliyyətlərinə daxil edilməlidir. Əgər fərdi maraqlı tərəflər təhsil üzrə dəyərləndirmə keçirirsə, onlar nəticələri təhsil orqanları və geniş koordinasiya qrupu ilə paylaşmalı və koordinasiya edilən yardıma dəstək verməlidirlər. Bəzi ölkələrdə təhsilə dair sualları əhatə edən çox sektorun təcili dəyərləndirilməsi fövqəladə hal baş verdikdən sonra 48 saat ərzində həyata keçirilir. Bunun üçün səhiyyə, su və sanitariya və sığınacaq kimi digər sektorlarla koordinasiya tələb olunur (həmçinin baxın: Araşdırma standartı 1, rəhbər göstərişlər 1-8, səhifə 35-40).

5. **Hesabatlılıq:** Hər bir maraqlı tərəfin öz səlahiyyətləri vardır, buna baxmayaraq onların hamısı koordinasiya və informasiya paylaşılmasında hesabatlılığa əməl etməlidir. Yəni informasiyanın toplanmasında və iş planlamasına dair məlumatlandırma üçün istifadəsində şəffaflıq tələb olunur. Təhsil üzrə yardım sahəsində vacib çatışmazlıqlar olarsa, MDK Təhsil Qrupu yaxud digər koordinasiya mexanizmi prioritet ehtiyacların ödənilməsi üçün müvafiq maraqlı tərəflərin çatışmazlıqları aradan qaldırmasını təmin etməlidir. Təhsil üzrə işlərin nəticələri barədə məlumatları açıq şəkildə paylaşmaqla, koordinasiya edilən monitorinq və qiymətləndirmə təsir görmüş insanlara qarşı məsuliyyət daşımağa təşviq edə bilər. Həmçinin bu, əlavə işlərin görülməli olduğu yerləri təyin edərək FHTAŞ Minimum Standartlarının və müvafiq humanitar prinsiplərin tətbiqinə dəstək verə bilər. Milli insan hüquqları institutları yerli orqanların təsir görmüş insanların təhsil hüququnun təmin edilməsi üzrə öhdəliklərini izləməli və yardım etməlidir (həmçinin baxın: Təhsil siyasəti üzrə standart 2, rəhbər göstəriş 5, səhifə 114).

6. **Nəticəyə istiqamətlənən yanaşma** – bütün maraqlı tərəflərin təhsil üzrə yardımın mükəmməl koordinasiya edilməsini və arzuolunan nəticələri verməsini təmin etmək üçün işləməli olduğunu bildirir. Təhsil üzrə yardımın koordinasiyasının davamlı monitorinqi və qiymətləndirilməsi koordinasiya üzrə boşluqların tez təyin olunması və aradan qaldırılmasına imkan yaradır (həmçinin baxın: Araşdırma standartı 3-4, səhifə 45-49).

## Araşdırma Standartı 1: Dəyərləndirmə

Fövqəladə halların vaxtında keçirilən təhsil dəyərləndirmələri tam, şəffaf və iştirak edilərək keçirilir.

### Əsas fəaliyyətlər (rəhbər göstərişlərlə birlikdə oxunmalıdır)

- İlkin ani təhsil dəyərləndirməsi mümkün qədər tez, mühafizə və təhlükəsizliyi nəzərə almaqla, həyata keçirilir (baxın: rəhbər göstəriş 1).
- Dəyərləndirmə zamanı təhsilin məqsədi və əlaqəsinin yerli icmada qəbul edilməsi, təhsil əldə etməyə mane olan cəhətlər və prioritet təhsil ehtiyacları və fəaliyyətləri təyin edən təfərrüatlara ayrılmış məlumatlar toplanır (baxın: rəhbər göstəriş 2).
- Təlim və təhsil üzrə yerli imkanlar, resurslar və strategiyalar fövqəladə hallardan əvvəl və baş verdikdən sonra təyin edilir (baxın: rəhbər göstərişlər 2-5).
- Təhsil üzrə yardımın risk və münaqişə potensialına uyğun, əlaqəli və həssas olmasını təmin etmək üçün kontekst araşdırması keçirilir (baxın: rəhbər göstəriş 3).
- Təsir görmüş əhalinin nümayəndələri məlumat toplanmasının planlanması və tətbiqində iştirak edir (baxın: rəhbər göstərişlər 2-3, 5 və 7-8).
- Əsas maraqlı tərəflərin iştirakı ilə müxtəlif növ və səviyyədəki təhsil üzrə təhsil ehtiyacları və resursların hərtərəfli dəyərləndirilməsi keçirilir (baxın: rəhbər göstərişlər 2-7).
- Təkrarlanmaya yol verməmək üçün müəssisələrarası koordinasiya komitəsi dəyərləndirmələri digər sektorlar və əlaqəli maraqlı tərəflərlə koordinasiya edir (baxın: rəhbər göstərişlər 6 və 8).

### Rəhbər göstərişlər

1. **İlkin dəyərləndirmələrin vaxtı** – dəyərləndirmə komandası və təsir görmüş əhalinin mühafizə və təhlükəsizliyi nəzərə alınmalıdır. Dəyərləndirmə fövqəladə haldan sonra mümkün qədər tez keçirilməli və bütün təsir görmüş yerlərdə bütün təhsil növləri əhatə edilməlidir. İlkin dəyərləndirmədən sonra monitorinq və qiymətləndirmə ilə məlumatlar müntəzəm qaydada yenilənməlidir. Buraya proqram nailiyyətlərinin, məhdudiyyətlərinin və təmin edilməmiş ehtiyacların nəzərdən keçirilməsi daxildir. Bütün dəyərləndirmələr dərhal keçirilməsə, təcili fəaliyyətə dair məlumat vermək üçün qismi ilkin dəyərləndirmələr ilə məlumat əldə edilə bilər.

2. **Dəyərləndirmələr** – təhsil üzrə yardıma dair məlumatlandırma üçün təfərrüatlı məlumatlar toplanmalı və münaqişə yaxud fəlakət zamanı davamlı risk dəyərləndirilməlidir. “Təfərrüatlı” məlumat komponentlərinə ayrılmış məlumat deməkdir və bu halda cinsiyyət və yaşa görə araşdırılır.

Məlumatlar bütün təsir görmüş qruplar üçün təhsil hüququnu təmin etmək məqsədilə təhsil sahəsindəki imkanlar, resurslar, həssas cəhətlər, çatışmazlıqlar və çətinlikləri təyin edir. Təhsil və digər fövqəladə hallar üzrə yardım göstərənlərin keçirdiyi dəyərləndirmə və sahə baxışları koordinasiya edilməli və resursların səmərəsiz istifadəsi və müəyyən təsir görmüş əhalinin yaxud məsələlərin həddən artıq dəyərləndirilməsinin qarşısı alınmalıdır (həmçinin baxın: İcmanın iştirakı üzrə standart 2, səhifə 28-30 və Koordinasiya standartı 1, səhifə 31-34).

Dəyərləndirmələrdə mövcud məlumat mənbəyindən maksimum səviyyədə istifadə edilməlidir. İlkin məlumat toplanmasında bilik çatışmazlıqlarını aradan qaldırmaq üçün və təhsil sahəsində maraqlı tərəflərin mühüm qərarları barədə məlumatlandırmaq üçün lazım olan məlumatlar toplanmalıdır. Müraciət edilə bilməyən yerlərdə məlumat toplamaq üçün alternativ strategiyalar araşdırılmalıdır. Burada yerli liderlər və icma şəbəkələri ilə əlaqə qurula, ya da digər sektorlar yaxud böhran öncəsi məlumat bazalarından ikinci dərəcəli məlumatlar əldə edilə bilər. Böhran öncəsi məlumatlar həmçinin fövqəladə vəziyyətin müqayisə ediləcəyi ölçü təmin edəcəkdir.

Məlumat toplama vasitələri ölkə daxilində standartlaşdırılaraq layihələrin koordinasiyası asanlaşdırılmalı və məlumat təmin edən şəxslərin məsuliyyəti azaldılmalıdır. Mümkün olduqda, hazırlıq planının bir hissəsi kimi dəyərləndirmə vasitələri inkişaf etdirilməli və bütün maraqlı tərəflər arasında razılaşdırılmalıdır. Vasitələr yerli respondentlərin vacib hesab etdiyi əlavə məlumatlar üçün yer də təmin etməlidir.

Dəyərləndirmə komandalarına təsir görmüş icma üzvləri də daxil edilməlidir. Kişi və qadın təlim keçənlər, müəllimlər və digər təhsil işçiləri, valideynlər və himayəçilərin təcrübə, ehtiyac, narahatlıq və imkanlarını daha effektiv başa düşmək üçün onlar gender-balanslı olmalıdır. Müvafiq orqanlardan məsləhət alınmalıdır.

Əsas hörmət və ayrı-seçkiliyin olmaması prinsipləri daxil olmaqla, etik məsələlər dəyərləndirməni əsaslandırmalıdır. Toplanan məlumatlar həssas olarsa yaxud prosesdə iştirak etdiyinə görə məlumat toplayan şəxslər risk daşıya bilər (həmçinin aşağıda baxın: rəhbər göstəriş 5). Məlumat toplayanlar iştirakçıları qorumalı və aşağıdakılar barədə məlumatlandırmalıdır:

- məlumat toplama məqsədi;
- məlumat toplama prosesində iştirak etməmə hüququ, yaxud mənfi təsir görmədən istənilən vaxt tərk etmə hüququ;
- məxfilik və anonimlik hüququ.

(Həmçinin baxın: Araşdırma Standartı 4, rəhbər göstəriş 2, səhifə 48-49).

3. **Kontekst araşdırması** – fəlakət riski və münaqişə araşdırması daxildir, münaqişə və fəlakət potensialı üçün təhsil üzrə yardımların müvafiq, uyğun və həssas olmasını təmin etməyə kömək edir.

Risk araşdırmasında təlim keçənlərin sağlamlığı, mühafizə və təhlükəsizliyinə təsir göstərən bütün aspektlər nəzərə alınır. Bu, təhsilin risk amili deyil, qoruyucu tədbir olduğunu vurğulayır. Risk araşdırmalarında aşağıdakıları əhatə edən təhsil riskləri dəyərləndirilir:

- təhlükə, zəif idarəetmə və korrupsiya;
- yoluxucu xəstəliklərin baş qaldırması kimi səhiyyə məsələləri;
- sənayedə toksik qazların buraxılması və kimyəvi maddələrin tökülməsi kimi digər sosial, iqtisadi, fiziki və ətraf mühit amilləri;
- kontekstə uyğun cinsiyyət, yaş, əmək qabiliyyətinin itirilməsi, etnik tarixçə və digər amillərlə əlaqəli risklər.

Münaqişə araşdırmasında təhsil müdaxilələrinin münaqişəni çətinləşdirmədiyinə əmin olmaq üçün ciddi münaqişənin mövcud olması yaxud belə bir riskin olması dəyərləndirilir. Bu, həm münaqişə, həm də fəlakət zamanı lazımdır. Münaqişə araşdırmasında aşağıdakılara dair suallar verilir:

- münaqişədə birbaşa yaxud dolayı iştirak etmiş, münaqişədən təsir görmüş yaxud təsir görmə riski daşıyan icraçılar;
- faktiki yaxud potensial münaqişənin səbəbləri və şikayətə səbəb olan amillər;
- təhsildə maraqlı tərəflər daxil olmaqla, icraçılar arasında münasibətlər və münaqişənin səbəbləri.

Müəyyən ərazilər yaxud ölkələrdə münaqişə araşdırması adətən araşdırma təşkilatları tərəfindən keçirilir. Onlar təhsil perspektivindən təkrar nəzərdən keçirilməlidir. Əgər mövcud araşdırmalar əldə edilə bilmirsə yaxud qüvvəsini itiribsə, təsir görmüş ərazidə seminar yaxud masaüstü çalışma şəklində münaqişə araşdırması keçirilə bilər. Təhsildə maraqlı tərəflər təhsilə dair məlumatlar daxil olmaqla, müvafiq təşkilatların hərtərəfli münaqişə araşdırması keçirməsinə dəstək verməli və nəticələr bütün maraqlı tərəflərlə bölüşülməlidir.

Risk araşdırması hesabatında təbii və insanların səbəb olduğu təhlükələr, eləcə də münaqişələrdə riskin idarə edilməsi üzrə strategiyalar təklif olunur. Strategiyalara qarşısını alma, yumşaltma, hazırlıq, cavab tədbirləri, reabilitasiyavə bərpa işləri daxil edilə bilər. Məsələn, fövqəladə halların qarşısının alınması, yumşaldılması və yardım üçün məktəblər yaxud təlim məkanlarında fövqəladə hallar və mühafizə üzrə planların olması tələb oluna bilər. Onlar həmçinin potensial təhlükələri göstərən və təlim keçənlərin həssaslığı və davamlılığına təsir göstərən amilləri vurğulayan risk xəritəsi hazırlaya bilər.

Risk araşdırması resurslar və imkanlar daxil olmaqla, icmanın davamlılığı və öhdəsindən gəlmə səylərinin dəyərləndirilməsi ilə tamamlanır. Fəlakətin yumşaldılması, hazırlıq və yenidənqurma üzrə bilik, bacarıq və imkanlar mümkün olarsa, hazırlıq və yumşaltma fəaliyyətləri vasitəsilə fəlakətdən əvvəl və sonra dəyərləndirilib gücləndirilir (həmçinin baxın: İcmanın iştirakı üzrə standart 1, rəhbər göstərişlər 1-4, səhifə 22-25; İcmanın iştirakı üzrə standart 2, rəhbər göstəriş 5, səhifə 30; Əlverişlilik və təlim mühiti üzrə standart 2, rəhbər göstəriş 11, səhifə 66-67; Təlim və tədris standartı 2, rəhbər göstəriş 6, səhifə 86; Təhsil siyasəti standartı 1, rəhbər göstərişlər 2 və 4, səhifə 108-110; və Təhsil siyasəti standartı 2, rəhbər göstərişlər 3 və 5, səhifə 113-114).

4. **Məlumatların qüvvədə olması və araşdırma üsulları:** Məlumat araşdırmasında aşağıdakılar aydın şəkildə bildirilməlidir:
   - göstəricilər;
   - məlumat mənbələri;
   - toplama üsulları;
   - məlumat toplayanlar;
   - məlumat araşdırması prosedurları.

   Məlumat toplayıcıları üzrə mühafizə riskləri olan yerdə fərdi məlumat toplayanların adları deyil, məlumatın toplanmasında iştirak edən təşkilat növləri istinad edilməlidir. Nəticələrin etibarlılığı və ya digər vəziyyətlərlə əlaqəsinə təsir göstərə bilən məlumat toplama yaxud araşdırma üzrə məhdudiyyətlər qeyd olunmalıdır. Məsələn, resursların paylaşdırılmasını artırmaq üçün yaxud təqsiri üzərindən atmaq üçün iştirak sayını şişirdən respondentlər tərəfindən məlumatlar etibarsız hala gətirilə bilər. Həmçinin proqramlar və monitorinq sistemləri tərəfindən bəzi qruplar yaxud məsələlər həll edilmədikdə bu, qeyd edilməlidir.

   Əvvəlcədən formalaşmış mənfi rəyi azaltmaq üçün məlumatlar müxtəlif mənbələrdən götürülərək müqayisə edilməlidir. Bu üsul məlumatların etibarlılığını artırır. Nəticələr əldə edilməzdən əvvəl ən çox təsir görən qruplar, eləcə də oğlanlar və qızlar konsultasiya keçməlidirlər. Kənardan insanların prioritetləri və düşüncələrinə əsasən humanitar yardımın qarşısını almaq üçün yerli düşüncə və biliklər araşdırmanın əsas elementi olmalıdır (həmçinin baxın: Təhsil siyasəti standartı 1, rəhbər göstəriş 4, səhifə 109-110).

5. **Dəyərləndirmələrin iştirakçıları** təhsil orqanları və təsir görmüş əhalinin nümayəndələri, eləcə də həssas qrupları əhatə etməlidir. Bu qrupların məlumat və informasiya toplanması, araşdırılması, idarə edilməsi və yayılmasında iştirakı ilkin dəyərləndirmə zamanı çətin şərtlərə görə məhdudlaşdırıla bilər. Kontekst daha stabil olduqda bu, artmalıdır. Dəyərləndirmələr icmanın bütün dillərində, eləcə də işarə dili və Brayl şrifti ilə kommunikasiyaya imkan yaratmalıdır (həmçinin baxın: Təhsil siyasəti standartı 1, rəhbər göstəriş 4, səhifə 109-110).

6. **Təhsil sektoru içərisində və başqa sektorlarla əməkdaşlıq** Dəyərləndirmələrin keyfiyyəti, hərtərəfliliyi və faydasını artırmaq üçün mühümdür. Təhsildə maraqlı tərəflər ehtiyaclara görə dəyərləndirmələri birgə dəyərləndirmələr keçirməklə yaxud müxtəlif agentliklərdə təkrarlanmaların qarşısını almaq üçün dəyərləndirmələri koordinasiya etməklə uyğunlaşdırmalıdır. Koordinasiya edilən dəyərləndirmələr fövqəladə halların təsirinə dair güclü dəlil təmin edir və əlaqəli yardımı asanlaşdırır. Məlumat paylaşmasını inkişaf etdirərək onlar humanitar maraqlı tərəflərin hesabatlılığını artırır (həmçinin baxın: Koordinasiya standartı 1, rəhbər göstəriş 4, səhifə 33).

Təhlükələr, risklər və xidmətlərin mümkünlüyü ilə əlaqəli təhsil yardımı barədə məlumatlandırmaq üçün təhsil sektoru digər sektorlarla işləməlidir.

Burada aşağıdakılarla işləmək əhatə edilə bilər:

– epidemiya təhlükələri, epidemioloji məlumatlar əldə etmək və mövcud əsas səhiyyə xidmətləri, eləcə də cinsi və reproduktiv sağlamlıq, İİV-dən qorunma, müalicə, qayğı və dəstək üzrə xidmətlər barədə məlumat əldə etmək üçün səhiyyə sektoru;
– icma daxilində gender-əsaslı və cinsi zorakılıq, himayə edilməyənlər və digər həssas əhali ilə əlaqəli risklərə dair məlumat əldə etmək üçün müdafiə sektoru; təhsilə maneələr; və mövcud sosial və psixososial dəstək xidmətləri;
– məktəb-əsaslı, icma-əsaslı və digər qidalanma xidmətləri barədə məlumat almaq üçün qida sektoru;
– təhlükəsiz və müvafiq yeri koordinasiya etmək üçün, təlim və əyləncə məkanlarına daxil olmaq üçün tikinti-bərpa üçün sığınacaq və düşərgə idarəetmə sektorları; və məktəblər üçün lazım olan qeyri-qida elementlərinin təmin edilməsi;
– təlim sahələrində etibarlı su təchizatı və müvafiq sanitariya xidmətlərinin təlim sahəsində mövcud olmasına əmin olmaq üçün su və sanitariya;
– kitabların və digər təchizatların satın alınması və çatdırılmasını təşkil etmək üçün

(Həmçinin baxın: Koordinasiya standartı 1, rəhbər göstərişlər 1 and 3-4, səhifə 31-33 və Təhsil siyasəti standartı 2, rəhbər göstəriş 2, səhifə 112.)

7. **Təhsil və psixososial ehtiyaclar:** Təhsil və psixososial ehtiyaclar və resurslara dair təfsilatlı məlumatlar ümumi ehtiyac dəyərləndirməsində toplanmalıdır. Yerli biliklərə malik dəyərləndirmə komandasının üzvləri bu dəyərləndirmə aspektlərinə dəstək verə bilər. Həyata keçirmək üçün agentliklər resurslar, işçilər və təşkilati imkanları dəstəkləməlidir.

8. **Dəyərləndirmənin nəticələri** mümkün qədər tez hazırlanmalı və təhsil fəaliyyətlərinin planlanmasına imkan yaratmalıdır. Təhsil orqanları, QHT-lər, humanitar agentliklər və yerli icma tərəfindən resurslar və təhsil ehtiyaclarının və təhsil hüquqlarının pozulması yaxud qorunmasını təyin edən böhran öncəsi və böhran sonrası dəyərləndirmə məlumatları da paylaşılmalıdır.

   Yerli yaxud milli səviyyədəki təhsil orqanları dəyərləndirmə nəticələrinin paylaşılmasını koordinasiya etməlidir. Əgər belə orqanların bunu etməyə imkanı yoxdursa, təhsil sahəsində koordinasiya komitəsi, Təhsil Qrupu kimi beynəlxalq səviyyədə lider icraçılar bu prosesi idarə edə bilər. Məlumatın asanlıqla istifadə edilə bilməsi üçün dəyərləndirmə nəticələrində məlumatların təqdimatı standartlaşdırılmalıdır (həmçinin baxın: Koordinasiya standartı 1, səhifə 31-34).

## Araşdırma Standartı 2: Yardım strategiyaları

Hərtərəfli təhsil üzrə yardım strategiyaları kontekst, təhsil hüququna təsir göstərən maneələr və bu maneələri aradan qaldırmaq üçün strategiyalar haqqında aydın təsəvvür ehtiva edir.

**Əsas fəaliyyətlər** (rəhbər göstərişlərlə birlikdə oxunmalıdır)

- Yardım strategiyaları dəyərləndirmə nəticələrini dəqiqliklə əks etdirir (baxın: rəhbər göstərişlər 1-2).
- Təhsil üzrə yardım hərtərəfli və keyfiyyətli təhsil üçün təsir görmüş əhalinin ehtiyaclarını tədricən ödəyir (baxın: rəhbər göstərişlər 1, 5 və 8).
- Yardım strategiyaları icma yaxud təminatçılara ziyan vurmayan və fövqəladə halların nəticəsini daha da pisləşdirməyən şəkildə hazırlanır və tətbiq edilir (baxın: rəhbər göstərişlər 3 və 7).
- İlkin dəyərləndirmədən və kontekst araşdırmasından toplanmış informasiya davam edən təhsil yardımları barədə məlumat vermək üçün yeni məlumatlarla təzələnir (baxın: rəhbər göstəriş 4).
- Yardım strategiyaları bacarıqların inkişafını əhatə edir ki, bunun hesabına dəyərləndirmələrin keçirilməsi və yardım fəaliyyətlərinin tətbiqində təhsil orqanları və icma üzvlərinə dəstək verilir (baxın: rəhbər göstəriş 2).
- Təhsil proqramları milli təhsil proqramları ilə tamamlanır və uyğunlaşdırılır (baxın: rəhbər göstərişlər 6 və 8).
- Əsas məlumatlar proqramın başlanğıcında sistemli şəkildə toplanır (baxın: rəhbər göstəriş 9).

### Rəhbər göstərişlər

1. **Yardım strategiyaları:** Təhsildə maraqlı tərəflər yardım strategiyalarının dəyərləndirmələrin əsas nəticələri və başlıca prioritetlərinə əsaslanması üçün dəyərləndirmə məlumatlarının hərtərəfli araşdırma və şərhinə yatırım etməlidir. Burada proqram yardımları üzrə artıq formalaşmış ideyalar təsdiqlənərək dəyərləndirmə nəticələrinə dair riskə yol verilmir.

   Yardım strategiyaları təhsil orqanlarının və digər maraqlı tərəflərlə əməkdaşlığın aparıcı rolunu nümayiş etdirməlidir. Məsələn, müəllimlərin kompensasiyası və avadanlıq xərcləri kimi təhsil xərclərinin xərcləri xərc səviyyələrinin uzunmüddətli davamlılığı nəzərə alınmaqla, təşkilatlar arasında uyğunlaşdırılmalıdır.

   Yardım strategiyaları müvafiq yerlərdə müvafiq fövqəladə hal planlarına əsaslanmalıdır və icmanın aktiv iştirakı ilə inkişaf etdirilməlidir. Onlar müxtəlif təhsil səviyyələri və növlərini, risklər və təhlükələr barədə məlumatlılığı, eləcə də digər müəssisələrin təhsil fəaliyyətlərinə dəstək verib verməməsini göstərməlidir. Əsas məlumat toplanması və qiymətləndirilməsi daxil olmaqla,

büdcədə zəruri təhsil fəaliyyətləri əhatə edilməlidir (həmçinin baxın: İcmanın iştirakı üzrə standart 1, rəhbər göstəriş 1, səhifə 22-23).

Burada gender maneələri daxil olmaqla, bütün təhsil səviyyələri və növlərini əldə etməyə qarşı maneələr və onları aradan qaldırmaq üçün tələb olunan fəaliyyətlər araşdırılmalıdır. Hərtərəfli təhsil təmin etmək və təhsilə artan tələbi ödəmək üçün mümkün qədər çox uyğunlaşma olmalıdır.

2. **Məlumat toplanması və araşdırma üçün bacarığın inkişafı:** Yardım strategiyaları təhsil orqanlarının işçiləri və icmanın üzvləri üçün bacarığın artırılmasını əhatə edir. Gənc icma üzvləri xüsusən məlumat toplanması və araşdırılması, monitorinq və qiymətləndirməyə cəlb oluna bilər. Dəyərləndirmə məlumatlarının hərtərəfli və effektiv toplanması və araşdırılmasını təmin etmək üçün işçi heyətinin cəlb edilməsində gender balansına riayət edilməsi vacibdir (həmçinin baxın: Araşdırma standartı 3, rəhbər göstəriş 2, səhifə 46 və Araşdırma standartı 4, rəhbər göstəriş 3, səhifə 49).

3. **'Ziyan vurma!':** fövqəladə hallarda təhsil yardımı resursların qıt olduğu yerlərə təlim, iş, təchizatlar və qida kimi resursların çatdırılmasını əhatə edir. Bu resurslar adətən güc və zənginliyi təmsil edir. Bunlar cəmiyyət içərisində münaqişəyə səbəb ola yaxud marjinalizasiya yaxud ayrı-seçkiliyi gücləndirə bilər. Münaqişə vəziyyətində bəzi insanlar belə resursları öz mənafelərini qorumaq, başqalarının mənafeyini zəiflətmək yaxud şəxsən mənfəət əldə etmək üçün istifadə etməyə cəhd göstərə bilər. Əgər bu baş verərsə, təhsil yardımları ziyan vura bilər. Bunun qarşısını almaq üçün səy göstərilməli, risk və münaqişə araşdırması anlayışı olmalıdır (həmçinin baxın: Araşdırma standartı 1, rəhbər göstəriş 3, səhifə 37-38).

   Resursların çatdırılması və fövqəladə hallarda təhsil yardımının həyata keçirilməsi də həmçinin yerli sülh imkanlarını gücləndirə bilər. İcmaları birləşdirən əlaqələr yaratmaqla fəaliyyətlər dağıdıcı münaqişəyə səbəb olan bölünməni və təzyiq mənbələrini azalda bilər. Məsələn, müəllimlərin təlimi proqramları müxtəlif etnik qruplardan müəllimlərin peşə marağı ətrafında birləşməsinə yol aça bilər. Əvvəllər təcrid edilmiş qruplar birləşdirilərək daha tərəfsiz icma münasibətləri qurula bilər.

4. **Yardım strategiyalarının təzələnməsi:** Təhsildə maraqlı tərəflər fövqəladə halların erkən mərhələsindən yenidənqurma işlərinə qədər və inkişaf mərhələsində yardım strategiyalarını müntəzəm qaydada nəzərdən keçirərək yeniləməlidir. Onlar cari tarixə olan nailiyyətləri, fövqəladə və mühafizə vəziyyətindəki dəyişiklikləri və müvafiq strateji dəyişiklikləri göstərməlidir. Təmin edilməmiş ehtiyaclar və hüquqların cari hesabı və bu ehtiyacları ödəmək üçün müvafiq strateji dəyişikliklər olmalıdır. Müdaxilə edilərək keyfiyyət, əhatə, davamlılıq və müştərək sahiblik üzrə tədricən inkişafa yol açılmalıdır.

5. **Donor yardımı:** Donorlar müntəzəm qaydada fövqəladə hallarda təhsil üzrə yardımın keyfiyyət və əhatə dairəsini yoxlamalı və təhsilin keyfiyyəti və əlverişlilikdə minimum səviyyənin əldə edildiyinə əmin olmalıdır. Həssas qruplardan olan tələbələrin davamiyyəti və saxlanılmasına xüsusi diqqət ayrılmalı, fövqəladə hallardan təsir görmüş yerlərdə müxtəlif təhsil fürsətlərinə bərabər əlverişlilik təmin edilməlidir. ‘Bərabər əlverişlilik’ dedikdə, xüsusən etnik, dil yaxud əmək qabiliyyətinin itirilməsi kimi xüsusiyyətlərə görə təcrid olunmuş insanlar, eləcə də uşaqlar, gənclər və yetkin tələbələrə (kişi yaxud qadın olmasından asılı olmayaraq) bərabər fürsətlərin təmin olunması nəzərdə tutulur. Təhsil yardımının maliyyələşdirilməsinə su, qida, sığınacaq və səhiyyə yardımları ilə eyni əhəmiyyət verilməli, təsir görmüş əhaliyə təhsil verilməsi təmin edilməlidir. Buraya qaçqınlar və məcburi köçkünlərə ev sahibliyi edən icmalar daxildir. Hamı üçün təhsil hüququnu qorumaq üçün müvafiq maliyyələşdirmə tələb olunur. Proqramlar qısamüddətli maliyyələşdirmə ilə məhdudlaşdırılmamalı, yenidənqurma mərhələsinədək davam etməlidir (həmçinin baxın: rəhbər göstəriş 7, Əlverişlilik və təlim mühiti standartı 1, rəhbər göstərişlər 1-2, səhifə 55-57, və Xarici Təhsil Maliyyələşdirməsi üzrə FHTAŞ İstinad Təlimatı FHTAŞ Vasitələr Dəstində mövcuddur: www.ineesite.org/toolkit).

6. **Milli proqramların gücləndirilməsi:** fövqəladə hallarda təhsil yardımı uşaqların erkən inkişafı, peşə və yaşayış vasitələri proqramları daxil olmaqla, milli təhsil proqramları ilə uyğunlaşdırılmalı və onları gücləndirməlidir. Buraya milli və yerli təhsil planlaması, idarə edilməsi və nəzarəti, eləcə də fiziki infrastruktur və müəllimlərin praktik təlimi və dəstəklənməsi daxildir. fövqəladə hallarda təhsil yardımları təhsil orqanları ilə koordinasiya edilmələrək gələcək üçün daha yaxşı sistem qurulmalı, əmək qabiliyyətini itirənlər və azlıqlar qrupundan olanlar daxil olmaqla, bütün uşaqlar üçün hərtərəfli təhsil sistemi gücləndirilməlidir (həmçinin baxın: Təhsil siyasəti standartı 1, səhifə 107-111 və Təhsil siyasəti standartı 2, rəhbər göstəriş 4, səhifə 113).

7. **Fövqəladə hallarda yardıma hazırlıq və fəlakət riskinin azaldılması:** İnkişaf agentlikləri və donorlar qoruyucu tədbirlər kimi və böhran vəziyyətindən sonra yenidənqurma mərhələsinədək fəlakət riskinin azaldılması üçün və fövqəladə hallarda yardıma hazırlıq üçün işlərin görülməsinə dəstək verməlidir. Fəlakət riskinin azaldılması və hazırlıq işlərinə qoyulan investisi-

yalar effektiv olmalı, təhsil orqanları və əməkdaşları tərəfindən daha yaxşı planlama, koordinasiya və yardımın həyata keçirilməsi təmin edilməlidir. Fəlakət riskinin azaldılması və hazırlıq işlərinə qoyulan investisiya həmçinin fövqəladə hallarda daha az investisiya tələb olunacağı deməkdir.

8. **Təşkilati səlahiyyətlərə qarşı çətinliklərin öhdəsindən gəlmək:** Məhdud səlahiyyətli humanitar təşkilatlar – məsələn uşaqlar, ibtidai təhsil yaxud qaçqınlar üçün – onların təhsil üzrə yardımlarının təhsil orqanları və digər təhsildə maraqlı tərəflərin yardımlarını tamamlamasına əmin olmalıdır. Ümumi təhsil strategiyaları aşağıdakıları əhatə etməlidir:
   - uşaqların erkən inkişafı;
   - hərtərəfli ibtidai təhsil;
   - orta, ali və peşə təhsili daxil olmaqla, gənclərin ehtiyacları;
   - yetkinlər üçün təhsil;
   - işdən əvvəl və iş zamanı müəllimlər üçün təlim.

   Yetkin tələbələr üçün strategiyalara yazma-oxuma və riyazi biliklər, həyat biliklərinin inkişafı, təhlükəsizlik və mühafizə barədə məlumatlılıq (məsələn, yeraltı minalar barədə məlumatlılıq) sahəsində qeyri-formal təhsil proqramları daxildir. Qayıdanların olduğu yerlərdə təhsilin inkişafına əlavə hazırlıq sinifləri və peşə təlimi kimi uzunmüddətli dəstəyin təmin edilməsi daxildir (həmçinin baxın: Koordinasiya standartı 1, səhifə 31-34 və Tədris və təlim standartları 1-2, səhifə 77-86).

9. **Əsas məlumatların toplanması:** 'Əsas məlumatlar' dedikdə, yeni təhsil fəaliyyətlərinə başlamazdan əvvəl hədəf əhalidən toplanan məlumatlar nəzərdə tutulur. Bu, proqram heyətinin təhsilin vəziyyətini anlamasına kömək edir və sonradan monitorinq və qiymətləndirmə zamanı toplanan məlumatlarla müqayisə üçün əsas təşkil edir. Əsas məlumatlar sistemli şəkildə toplanmalıdır. Nümunələrə təfərrüatlara ayrılmış əhali məlumatları, məktəbə davamiyyət sayı və müəllim-tələbə nisbətləri daxildir. Məlumatlar müdaxiləyə xas ola bilər. Məsələn, əgər proqramda qızların məktəbə davamiyyətinin inkişafı nəzərdə tutulubsa, əsas olaraq proqram başlamazdan əvvəl qızların davamiyyət sayı tələb olunur.

## Araşdırma standartı 3: Monitorinq

Təhsil üzrə yardım fəaliyyətləri və təsir görmüş əhalinin dəyişən təlim ehtiyaclarının müntəzəm qaydada monitorinqi həyata keçirilir.

**Əsas fəaliyyətlər** (rəhbər göstərişlərlə birlikdə oxunmalıdır)

- fövqəladə halların erkən mərhələsindən yenidənqurma mərhələsinədək təhsil yardımı fəaliyyətlərinin müntəzəm monitorinqi üçün effektiv sistemlər mövcuddur (baxın: rəhbər göstəriş 1).
- Təhsil üzrə yardım fəaliyyətlərinin monitorinqi bütün tələbələr, müəllimlər və digər təhsil işçilərinin təhlükəsizlik və mühafizəsini təmin etmək üçün həyata keçirilir (baxın: rəhbər göstəriş 1).
- Həssas insanlar mütəmadi qaydada konsultasiya edilir, onlara məlumat toplama metodologiyası öyrədilir və monitorinq fəaliyyətlərinə cəlb edilirlər (baxın: rəhbər göstəriş 2).
- Təfərrüatlara ayrılmış təhsil məlumatları sistemli və müntəzəm şəkildə toplanılır və təhsil yardımı barədə məlumat verir (baxın: rəhbər göstərişlər 3-4).
- Təhsil məlumatları müntəzəm intervallarla araşdırılır və bütün əlaqədar maraqlı tərəflərlə, xüsusən də təsir görmüş icmalar və həssas qruplarla paylaşılır (baxın: rəhbər göstərişlər 3-4).

### Rəhbər göstərişlər

1. **Monitorinq** nəticəsində əhalinin dəyişən təhsil ehtiyaclarının təmin olunub olunmaması və onların dəyişən kontekstə necə reaksiya verməsi ölçülür. Aşağıdakılar təmin olunur:
   - müdaxilələrin müvafiq və effektiv olması;
   - inkişaf ehtimalları təyin olunur;
   - münaqişənin yumşaldılması və fəlakət riskinin azaldılması;
   - hesabatlılığın artırılması.

   Təhsil proqramlarının planlaşdırılmış və planlaşdırılmamış təsirlərinin monitorinqi keçirilərək təsadüfən təcridolunma, ayrı-seçkilik, münaqişə yaxud təbii təhlükələri artırıb artırmamasına əmin olunmalıdır. Elan eilməmiş monitorinq ziyarətləri monitorinq məlumatlarının etibarlılığını artıra bilər.

   Monitorinqin planlanması ehtiyaca görə müxtəlif tipli məlumatların hansı tezliklə toplanmalı olduğunu, məlumatın toplanması və emalı üçün tələb olunan resursları müəyyənləşdirəcəkdir. Bir çox məlumat tipi məktəblər və digər təhsil proqramlarından nümunə şəklində götürülə bilər və beləcə ehtiyac və problemlər haqqında cəld məlumat əldə oluna bilər. Belə məlumata daxildir:

– davamiyyət və tərk etmə halalrına dair təfərrüatlara ayrılmış məlumat;
– məktəbən əvvəl tələbələr qida qəbul edirmi;
– dərsliklərin və dərs materiallarının mövcud olub-olmaması.

Məktəbə getməyən uşaqların və bunun səbəbinin monitorinqi üçün kiçik bir ərazidə yerləşən nümunə evlərə baş çəkilərək həyata keçirilə bilər. Monitorinq zamanı birbaşa qadınlar və həssas qrupları dinləmək vacibdir. Etnik yaxud digər sosial qruplara dair məlumatların hərtərəfli toplanması çətinlik törədirsə yaxud həssasdırsa, qeyri-formal söhbət kimi nümunə sorğular və keyfiyyət əsaslı rəylər müəyyən qruplara dair problemləri aşkara çıxara bilər.

Monitorinq və hesabat sistemləri tələbələr, müəllimlər və digər təhsil işçilərinin təhlükəsizlik və rifahına qarşı yaranan narahatlıqları, eləcə də təhsil infrastrukturunun vəziyyətini öyrənmək üçün tələb olunur. Bu, xüsusən də silahlı qoşunların hücumuna məruz qalma, uşaqların silahlı qoşunlar yaxud qruplarda işə cəlb olunması, gender-əsaslı zorakılıq yaxud təbii fəlakətlər kimi hallarda əhəmiyyətlidir. Monitorinqin bu cəhətinə görə, təhsildə maraqlı tərəflər mühaizə, ədalət, müdafiə və insanhüquqları üzrə QHT-lər, BMT agentlikləri, milli və yerli orqanlarla birgə işləməlidir. Bildirilən məlumatların həssaslığını nəzərə almaq vacibdir.

Cari təhsil üzrə yardım fəaliyyətləri lazım gələrsə, monitorinq nəticələrinə uyğun dəyişdirilməlidir.

2. **Monitorinqdə iştirak edən insanlar** təsir görmüş əhalinin bütün qruplarından həssas mədəniyyət məsələlərini nəzərə almaqla məlumat toplaya bilməlidir. Komanda gender-balansına görə təşkil olunmalı, yerli dili səlis bilməli və məlumat toplamaq üzrə təlim keçməlidir. Yerli praktikaya uyğun olaraq, qadınlar və azlıqların ayrılıqda, etibarlı şəxslər tərəfindən konsultasiya olunması tələb oluna bilər. Gənclər daxil olmaqla, təsir görmüş icmanın nümayəndələri həyatlarına birbaşa təsir edən təhsil proqramlarının effektivliyinin monitorinqində mümkün qədər erkən iştirak etməlidir. Bu, xüsusən yeniyetmə qızlar yaxud əmək qabiliyyətini itirmiş tələbələr kimi xüsusi qruplar üçün qeyri-formal təhsil proqramlarında vacibdir (həmçinin baxın: Araşdırma standartı 2, rəhbər göstəriş 2, səhifə 42 və Araşdırma standartı 4, rəhbər göstəriş 3, səhifə 49).

3. **Təhsil idarəsi üzrə informasiya sistemi**, bir qayda olaraq milli orqanlar tərəfindən idarə olunur, təhsil məlumatlarını toplayır və araşdırır. Əgər təhsil idarəsi üzrə informasiya sistemi mövcuddursa, fövqəladə hal zamanı korlanmış ola bilər yaxud təkmilləşdirilməyə ehtiyac ola bilər. Milli təhsil idarəsi üzrə informasiya sistemi yaxud ekvivalentinin inkişafı yaxud təkmilləşdirilməsi üçün

Milli, regional və yerli səviyyələrdə bacarığın inkişafı tələb oluna bilər. Bacarığın inkişafı müvafiq insanlara mövcud məlumatı toplamaq, idarə etmək,

şərh etmək, istifadə etmək və bölüşməkdə dəstək verir. Bu işə yenidənqurma mərhələsinədək mümkün qədər tez başlamalı və müəyyən hökumət orqanı ilə əsaslandırılaraq fəaliyyət sistemi nəzərdə tutulmalıdır (həmçinin baxın: Koordinasiya standartı 1, rəhbər göstəriş 3, səhifə 32-33; Təhsil siyasəti standartı 1, rəhbər göstəriş 5, səhifə 110; və Təhsil siyasəti standartı 2, rəhbər göstəriş 4, səhifə 113).

Təhsil idarəsi üzrə informasiya sistemi üçün müvafiq proqram və avadanlıq tələb olunur. Milli və yerli təhsil idarələri və təhsil üzrə digər alt-sektorlarda (məsələn, milli təlim institutları) informasiya mübadiləsi üçün müvafiq avadanlıq olmalıdır. Xüsusi proqramlarla təchiz olunmuş mobil telefonlar məlumat toplamasını təkmilləşdirə bilər, lakin texnologiya çatışmazlığı resursların çatışmadığı ərazilərdən məlumatın toplanmamasına səbəb olmamalıdır.

4. **Tələbələrin monitorinqi** təlim zamanı və kurs tamamlandıqdan sonra mümkün olduqda baş tutmalıdır.
Keyfiyyət və kəmiyyət əsaslı dəyərləndirmələr vasitəsilə monitorinq aşağıdakıları əhatə edə bilər:
– çox kiçik uşaqlarda ümumi və dəqiq hərəkət, koqnitiv və sosial-emosional inkişaf;
– yazma-oxuma və riyazi biliklərin saxlanması;
– əsas həyat bilikləri barədə məlumatlılıq və onların tətbiqi;
– oxuma materiallarının əldə edilməsi.

Peşə təhsilində monitorinq tələbələr üçün iş imkanlarını qeyd edəcəkdir. Tələbələrin proqram sonrası monitorinqi proqram planı üçün qiymətli rəy təmin edir (həmçinin baxın: Tədris və təlim standartları 4, səhifə 89-90 və SEEP Şəbəkəsi *Böhran vəziyyətindən sonra minimum iqtisadi yenidənqurma standartları*, İş yerlərinin yaradılması standartı və Müəssisənin İnkişafı standartları).

## Araşdırma standartı 4: Qiymətləndirmə

Sistemli və obyektiv qiymətləndirmələr təhsil üzrə yardım fəaliyyətlərini inkişaf etdirir və hesabatlılığı artırır.

**Əsas fəaliyyətlər** (rəhbər göstərişlərlə birlikdə oxunmalıdır)

- Təhsil yardımı fəaliyyətləri üzrə mütəmadi qiymətləndirmələr etibarlı və şəffaf məlumatlar təmin edir və gələcək təhsil fəaliyyətləri barədə məlumat verir (baxın: rəhbər göstərişlər 1-2).
- Təsir görmüş icmanın nümayəndələri və təhsil orqanları daxil olmaqla, bütün maraqlı tərəflər qiymətləndirmə fəaliyyətlərində iştirak edir (baxın: rəhbər göstəriş 3).
- Dərslər və üstün praktikalar geniş şəkildə paylaşılır və gələcək yardım, proqramlar və siyasətlər barədə məlumat verir (baxın: rəhbər göstəriş 4).

### Rəhbər göstərişlər

1. **Monitorinq və qiymətləndirmə arasındakı fərq:** Monitorinq və qiymətləndirmə təhsil proqramlarının məqsədləri və hədəflərinə çatmaq üçün əsas amillərdir. Monitorinq təhsil proqramlarının məqsədləri və hədəflərinə çatmaq üçün mütəmadi ölçülər təmin edən prosesdir. Bu proses proqram heyətinin işin gedişatı zamanı dəyişikliklər etməsinə və onların məqsədə nail olmaq üçün plana uyğun hərəkət etmələrinə əmin olmağa imkan yaradır.

   Qiymətləndirmə gec-gec baş verir, adətən isə proqramın ortası yaxud sonunda xarici yaxud müstəqil icraçılar tərəfindən həyata keçirilir. Burada nəticələr ölçülür və gözlənilən nəticələrin əldə olunub olunmaması qiymətləndirilir. Qiymətləndirmələr həmçinin fəaliyyətlərin bildirilmiş prioritetlər, siyasətlər və hüquqi vasitələrə uyğun olub olmaması və proqramların effektiv həyata keçirilib keçirilməməsini ölçür.

2. **Təhsil üzrə yardım fəaliyyətlərinin qiymətləndirilməsində** gələcək fəaliyyət barədə məlumat verən proqram nəticələri və təsirlərinin vaxtında və etibarlı sübutunu təmin edən yanaşma və metodlardan istifadə edilməlidir. ‘Təsir’ proqramın insanların həyatında səbəb olduğu ölçülən dəyişiklikdir. Cins və yaşa görə ayrılmış keyfiyyət və kəmiyyət məlumatlarının hər ikisi əhəmiyyətlidir. Kəmiyyət məlumatları sayıla bilən elementlərə aiddir. Onlar davamiyyət, iştirak, tərk etmə və nailiyyət kimi nəticələri ölçür.

   Keyfiyyət əsaslı məlumatlar rəqəmlərlə ölçülə bilməyən elementlər haqqındadır. Onlar prosesləri başa düşməyə və nəticələri izah etməyə kömək edir. Keyfiyyət məlumatlarına nümunə olaraq məktəblər yaxud digər təlim

məkanlarında baş verənlərə dair məlumatlar, davamiyyət, iştirak və tərk etmə səbəbləri göstərilə bilər (həmçinin baxın: Araşdırma standartı 1, rəhbər göstəriş 2, səhifə 35-36 və Koordinasiya standartı 1, rəhbər göstəriş 3, səhifə 32-33).

3. **Qiymətləndirmə vasitəsilə bacarığın inkişafı:** Qiymətləndirmə büdcəsi təhsil orqanları, icma nümayəndələri və tələbələr daxil olmaqla, müvafiq maraqlı tərəflər üçün bacarığın artırılması seminarlarını əhatə etməlidir. Bunlar qiymətləndirməni izah edə bilər, iştirak əsaslı və şəffaf qiymətləndirmə planlarını inkişaf etdirə bilər və maraqlı tərəflərin nəticələri birlikdə yoxlaması və şərhinə icazə verə bilər. Tələbələr, müəllimlər və digər təhsil işçiləri qiymətləndirmə prosesində iştirak etməli və məlumatların düzgün toplanmasını təkmilləşdirməli və real tətbiq olunan tövsiyələrin inkişafına dəstək verməlidir. Məsələn, müəllimlər və digər təhsil işçiləri irəli sürülən tövsiyələrdən yaranan praktik çətinlikləri həll edə bilər (həmçinin baxın: Araşdırma standartı 2, rəhbər göstəriş 2, səhifə 42; Araşdırma standartı 3, rəhbər göstəriş 2, səhifə 46; və Təhsil siyasəti standartı 2, rəhbər göstəriş 4, səhifə 113).

4. **Qiymətləndirmə nəticələrinin və öyrənilən dərslərin paylaşılması:** Qiymətləndirmə hesabatlarındakı əsas nəticələr, xüsusən də tövsiyələr və öyrənilən dərslər icma üzvləri daxil olmaqla, hamıya aydın olan şəkildə paylaşılmalıdır. Onlar gələcək işlərə dair məlumat verməlidir. Həssas məlumatlarla ehtiyatlı rəftar etmək və yaymamaq lazımdır, əks halda fövqəladə hal yaxud münaqişənin lehinə ola bilər yaxud həssas və ya anonim məlumat verən şəxslər risk altına atıla bilər (həmçinin baxın: Koordinasiya standartı 1, rəhbər göstərişlər 3 və 5, səhifə 32-33 və Təhsil siyasəti standartı 2, rəhbər göstəriş 4, səhifə 113).

**Bu standartların tətbiqinə aid FHTAŞ-nin vəsaitlərinə bax.:**
**www.ineesite.org/toolkit**

FHTAŞ-nin vəsaitləri
↳ FHTAŞ-nin Minimum standartları
↳ Tətbiqetmə vəsaitləri
↳ Əsas standartlar

# 2 ƏLVERİŞLİLİK VƏ TƏLİM MÜHITI


Əsas Standartlar:
İcmanın iştirakı, koordinasiya, təhlil
Əlverişlilik və təlim mühiti
Standart 1
Bərabər əlverişlilik
Bütün fərdlərin keyfiyyətli və müvafiq təhsil əldə etmək imkanları var.
Standart 2
Müdafiə və rifah
Təlim mühiti təhlükəsizdir; tələbələrin, müəllimlərin və digər təhsil işçilərinin müdafiəsi və psixoloji rifahı möhkəmləndirilir.
Standart 3
Binalar və xidmətlər
Təhsil binaları tələbələrin, müəllimlərin və digər təhsil işçilərinin təhlükəsizliyini və rifahını möhkəmləndirir; bunlar səhiyyə, qidalanma, psixoloji və müdafiə xidmətləri ilə əlaqəlidir.

Böhran zamanı son dərəcə əhəmiyyətli hüquq və resurs olan təhsil imkanı çox vaxt məhdud olur. Təhsil böhranın təsir etdiyi adamların öz vəziyyətlərinin öhdəsindən gəlməsində və normal həyat qurmasında əhəmiyyətli rol oynayır. Təhsil adamlara xilasetmə məlumatları barədə bilikləri və yaşamaq üçün zəruri olan bacarıqları verə bilər, təhsilin ədalətini (bərabərliyini) və keyfiyyətini artıran dəyişmə imkanlarını təklif edə bilər.

Çox vaxt fövqəladə halların erkən mərhələsindən yenidənqurma mərhələsinədək təhsil fəaliyyətlərini təşkil etmək daha çətindir. Yeni həssas qrupların təhsildən faydalana bilməyəcəyi, yaxud fövqəladə hallarda yardım zamanı əvvəlki risk və istisna edilmə prinsiplərinin artacağına dair təhlükə mövcuddur. Milli hökumət orqanları, cəmiyyətlər və humanitar təşkilatlar bütün fərdləri təhlükəsiz təlim mühitində müvafiq, keyfiyyətli təhsil almaq imkanı ilə təmin etmək məsuliyyəti daşıyırlar. Bu, tələbələrin, müəllimlərin və digər təhsil işçilərinin fiziki müdafiəsini və psixoloji rifahını möhkəmləndirir.

Tələbələr, müəllimlər və digər təhsil işçiləri təhsil binalarına gedib-gələndə, həmçinin təlim mühitində çox vaxt fiziki və ya psixoloji risklərə məruz qalırlar. fövqəladə halların erkən mərhələsindən yenidənqurma mərhələsinədək təhsil proqramları fiziki və psixoloji müdafiəni təmin edir. Məktəblər, təlim yerləri və uşaqlar üçün əlverişli mühit də daxil olmaqla, müvəqqəti və daimi təhsil binaları bütün mümkün təhlükələrə qarşı etibarlı olmalı və düzgün yerləşdirilməli, layihələşdirilməli və tikilməlidir. Onlar xidmət edəcəkləri bütün adamlara əlverişli olmalıdır.

Təhlükəsiz təhsil binaları təhsilin davamlılığını, tədris və təlimə maneələrin minimuma endirilməsini təmin edir. Onlar cəmiyyət fəaliyyətlərinin mərkəzlərinə çevrilə bilər, kasıblığın, savadsızlığın və xəstəliyin azaldılmasında mühüm olan xidmətləri təmin edə bilər. fövqəladə haldan əvvəl təhsilin adekvat olmadığı yerlərdə təhlükəsiz və daha ədalətli təhsil istiqamətində aparılan yenidənqurma işləri sülhün yaradılmasına dəstək ola bilər.

Ayrı-seçkiliyə görə heç kim təhsil və təlim imkanlarından məhrum olmamalıdır. Təhsil hüquqlarına müvafiq şərait yaratmaq və təhsilə maneələri azaltmaq üçün proqramlar formal və qeyri-formal təhsil xidmətlərini təmin etməlidir. Təhsili təmin edənlərin hamısı xüsusilə gender ayrı-seçkiliyinə, həmçinin qızların və oğlanların qarşılaşdıqları müxtəlif risklərə diqqət yetirməlidirlər. Bu risklərə aid tədbirlər görülməlidir. Məsələn, məktəbdəki təhsil haqqı, dil və fiziki maneələr ayrı-seçkilik yarada bilər. Bu, bəzi qruplara aid olmaya da bilər.

## Əlverişlilik və təlim mühiti standartı 1: Bərabər əlverişlilik

Bütün fərdlərin keyfiyyətli və müvafiq təhsil əldə etmək imkanları var.

**Əsas fəaliyyətlər** (Rəhbər göstərişlərə uyğun oxunmalıdır)

- Heç bir şəxs və ya sosial qrup ayrı-seçkilik səbəbi ilə təhsil və təlim imkanlarından məhrum olmamalıdır (bax. Rəhbər göstəriş 1).
- Təlim strukturları və təlim yerləri hamı üçün əlverişlidir (bax. Rəhbər göstəriş N1).
- Sənədlərin olmaması və ya başqa tələblər kimi davamiyyət qarşısında olan maneələr aradan qaldırılmalıdır (bax. Rəhbər göstərişlər 2 və 4).
- Bir sıra müvafiq, formal və qeyri-formal təhsil imkanları böhranın təsir etdiyi əhalinin təhsil ehtiyaclarını qarşılamaq üçün tədricən təmin edilməlidir (bax. Rəhbər göstərişlər 3-5).
- Bütün uşaqların, gənclərin və yetkin yaşlı şəxslərin keyfiyyətli və müvafiq təhsil alma hüquqlarını təmin etmək işində yerli cəmiyyətlər həssas olur və təlim vasitəsilə getdikcə daha da fəal iştirak edirlər (bax. Rəhbər göstərişləri 6-7).
- Kifayət qədər resurslar mövcuddur; bunlar təhsil fəaliyyətlərinin davamlılığını, ədalətini və keyfiyyətini təmin edir (bax. Rəhbər göstəriş N8).
- Tələbələrin fövqəladə halın səbəb olduğu pozuntudan sonra mümkün qədər tez formal təhsil sisteminə daxil olmaq və ya yenidən daxil olmaq imkanı var (bax. Rəhbər göstəriş N9).
- Qaçqın kontekstlərində təhsil proqramı müvafiq yerli təhsil orqanları və mənşə ölkəsi tərəfindən tanınır.
- Fəlakətə aidiyyəti olan əhaliyə göstərilən təhsil xidmətləri qəbul edən ölkənin əhalisinə mənfi təsir göstərmir.

### Rəhbər göstərişlər

**1. Ayrı-seçkilik cins,** yaş, əmək qabiliyyətini itirmə, İİV statusu, milliyyət, irq, milli mənsubiyyət, qəbilə, tayfa, təbəqə, din, dil, mədəniyyət, siyasi mənsubiyyət, cinsi oriyentasiya, sosial-iqtisadi təcrübə, coğrafi yerləşmə və ya xüsusi təhsil ehtiyaclarına görə yaranan maneələri özündə birləşdirir. Ayrı-seçkilik məqsədlə edilə bilər. Ayrı-seçkilik həmçinin əmək qabiliyyətini itirmiş insanlara əlverişli şərait yaratmayan infrastrukturun və ya tələbələrin iştirakını dəstəkləməyən taktikaların və təcrübələrin qərəzsiz nəticəsi də ola bilər.

Hamilə qızların və ya İİV yoluxmuş tələbələrin məktəbdən qovulması, məktəbdəki təhsil haqqı, məktəb formaları, kitablar və ləvazimatlar – bütün bunlar ayrı-seçkilik nümunələridir. Fövqəladə vəziyyətdə xüsusi qruplara və ya fərdlərə təhsil əldə etmək çətin ola bilər.

Bəziləri fövqəladə halın və köçmənin nəticəsində daha çox həssas ola bilər. Bu qruplar aşağıda göstərilən adamları özündə birləşdirə bilər:
- fiziki və əqli qüsurları olan adamlar;
- əqli və psixoloji cəhətdən kəskin
- əzab çəkənlər;
- qızlar;
- gənclər;
- silahlı qüvvələr və silahlı qruplarla birgə olan uşaqlar;
- ailəni idarə edən yeniyetmələr;
- yeniyetmə analar;
- xüsusi milli və ya başqa sosial qruplardan olan şəxslər.

Milli hökumət orqanları, cəmiyyətlər və humanitar təşkilatlar bütün şəxslərə əlverişli təhsil fəaliyyətlərini təmin etmək məsuliyyəti daşıyırlar. Bu, kənarlaşdırılmış qrupların və xüsusi kontekstdə müxtəlif təlim ehtiyacları olan şəxslərin ehtiyaclarının və prioritetlərinin qiymətləndirilməsi və onlara aid məsələlər qaldırmaq deməkdir. Təlim imkanlarının əlverişliliyini məhdudlaşdıran ayrı-seçkilik salan taktikalar və təcrübələr müəyyən edilməli və onlara qarşı tədbir görülməlidir. Xüsusi milli, dil, coğrafi və ya yaş qrupları üçün təhsilin az əlverişli olması münaqişəni gücləndirən gərginliyi yarada və saxlaya bilər.

İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Beynəlxalq Saziş (1966) təhsil hüququnu açıqlayır:
- Maddə 2 «ayrı-seçkilik olmadan hər irq, cins, dil, din, siyasi və ya başqa mənsubiyyət, milli və ya sosial mənşə, mülkiyyət, doğum və ya başqa statusu olan bütün adamların təhsil hüququ»nu qeyd edir;
- Maddə 13 qeyd edir: hər kəsin təhsil hüququ «insan şəxsiyyətinin və onun ləyaqət hissinin tam inkişafına tərəf istiqamətləndirilməlidir, insan hüquqlarına və əsas azadlıqlarına hörməti möhkəmləndirməlidir.
- Təhsil bütün şəxsləri azad cəmiyyətdə səmərəli iştirak etməyə qadir etməlidir, dərrakəni, dözümlülüyü və bütün millətlər, bütün irqlər, milli və ya dini qruplar arasında dostluğu möhkəmləndirməlidir və Birləşmiş Millətlər Təşkilatının sülhün qorunmasına aid fəaliyyətlərini inkişaf etdirməlidir».
- Maddə 13 bu hüququn tam icra olunması üçün ölkələrin öhdəsinə aşağıdakı bəndləri qəbul etməyi qoyur: 1) ibtidai təhsil məcburi və əlverişli, hamı üçün pulsuz olmalıdır; 2) texniki və peşə orta məktəbi daxil olmaqla, müxtəlif formalarda olan orta məktəblər bütün müvafiq vasitələrlə, xüsusilə də, pulsuz təhsilin tədricən tətbiq olunması vasitəsilə hamı üçün əlverişli olmalıdır; 3) ibtidai təhsili almayan və ya onu tam bitirməyən şəxslər üçün ibtidai təhsil mümkün qədər həvəsləndirici və ya intensiv olmalıdır» (həmçinin bax. Təhsil siyasəti standartı 1, Rəhbər göstərişlər 1 və 7, səh. 107-108 və 110-111 və Təhsil siyasəti standartı 2, Rəhbər göstəriş N3, səh. 113).

2. **Qəbul, davamiyyət və saxlama:** Sənədlərin tələbi müvafiq olmalıdır. Vətəndaşlığı, doğum tarixini, şəxsiyyəti təsdiq edən vəsiqələr və ya məktəb arayışları tələb olunmamalıdır, çünki fövqəladə halda olan əhalinin bu sənədləri olmaya bilər. Yaş həddinə aid qayda ciddi olaraq həyata keçirilməməlidir; müdafiə maraqları və mədəni normalara hörmət edilməlidir. Dərsdən qalanlara dərslərə davam etmək üçün ikinci şans verilməlidir. Ən həssas fərdləri müəyyən etmək və onları təhsilə daxil etmək üçün xüsusi səylər göstərilməlidir. Təhlükəsizlik tələb edirsə, sənədlər və qeydiyyat məlumatı məxfi saxlanılmalıdır (həmçinin bax. Rəhbər göstəriş N4; Təhsil siyasəti standartı 1, Rəhbər göstərişlər 1, 2 və 7, səh. 107-111; Təhsil siyasəti standartı 2, Rəhbər göstəriş N1, səh. 112).

3. **Keyfiyyətli təhsil imkanları** mühümdür. Məqsəd bütün tələbələrin təhsil ehtiyaclarının qarşılanmasını və ölkənin iqtisadi, sosial və siyasi inkişafına imkan yaratmağı təmin etməkdir. Bu imkanlar tələbələrə və kontekstə müvafiq olmalıdır və özündə aşağıdakı bəndləri birləşdirə bilər:
   - uşaqların erkən inkişafı;
   - ibtidai, orta məktəb və ali təhsil;
   - savad və hesablama (sinfi) dərslər;
   - həyat bacarığı üzrə təhsil;
   - gənclər və yetkin yaşlı tələbələrə aid təhsil proqramları, məsələn: texniki və peşə təhsili.

   Kəskin böhranda formal təhsilin təsis olunduğu və ya fəaliyyəti bərpa olunduğu zaman uşaqlar üçün əlverişli mühitin və ya təhlükəsiz mühitin təşkil edilməsi çox vaxt ilk yardım olur. Uşaqlar üçün əlverişli mühitin yaradılmasının məqsədi uşaqların və gənclərin rifahını müdafiə etmək və möhkəmləndirməkdir. Bəziləri uşaqları və gəncləri formal sinif otağına yenidən daxil olmağa hazırlayır, başqaları isə onlara qeyri-formal təlim fəaliyyətlərində iştirak etməyə imkan yaradırlar. Bunlar kiçik yaşlı uşaqlardan gənclərədək müxtəlif yaşlı uşaqlar üçün qruplar yaradır; təşkil edilmiş təlim, oyun, idman, dram, incəsənət, musiqi, müdafiə və psixoloji dəstəyi əlverişli edir. Uşaqlar üçün əlverişli mühit cəmiyyətin üzvlərinə, həmçinin humanitar və hökumət işçilərinə formal və qeyri-formal təhsilə aid ehtiyaclara və bacarıqlara yanaşmaq imkanı yaradır; buraya yerli adamların təşəbbüslərini qəbul etmək və onlara dəstək vermək də daxildir.

4. **Asanlıqla uyğunlaşma:** Təlim imkanları asanlıqla istifadə edilməlidir və kontekstə uyğun olmalıdır. Uyğunlaşma özündə aşağıdakı bəndləri birləşdirə bilər:
   - xüsusi qrup tələbələrinin ehtiyaclarını qarşılayan dərs cədvəllərində, saatlarda, növbələrdə və illik cədvəllərdə dəyişikliklər;
   - təqdimetmənin alternativ formaları, məsələn: özbaşına öyrənmə, məsafədən verilən təlim, intensiv və ya «təcili hazırlıq» təlim proqramları;

– cavan valideynlər üçün nəzərdə tutulan uşaqlara qayğı göstərmə xidmətləri;
– Sənədlərin, məsələn: doğum şəhadətnaməsi və ya yaşı təsdiq edən sənədlərin tələb edilməməsi (həmçinin yuxarıda bax. Rəhbər göstəriş N2).

Uyğunlaşmalar gənclər, qadınlar və adətən kənarda qalan başqaları da daxil olmaqla, cəmiyyət üzvləri ilə müzakirə edilməlidir. Təklif olunan uyğunlaşmaların rəsmi tanınmasını təmin etmək üçün müvafiq təhsil orqanları bunda iştirak etməlidir. Əgər tələbələr böyük ərazidə yayılmışlarsa, məktəblər və başqa təlim sahələri planda elə yerləşdirilməlidir ki, onlar təhsil imkanlarından səmərəli istifadə edə bilsinlər (həmçinin bax. Təhsil siyasəti standartı 1, Rəhbər göstəriş N7, səh. 110-111 və Təhsil siyasəti standartı 2, Rəhbər göstəriş N1, səh. 112).

5. **Təxirəsalınmaz təhsil prioritetləri** ilkin dəyərləndirməyə əsaslanmalıdır. Aşağıdakı bəndləri nəzərə almaq əhəmiyyətlidir:
– cins və yaş kateqoriyalarına görə bölünmüş məlumat;
– həssaslıq və müdafiə məsələləri;
– xüsusi məzmunlu ehtiyaclar, məsələn: xilasetmə məlumatı;
– təhsil sisteminin yenidən qurulması ilə əlaqələr.

Prioritetlər həmçinin maliyyə, maddi-texniki təchizat və təhlükəsizlik məhdudiyyətlərini də nəzərə ala bilər, lakin bu, həssas qrupları kənarda qoymamalıdır (həmçinin bax. Araşdırma standartı 1, səh. 35-40; Tədris və təlim standartı 1, səh. 77-82; Təhsil siyasəti standartları 1-2, səh. 107-114).

6. **«Keyfiyyətli» və «müvafiq» təhsil:** bu terminlərin təriflərinə Sözlüyə bax., səh. 122.

7. **Cəmiyyətin cəlb edilməsi:** Təhsilin əlverişli olması üçün cəmiyyətlər təhsil proseslərində fəal iştirak etməlidir.
Cəmiyyətin iştirakı aşağıdakı sahələrdə kömək edir:
– kommunikasiyada çatışmazlıqlara aid məsələləri qaldırmaq;
– əlavə resursları səfərbər etmək;
– təhlükəsizlik, müdafiə və psixoloji maraqlara aid məsələləri qaldırmaq;
– alternativ təlim imkanlarına olan ehtiyacları müəyyən etmək;
– bütün müvafiq qrupların, xüsusilə də həssas adamlardan ibarət olan qrupların iştirakını təmin etmək.

(«İştirak» sözünün tərifinə bax. Sözlük, səh. 121; Cəmiyyətdə iştiraketmə standartları 1-2, səh. 22-30; Tədris və təlim standartı 3, Rəhbər göstəriş N2, səh. 88).

8. **Resurslar:** Təhsil təminatı milli hökumət orqanlarının əsas məsuliyyətidir. Bu, kifayət qədər maliyyə, maddi və insan resurslarının koordinasiya və

təminatını özündə birləşdirir. Əgər milli hökumət orqanları fövqəladə halların erkən mərhələsindən yenidənqurma mərhələsinədək təhsili tam təmin edə bilmirlərsə, başqa mənbələrdən əlavə dəstək təmin edilə bilər. Məsələn, beynəlxalq cəmiyyətlər, BMT agentlikləri, beynəlxalq və yerli QHT-lar, yerli hökumət orqanlar, cəmiyyətlər, dini təşkilatlar, vətəndaş cəmiyyətinin qrupları və inkişaf üzrə başqa iştirakçılar. Təhsilin davamlılığını və təlim təşəbbüslərini təmin etmək məqsədi ilə donorlar güzəştə getməli və bir sıra müvafiq yanaşmaları dəstəkləməlidirlər (həmçinin bax. İcmanın iştirakı standartı 2, Rəhbər göstəriş N1, səh. 28 və Araşdırma standartı 2, Rəhbər göstərişlər 1 və 5, səh. 41-43).

9. **Təhsil binalarının müvəqqəti sığınacaq kimi istifadə olunmasını minimal etmək:** Başqa imkanlar olmayanda təhsil binaları yalnız köçkünlər üçün sığınacaq kimi istifadə edilməlidir. fövqəladə hallarda və ya fəlakət hadisəsi zamanı alternativ sığınacaq yerləri hazırlıq-planlama dövründə müəyyən edilməlidir.

   Təhsil binaları müvəqqəti sığınacaq kimi istifadə ediləndə sığınacaq və müdafiə sektorları ilə əməkdaşlıq edərək mənfi təsirlər və potensial müdafiə riskləri minimuma endirilməlidir. Maraqlı tərəflər təhsil binasını onun öz funksiyasına qaytarma tarixi üzrə razılığa gəlməlidirlər. Bu, dərslərin pozulmasını minimuma endirir və fövqəladə hal baş verəndən uzun müddət sonra da ailələrin təhsil binasında qalmasının qarşısını alır.

   Əgər təhsil binaları müvəqqəti sığınacaqlar kimi istifadə edilirsə, kitablar, kitabxanalar, mebel, məktəb sənədləri və istirahətə aid avadanlıqlar da daxil olmaqla, məktəbin mülkiyyətini müdafiə etmək əhəmiyyətlidir. Təhsil binaları istifadəyə yararlı vəziyyətə qaytarılmalıdır. Mümkünsə, maraqlı tərəflər imkandan istifadə edərək təhsil binalarını daha da yaxşılaşdırmalıdır. Məsələn, sanitar-texniki qurğular təmir oluna və bina strukturları möhkəmləndirilə bilər (həmçinin bax. Əlverişlilik və təlim mühiti standartı 3, Rəhbər göstərişləri 4-6, səh. 70-71 və Təhsil siyasəti standartı 1, Rəhbər göstəriş N3, səh. 109).

## Əlverişlilik və təlim mühiti standartı 2: Müdafiə və rifah

Təlim mühiti təhlükəsizdir; tələbələrin, müəllimlərin və digər təhsil işçilərinin müdafiəsi və psixoloji rifahı möhkəmləndirilir.

**Əsas fəaliyyətlər** (Rəhbər göstərişlərə uyğun oxunmalıdır)

- Təlim mühitində tələbələrə, müəllimlərə və başqa təhsil işçilərinə təhlükə mənbələri olmamalıdır (bax. Rəhbər göstərişləri 1 və 3-4).
- Tələbələri dəstəkləyən təlim mühiti yaratmaq və onların psixoloji rifahını möhkəmləndirmək üçün müəllimlərdə və digər təhsil işçilərində lazımi bacarıqlar və bilik olmalıdır (bax. Rəhbər göstərişləri 2-3 və 8-9).
- Məktəblər, müvəqqəti təlim məkanları və uşaqlar üçün əlverişli mühit nəzərdə tutulmuş əhaliyə yaxın olmalıdır (bax. Rəhbər göstərişlər 5-6).
- Təlim sahəsinə aparan yollar hamı üçün təhlükəsiz və əlverişli olmalıdır (bax. Rəhbər göstərişlər 5-7).
- Təlim əraziləri hərbi işğala və hücuma məruz qalmamalıdır (bax. Rəhbər göstərişlər 1, 3 və 6-7).
- Tələbələrin, müəllimlərin və digər təhsil işçilərinin təhlükəsiz olmasını təmin etmək məqsədi ilə cəmiyyət təlim mühitinin yerləşməsinə, sistemlər və taktikalara aid qərarların qəbul edilməsinə kömək göstərir (bax. Rəhbər göstərişlər 1 və 10).
- Fəlakət halında riskin azaldılması və fəaliyyətlərin təşkili vasitəsilə təhlükəsiz təlim mühitləri qorunub saxlanılır (bax. Rəhbər göstəriş N11).

### Rəhbər göstərişlər

**1. Mühafizə və təhlükəsizlik:** təhlükəsiz təlim mühiti təhlükə, zədə, hədə və ya itkidən müdafiəni təmin edir. Təhlükəsiz mühitdə fiziki və ya psixoloji təhlükə olmamalıdır (həmçinin bax. Sözlük, səh. 122-123).

Mühafizəni təmin etmək milli hökumət orqanlarının vəzifəsidir. Müvafiq və mühüm olduqda bu vəzifə hərbçilərə kifayət qədər və yüksək keyfiyyətli nəzarəti və təchizatı özündə birləşdirir. Əgər adi təlim sahələri təhlükəsiz deyilsə və ya yoxdursa, alternativ təhlükəsiz sahələr və ya təlim formaları təşkil edilməlidir. Bu halda “evdə məktəb” və ya məsafədə təlim tətbiq edilə bilər. Təhlükəli vəziyyətlərdə cəmiyyət tələbələrə məktəbə getmək barədə məsləhət verməlidir. Mühafizə qüvvələri təhsil binalarından müvəqqəti sığınacaq kimi heç vaxt istifadə etməməlidir (mühafizəyə aid həmçinin aşağıda bax. Rəhbər göstərişlər 5-7; təhlükəsizliyə aid, həmçinin aşağıda bax. Rəhbər göstərişlər 2-4, 8-9 və 11; bax. Təhsil siyasəti standartı 1, Rəhbər göstəriş N1, səh. 107-108).

**2. Emosional, fiziki və sosial rifah** bunlardan asılıdır:
- təhlükəsizlik, mühafizə və müdafiə;
- cins;
- təhsili təmin edənlərlə tələbələr, həmçinin tələbələrin özləri arasındakı münasibətlərdə mehribanlıq və xoşbəxtlik.

Ən kiçik yaşdan başlayaraq, uşaqların təhlükəsiz, mühafizəli və tərbiyə mühitində qayğıkeş adamlarla qarşılıqlı əlaqələri onların inkişafını və təlimini dəstəkləyir. Tələbələrin rifahını təmin edən fəaliyyətlər sağlam inkişaf, müsbət sosial əlaqələr və sağlamlığın artırılması məsələlərində cəmləşir. Bunlar tələbələri özlərinə təsir göstərəcək qərarların qəbul edilməsində iştirak etməyə həvəsləndirir. Problemin həll edilməsində, qərarların qəbul olunmasında və riskin azaldılmasında iştirak edən uşaqlar və gənclər özlərini daha güclü hiss edəcəklər və öz rifahlarının yaradılmasında iştirak edə biləcəklərinə inanacaqlar.

Əgər valideynlər öz uşaqlarının rifahını evdə təmin edə bilmirlərsə, başqaları onlara kömək etməlidir. Bu, müvafiq xidmətlərə müraciətləri özündə birləşdirir (həmçinin bax. Əlverişlilik və təlim mühiti standartı 3, Rəhbər göstəriş N8, səh. 72).

**3. Müdafiə:** «Müdafiə» fiziki, emosional və sosial təhlükə, təhqir, istismar və zorakılığın bütün formalarının olmaması deməkdir. Tələbələr, müəllimlər və digər təhsil işçiləri təlim mühitində və təlim mühitinin ətrafında olan təhlükələr barədə xəbərdar edilməli və müdafiə olunmalıdır.
Təhlükələr bunları özündə birləşdirir:
- hədələmə;
- cinsi istismar;
- təbii və ətraf mühitə aid təhlükələr;
- silah, döyüş sursatı, torpaqdakı minalar və partlamamış artilleriya silahları;
- adam oğurluğu və orduya əsgər yığma daxil olmaqla, silahlı qüvvələrin işçi heyəti, çarpaz atəş sahələri və başqa hərbi təhlükələr.
- Siyasi təhlükə.

Müdafiə ehtiyaclarını və prioritetlərini anlamaq üçün cəmiyyətin üzvləri, tələbələr, müəllimlər və digər təhsil işçiləri ilə məsləhətləşmələr də daxil olmaqla, riskin dəyərləndirilməsi əhəmiyyətlidir. Bu dəyərləndirmələr müntəzəm olaraq keçirilməli, müvafiq mədəni və siyasi faktorların təhlilini özündə birləşdirməlidir (həmçinin bax. Araşdırma standartı 1, Rəhbər göstərişlər 2-3, səh. 35-38).

Müdafiə pozuntuları baş verdikdə onlar məxfi formada sənədləşdirilməlidir və onlara aid hesabat verilməlidir. Bu, insan hüquqlarının monitorinqi üzrə təhsil almış adamların köməyi ilə yerinə yetirilsə, daha yaxşı olar. Cins, yaş və şəxsin səciyyəvi xüsusiyyətlərə görə hədəf altında olub-olmaması

barədə məlumat da daxil olmaqla, insident barədə əsas məlumat qeyd edilməlidir. Belə məlumat prinsipləri müəyyən etməkdə əhəmiyyətlidir və problemin araşdırılmasında səmərəli müdaxilələrin yaradılmasında lazım ola bilər. Cins, müdafiə və psixoloji xidməti təmin edənlərə istinadlar da daxil olmaqla, pozuntular barədə verilən məlumata cavab tədbirləri də sənədləşdirilməlidir.

Tələbələrin, müəllimlərin və digər təhsil işçilərinin fiziki və psixoloji təhlükəsizliyinə zorakılıq və başqa təhlükələr adi hal olan mühitdə evdə və cəmiyyətdə təhlükəsizliyi möhkəmləndirmək işinə ailələri və cəmiyyətləri cəlb etmək əhəmiyyətlidir. Fəaliyyətlər özündə aşağıdakı bəndləri birləşdirə bilər:

– müsbət nizam-intizam təcrübələri də daxil olmaqla, uşaqların tərbiyəsinə aid müsbət metodları gücləndirən, valideynlər və ağsaqqallar üçün təşkil edilmiş məlumat kampaniyaları;
– cəmiyyətdə müdafiə məsələləri barədə məlumatlandırılmanı artırmaq məqsədi ilə polis və ya başqa mühafizə qüvvələrinə müraciət etmək;
– dərsə gedən və dərsdən gələn tələbələr üçün mühafizə dəstələrinin təşkil edilməsi kimi xüsusi müdafiə məsələlərini qaldırmaq üçün cəmiyyətlər və müvafiq orqanlarla işləmək.

(Həmçinin bax. Təhsil siyasəti standartı 1, Rəhbər göstəriş N1, səh. 107-108).

**4. Gender əsaslı zorakılıq** (tərifə bax. Sözlük, səh. 118), xüsusilə də cinsi zorakılıq – ciddi, həyati təhlükə daşıyan müdafiə məsələsidir. Bu, kişilərə və oğlanlara təsir göstərir, lakin gender əsaslı zorakılıq əksər hallarda qadınlara və qızlara istiqamətlənir. Təhsil proqramları təzyiq və cinsi istismar məsələlərinə nəzarət etməli və cavab tədbirləri görməlidir. Valideynlər, tələbələr, müəllimlər və digər təhsil işçiləri

– təhsil ocaqlarına gedib-gələndə, həmçinin təlim mühiti çərçivəsində uşaqların və gənclərin qarşılaşdığı risklərin azaldılması yolları üzrə razılığa gəlməlidirlər. Bu, aşağıdakı bəndləri özündə birləşdirə bilər:
– cinsi təzyiq, istismar, təhqir və gender əsaslı zorakılığın başqa formalarına qarşı qaydaları inkişaf etdirmək və camaat arasında yaymaq;
– bu qaydaları müəllimlərin və digər təhsil işçilərinin davranış qaydalarına daxil etmək; bunlar qeyri-məqbul davranışın nə olduğunu bilməlidirlər;

Qadın tələbələri müdafiə və arxayın etmək üçün təlim mühitində yetkin yaşlı qadınların sayını artırmaq. Kişi və qadın müəllimlərin sayı arasında tarazlıq olmayanda qadın icma nümayəndələri sinif otağında köməkçilər vəzifəsində könüllü işləyə bilərlər; bu, uşaqlar üçün daha müdafiəli mühiti təmin edir. Gender əsaslı zorakılıq baş verəndə məxfi və təhlükəsiz hesabat, şikayət və yardım sistemlərinin mövcudluğu əhəmiyyətlidir. Bunlar gender əsaslı zorakılıq sahəsini bilən milli hökumət orqanları və ya müstəqil təşkilatlar tərəfindən dəstəklənə bilər. Yaxşı uzlaşdırılmış məlumat sistemində gender əsaslı zorakılıqdan əzab çəkmiş adamlara müvafiq səhiyyə, psixo-

loji müdafiə və hüquqi dəstək təqdim edilməlidir (həmçinin aşağıda bax. Rəhbər göstəriş N9; Müəllimlər və digər təhsil işçiləri standartı 2, Rəhbər göstəriş N3, səh. 99-100; və Təhsil siyasəti standartı 1, Rəhbər göstəriş N1, səh. 107-108).

5. **Tələbələr və onların təlim sahələri arasında olan maksimal məsafə** yerli və milli standartlara müvafiq müəyyən edilməlidir. Əsgərlərin yerləşdirilməsi, torpaq minaları və yaxınlıqda sıx kolluqların olması kimi mühafizə, təhlükəsizlik və əlverişlilik məsələlərini nəzərə almaq əhəmiyyətlidir. Tələbələr, valideynlər və başqa cəmiyyət üzvləri təlim sahələrinin yerləşməsi və potensial təhlükələr məsələlərinə aid məsləhət almalıdır. Məktəbə qədər məsafə çox böyük olanda və əlverişli olmayanda tələbələrin evlərinə yaxın əlavə dərslər məsləhət olunur (həmçinin yuxarıda bax. Rəhbər göstərişlər N3 və aşağıda 6-7).

6. **Yollar:** müxtəlif yaş qruplarına aid oğlanlar və qızlar da daxil olmaqla, bütün tələbələrə, müəllimlərə və təhsil sahəsinin işçilərinə təhlükəsiz və mühafizə olunan yolları təmin etmək üçün icmalar təhlükə ehtimallarını müəyyən etməli və onları aradan qaldırmaq üçün razılığa gəlməlidirlər. Məsələn, tələbələrin təhsil binalarına gedib-gəldiyi ərazilərdə, zəif işıqlandırılmış yollarda yetkin yaşlı mühafizəçilərin müşahidəsi, paltarın və çantaların üstünə işığı əks etdirən lentlərin yapışdırılması təhlükəsizliyi təmin edə bilər (həmçinin yuxarıda bax. Rəhbər göstərişləri 3 və aşağıda 7; İcmanın iştirakı standartı 1, Rəhbər göstərişlər 2-5, səh. 23-26; Təhsil siyasəti standartı 1, Rəhbər göstəriş N1, səh. 107-108).

7. **Təhsil sahəsini hücumdan təhlükəsiz etmək:** bəzi kontekstlərdə tələbələr, müəllimlər və təhsil sahəsinin işçiləri təhsil binalarına gedib-gəldikdə fiziki və ya psixoloji risklərə məruz qalırlar. Bu riskləri azaldan tədbirlər aşağıdakı bəndləri özündə birləşdirir:
   - insan hüquqları, münaqişənin həlli, sülhün qurulması və humanitar qanuna aid təlimi, həmçinin təhlükəsizlik barədə məlumatı, psixoloji dəstəyi özündə birləşdirən kurrikulumu zənginləşdirmək;
   - müharibə zamanı vətəndaşlara (tələbələr və müəllimlər də daxil olmaqla) və təhsil binalarına hücumları qadağan edən Cenevrə Konvensiyasının və Beynəlxalq Cinayət Məhkəməsinin Roma Nizamnaməsinin məna və istifadəsi üzrə ictimaiyyətin məlumatlandırılmasını artırmaq;
   - humanitar qanunun əsas prinsipləri və təhsilin müdafiəsinə onun tətbiqi üzrə hökumət və hərbi hüquq sistemlərinin, silahlı qüvvələr və silahlı qrupların bacarıqlarının inkişafı;
   - binaların və ya hasarların möhkəmləndirilməsi və mühafizəçilərin istifadəsi (cəmiyyətin könüllüləri və ya muzdlu işçilər);
   - müəllimlərin ərazidə yaşayışla təmin edilməsi;
   - təlim sahələrinin və təhlükə altında olan tələbələrin, müəllimlərin və digər təhsil işçilərinin yerini dəyişmə;
   - ev və cəmiyyət əsaslı məktəblər yaratmaq.

Kontekstdən və mühafizə maraqlarından asılı olaraq, cəmiyyətlər və ya cəmiyyətdəki təhsil komitələri məktəbləri müdafiə etmək məsuliyyətini üzərinə götürə bilər. Məsələn, onlar mühafizəçi ilə təmin edə bilər və ya məktəblərdə dərs deyə bilən və məktəbləri dəstəkləyə bilən cəmiyyətin və ya dinlərin etibarlı rəhbərlərini tanıda bilərlər. Vətəndaş münaqişələrində cəmiyyətin üzvləri münaqişə tərəfləri ilə danışıqların aparılmasına kömək edə bilər, məktəbləri və təlim sahələrini təhlükəsiz sığınacaq və ya «sülh zonaları» edən davranış qaydaları yarada bilər. Məktəblərə və hospitallara hücumlar BMT Təhlükəsizlik Şurasının 1612 saylı (2005) Qətnaməsi ilə qadağan olunmuş altı ciddi pozuntudan biridir. Əgər hücumlar baş versə, onlar üzrə BMT rəhbərliyi altında Monitorinq və Hesabatvermə Mexanizmi vasitəsilə hesabat verilməlidir (həmçinin bax. Təhsil siyasəti standartı 1, Rəhbər göstəriş N1, səh. 107-108 və Təhsil siyasəti standartı 2, Rəhbər göstəriş N4, səh. 113).

8. **Psixoloji dəstək və rifah üzrə təlim:** Müəllimlər və digər təhsil işçiləri tələbələrə psixoloji dəstək təmin etmək üçün aşağıdakı vasitələrlə təlim almalıdır:
- strukturlu təlim;
- uşaqlar üçün əlverişli metodlardan istifadə;
- oyun və istirahət;
- həyat bacarıqlarının tədrisi;
- istinadlar.

Müəllimlərin və digər təhsil işçilərinin rifahına aid məsələlərə diqqət yetirmək əhəmiyyətlidir. Bu, tələbələrin rifahına, onların formal və ya qeyri-formal təhsil proqramlarını uğurla bitirməsinə imkan yaradacaq (həmçinin bax. Tədris və təlim standartı N1, Rəhbər göstəriş 6, səh. 80-81; Tədris və təlim standartı N2, Rəhbər göstəriş 2, səh. 83-84; Müəllimlər və digər təhsil işçilərinin standartı N3, səh. 101-102).

9. **Sinfin idarə edilməsində zorakılığa yol verilməməsi:** Dakar Strukturuna müvafiq olaraq, təhsilə «qarşılıqlı anlaşmanı, sülhü və dözümlülüyü möhkəmlədən zorakılıq və münaqişənin qarşısını almağa kömək edən yollarla» rəhbərlik edilməlidir. Bu məqsədə nail olmaq üçün müəllimlər sinfin müsbət idarə edilməsini dəstəkləməlidir, yəni təlim mühitində qarşılıqlı anlaşmanı, sülh və dözümlülüyü möhkəmlətməli, zorakılıq və münaqişənin qarşısını almaq üçün bacarıqları təmin etməlidir. Müsbət gücləndirmə və müsbət nizam-intizamlı güclü sistem belə mühitin qurulmasının əsasıdır. Bunlar bədən cəzasını, sözlə təhqir, alçaltma və hədələməni əvəz etməlidir. Hədələmə əqli stress, zorakılıq, təhqir və ayrı-seçkiliyi özündə birləşdirir. Bu bəndlər müəllimin davranış qaydalarına daxil edilməlidir və sistematik olaraq müəllimin təlimi və nəzarət fəaliyyətləri zamanı bunlara diqqət yetirilməlidir (həmçinin bax. Tədris və təlim standartları 2-3, səh. 83-90; Müəllimlər və digər təhsil işçilərinin standartı 2, Rəhbər göstəriş N3, səh. 99-100; Müəllimlər və digər təhsil işçilərinin standartı 3, səh. 101-102).

**10. Cəmiyyətin iştirakı:** Cəmiyyətlər təlim mühitinin yaradılmasında, dəstəklənməsində və müdafiəsində əsas rol oynamalıdır. Bütün həssas qrupların nümayəndələri proqramın layihələşdirilməsində iştirak etməlidir. Bu, cəmiyyətin təhsilə dəstəyini artırır (həmçinin bax. İcmanın iştirakı standartı 1, səh. 22-27 və Əlverişlilik və təlim mühiti standartı 1, Rəhbər göstəriş N7, səh. 59).

**11. Fəlakət riskinin azaldılması və idarə edilməsi:** Tələbələr, müəllimlər və digər təhsil işçiləri fəlakətin qarşısının alınmasını dəstəkləmə və təşkil fəaliyyətləri üzrə təhsil ala bilərlər. Bu, özündə aşağıdakı bəndləri birləşdirə bilər:

– fövqəladə hallara hazırlıq planlarının hazırlanması və istifadəsi;
– gözlənilən və təkrar fəlakətlərə aid simulyasiya hazırlığı üzrə məşqlər;
– məktəbin binaya aid olan və binaya aid olmayan təhlükəsizlik tədbirləri, məsələn: zəlzələyə meylli ərazilərdə məktəbin evakuasiya planları.

Cəmiyyətin və ya məktəbin təhlükəsizlik komitələrinin fəlakət zamanı məktəbin təşkil olunmasında və ya təhlükəsizlik planlarının hazırlanması və tətbiqində dəstəyə ehtiyacları ola bilər. Dəstək riskləri qiymətləndirməkdə və prioritetə görə təyin etməkdə, fiziki və ətraf mühitin müdafiə strategiyalarını tətbiq etməkdə və yardım göstərməyə hazırlığa aid prosedurları və bacarıqları inkişaf etdirməkdə köməyi özündə birləşdirir.

Məktəb üzrə qiymətləndirmə planları da daxil olmaqla, fövqəladə hallara hazırlıq planları hamıya əlverişli olan yolla tərtib edilməli və istifadəyə verilməlidir; buraya savadsız, həmçinin fiziki, koqnitiv və əqli əmək qabiliyyətini itirmiş şəxslər də daxildir (həmçinin bax. Araşdırma standartı 1, Rəhbər göstəriş N3, səh. 37-38; Əlverişlilik və təlim mühiti standartı 3, Rəhbər göstərişlər 1-2, səh. 68-70; Tədris və təlim standartı 2, Rəhbər göstəriş N6, səh. 86; Təhsil siyasəti standartı 1, Rəhbər göstərişlər 2 və 6, səh. 108-110).

## Əlverişlilik və təlim mühiti standartı 3: Binalar və Xidmətlər

Təhsil binaları tələbələrin, müəllimlərin və digər təhsil işçilərinin təhlükəsizliyini və rifahını möhkəmləndirir; bunlar səhiyyə, qidalanma, psixoloji və müdafiə xidmətləri ilə əlaqəlidir.

**Əsas fəaliyyətlər** (Rəhbər göstərişlərə uyğun oxunmalıdır)

- Təlim sahələri və strukturlar bütün tələbələr, müəllimlər və digər təhsil işçiləri üçün təhlükəsiz və əlverişli olmalıdır (bax. Rəhbər göstərişlər 1-4).
- Müvəqqəti və daimi təlim yerləri təmir olunmalı, yenidən hazırlanmalı və ya fəlakətə davamlı lazımi layihə və tikinti ilə əvəz edilməlidir (bax. Rəhbər göstərişlər 2 və 4).
- Təlim məkanları gözə görünən müdafiə sərhədləri və aydın işarələrlə qeyd olunur.
- Təlim sahələri üçün istifadə edilən fiziki strukturlar vəziyyətə müvafiqdir və dərslər, müdiriyyət, istirahət və tibbi xidmət binaları üçün müvafiq yerləri özündə birləşdirir (bax. Rəhbər göstərişlər 2 və 4).
- İştirak metodlarını və tələbə yönümlü yanaşmaları tətbiq etmək üçün hər tələbənin və hər müəllimin dərs yeri və oturacaqları razılaşdırılmış göstəricilərə uyğundur (bax. Rəhbər göstəriş N4).
- Gənclər də daxil olmaqla, cəmiyyətin üzvləri təlim mühitinin tikintisində və təmir-bərpa işlərində iştirak edir (bax. Rəhbər göstərişlər 1-3).
- Cins, yaş və əmək qabiliyyətini itirmiş insanları nəzərə alan, həmçinin şəxsi gigiyena və müdafiə məqsədləri ilə müvafiq miqdarda təhlükəsiz su və müvafiq sanitariya xidmət tikintiləri təmin olunmalıdır (bax. Rəhbər göstərişlər 3 və 5-6).
- Təlim mühitində bacarıqlara uyğun cins və gigiyena üzrə təhsil tətbiq edilir (bax. Rəhbər göstəriş N6).
- Məktəbəsaslı tibbi və iaşə xidmətləri səmərəli təlim və inkişafın maneələrini (məsələn, aclıq və s.) aradan qaldırmaq üçün əlverişlidir (bax. Rəhbər göstəriş N7).
- Məktəblər və təlim məkanları uşaqların müdafiəsi, tibbi, iaşə, sosial və psixoloji xidmətlərlə əlaqəlidir (bax. Rəhbər göstəriş N8).

### Rəhbər göstərişlər

1. **Yerləşmə:** Təhsil binaları tələbələrin, müəllimlərin və digər təhsil işçilərinin bərabərliyini və fiziki təhlükəsizliyini təmin edən ərazilərdə tikilməli, bərpa olunmalı və ya belə ərazilərə köçürülməlidir. Fövqəladə hallardan əvvəlki təhsil binalarının təkrar istifadə olunmasını nəzərə almaq əhəmiyyətlidir. Fiziki strukturların əvvəlki yerlərində yenidən tikilməsi cəmiyyətdəki müəyyən qruplara qarşı ayrı-seçkiliyi davam etdirə bilər və ya tələbələri təbii fəlakət riskinə məruz qoya bilər. Münaqişə və fəlakət riskinin diqqətli

dəyərləndirilməsi zəruridir. Bu, milli hökumət orqanları nümayəndələri və bir çox cəmiyyət üzvləri, xüsusilə həssas qrupları ilə məsləhətləşmələri özündə birləşdirməlidir. Bunlar tikiləcək təhsil binalarının yeri barədə dəyərli məlumatı təmin edə bilər. Məktəblərin və təhsil binalarının tələbələrin evlərinə və başqa xidmətlərə yaxın olmasının təmin edilməsində başqa (məsələn, düşərgənin uyğunlaşdırılması və təşkili, sığınacaq və tibbi xidmət) sektorlarla əməkdaşlıq zəruridir (həmçinin bax. Araşdırma standartı 1, Rəhbər göstərişlər 1-6, səh. 35-39; Əlverişlilik və təlim mühiti standartı 2, Rəhbər göstəriş 11, səh. 66-67; Təhsil siyasəti standartı 1, Rəhbər göstəriş N3, səh. 109; və Koordinasiya standartı 1, səh. 31-34).

2. **Struktur, layihə və inşaat:** Müvəqqəti və daimi təhsil binalarının layihələşdirilməsi və inşaatında aşağıdakı elementləri nəzərə almaq əhəmiyyətlidir:
   – Təhlükəsiz ərazinin seçilməsi: zədəli məktəb binalarının quruluşuna aid təhlükəsizlik ixtisaslı peşəkarlar tərəfindən qiymətləndirilməlidir; həmçinin yenidən istifadə olunması prioritetli binaların təmiri, təkrar təchiz edilməsi və ya əvəz edilməsi dəyər baxımından qiymətləndirilməlidir.
   – Binanın layihəsi və tikilməsi hərtərəfli və fəlakətə davamlı olmalıdır: beynəlxalq planlaşdırma və tikinti standartları kodeksi (və ya daha yüksək standarta malikdirsə, yerli kodekslər) məktəblərin müvəqqəti və daimi binalarına tətbiq edilməlidir. Məktəb binaları yanğın, tufanlar, zəlzələlər və torpaq sürüşmələri kimi məlum olan təhlükələrə və risklərə davamlı layihələşdirilməli, tikilməli və qorunub saxlanmalıdır. Rekonstruksiya səyləri məktəbə gələn tələbələrin, müəllimlərin və ya başqa təhsil işçilərinin aradan qaldırılması mümkün olan risklərə məruz qalmamasını təmin etməlidir; keyfiyyətli tədris və təlim mühitinin möhkəmləndirilməsi məqsədi ilə layihə və tikinti müvafiq işıqlandırma, ventilyasiya və istilik sistemləri ilə təmin edilməlidir.
   – Yerli hökumət orqanları və yerli cəmiyyət xərcləri tənzimləyərək binanın təmir-bərpa işlərini görə bilərsə, bina yerli materialların və yerli əməyin istifadəsi ilə müvafiq yerdə tikilməlidir. Tikintinin səmərəli, fiziki xüsusiyyətlərinin (yəni dam örtükləri, döşəmələr) isə davamlı olmasını təmin etmək üçün tədbirlər görülməlidir.
   – Tətbiq edilə bilən büdcə, cari və uzunmüddətli istifadə imkanı; cəmiyyətlərin, təhsili planlaşdıranların və menecerlərin iştirakı.Tikintilər müvəqqəti, qismən daimi, daimi, genişləndirilmiş və ya səyyar ola bilər. Fövqəladə halın fərqli təsir etdiyi qruplardan olan üzvlərin birgə fəaliyyətlərə cəlb edilməsi (məsələn, məktəblərin inşaatı və təmir-bərpası) münaqişənin qarşısının alınmasını dəstəkləyə bilər (həmçinin bax. Əlverişlilik və təlim mühiti standartı 2, Rəhbər göstəriş N11, səh. 66-67; Təhsil siyasəti standartı 1, Rəhbər göstəriş N3, səh. 109; *Təhlükəsiz məktəbin inşaatına aid FHTAŞ-nin Rəhbər göstərişləri* FHTAŞ-nin vəsaitlərindən əldə edilə bilər: **www.ineesite.org/toolkit**; və Sığınacaq, qəsəbə və qeyri-ərzaq əşyalarının standartları).

3. **Əmək qabiliyyətini itirmiş insanlar:** təhsil binalarının layihələşdirilməsi zamanı fiziki və görmə qabiliyyətini itirmiş insanların ehtiyacları diqqətlə nəzərə alınmalıdır. Giriş və çıxışlarda adamlara əlil arabaları və ya başqa yardımçı-mobil alətlər təklif edilməlidir. Sinif otağı və mebel, su və sanitariya tikintiləri əmək qabiliyyətini itirmiş insanların ehtiyaclarını qarşılamalıdır. Əraziləri müəyyən etdikdə və təhsil binalarının rekonstruksiyası zamanı müxtəlif növ əmək qabiliyyətini itirmiş adamları, əmək qabiliyyətini itirmiş uşaqların valideynləri və əmək qabiliyyətini itirmiş gəncləri təmsil edən təşkilatlarla yerli və milli səviyyədə əməkdaşlıq məsləhət görülür.

4. **Tədris ərazilərinin layihələşdirilməsi və təmir-bərpası:** Təhsil binalarının layihələşdirilməsi zamanı tədris ərazisindən kimin və necə istifadə edəcəyinə diqqət yetirilməlidir. Ərazi bütün istifadəçilərin cins, yaş, fiziki qabiliyyət və mədəni xüsusiyyətlərinə müvafiq olmalıdır. Maksimal sinif ölçüsünə real yerli standart tətbiq edilməlidir. Mümkünsə, əlavə sinif otaqları üçün kifayət qədər yer ayrılmalıdır; bu, tələbə qəbulunun artdığı halda bir neçə növbədən istifadə edilməsini xeyli azaldar. Giriş və çıxışlar tələbələrə, müəllim və başqa təhsil işçilərinə fövqəladə hallarda təhlükəsiz çıxış imkanını yaratmalıdır.

   Tikintinin strukturu (sanitariya tikintiləri də daxil olmaqla) və mebel (masalar, oturacaqlar, lövhələr də daxil olmaqla) müntəzəm təmir-bərpa olunmalıdır. Cəmiyyət üzvləri və cəmiyyətin təhsil komitəsi əmək, vaxt və ya materiallarla təlim məkanlarının təmir-bərpasına kömək etməlidir (həmçinin bax.  Müəllimlər və digər təhsil işçilərinin standartı 3, Rəhbər göstəriş N1, səh. 101).

5. **Sanitariya tikintiləri** təlim mühitinin daxilində və ya yaxınlıqda olmalıdır. Bunun üçün su və sanitariya sektoru ilə əməkdaşlıq əhəmiyyətlidir. Sanitariya aşağıdakı bəndləri özündə birləşdirir:
   – möhkəm tullantı qabları, məsələn: böyük yeşiklər və tullantı quyuları;
   – kanalizasiya qurğuları, məsələn: quyular və kanalizasiya xətləri;
   – şəxsi gigiyena və təmiz ayaqyolu üçün nəzərdə tutulmuş müvafiq su.

   Sanitariya tikintiləri əmək qabiliyyətini itirmiş şəxslər üçün əlverişli olmalıdır; xəlvətliyi, ləyaqəti və təhlükəsizliyi təmin etməlidir. Ayaqyolunun qapıları içəridən bağlanmalıdır. Cinsi təzyiq və təhqirin qarşısını almaq üçün oğlan/kişi və qız/qadınların ayrı-ayrı ayaqyolusu təhlükəsiz, rahat və əlverişli yerlərdə olmalıdır. Göstərişlərə görə, məktəbdə hər 30 qız üçün bir və hər 60 oğlan üçün bir ayaqyolu olmalıdır. Əgər ayrı-ayrı ayaqyolular təmin etmək əvvəlcədən mümkün olmayıbsa, qızlar və oğlanların ayaqyolundan eyni zamanda istifadəsinin qarşısını alan tədbirlər görülməlidir. Əgər ayaqyolu təlim binasının içində deyilsə, tualetlər yaxındakı tikililərdə düzəldilə bilər; uşaqların onlardan istifadəsinə nəzarət edilməlidir (həmçinin nəcisin kənar edilməsi üzrə standartlara aid “Su təchizatı, sanitariya və gigiyenanın möhkəmləndirilməsi” fəslinə bax).

Zəruri olduqda qadın tələbələr sanitariya materialları və mədəniyyətə müvafiq paltarlarla təmin edilməlidir ki, onlar təlimdə tam iştirak edə bilsinlər.

**6. Təhlükəsiz su və gigiyena:** Təlim mühitləri təhlükəsiz su mənbəyi və sabunla təmin edilməlidir. Əl-üz yumaq kimi gigiyena qaydaları gündəlik fəaliyyət kimi tətbiq edilməlidir. Göstərişlərə görə, məktəblərdə hər tələbəyə hər gün içmək və əl yumaq üçün minimum 3 litr su tələb olunur (həmçinin Su təchizatı, sanitariya və gigiyena barədə "Su təchizatı standartları" fəslinə bax).

**7. Məktəbəsaslı tibb və iaşə xidmətləri:** Məktəbəsaslı tibb və iaşə proqramları təhsili tibb, iaşə və sanitariya sektorlarının resursları ilə əlaqələndirir. Onlar təlimdəki maneələrin aradan qaldırılması və sağlamlığın inkişafını möhkəmləndirmə məsələləri ilə məşğul olurlar. Proqramlar özündə aşağıdakı bəndləri birləşdirə bilər:

– məktəbin qida proqramları aclıq məsələsinin həllinə aiddir;
– bağırsaq qurdlarına qarşı olan parazit infeksiyaların müalicəsi;
– təmas vasitəsilə yayılan xəstəliklərin qarşısının alınması proqramları (məsələn, qızılca, ishal, İİV və QİÇS);
– qida mikroelement əlavələrinin təminatı (məsələn, vitamin A, dəmir və yod).

Məktəbdə qidalanma proqramları Ümumdünya Qida Proqramının tanınmış göstərişlərinə uyğun həyata keçirilməlidir. Tibb və iaşə sektorlarının koordinasiyası əhəmiyyətlidir (həmçinin Ərzaq təhlükəsizliyi və qidalanma standartları bölməsinə bax).

**8. Əlverişli yerli xidmətlər və əlaqələr:** Müəllimlər və başqa təhsil işçiləri tələbələrin fiziki, psixoloji və emosional rifahını möhkəmlətmək məqsədi ilə yerli xidmətlərlə əlaqə saxlaya bilərlər. Onlar fiziki və ya psixoloji ehtiyacın əlamətlərinin tanınması, həmçinin başqa müdafiə məsələləri (məsələn, öz ailələrindən ayrılmış uşaqlar) üzrə təlim keçməlidirlər. Onlar başqa xidmət sektorlarının müvafiq iştirakçıları ilə tələbələrin rifahına təhlükələr barədə məlumatla bölüşməlidir.

Əlaqə sisteminin səmərəli işləməsini təmin etmək üçün zahiri xidmətlərlə formal əlaqələr yaradılmalıdır. Xidmətlər – məsləhət, cinsi və gender əsaslı zorakılıqdan ziyan çəkmiş adamlara göstərilən psixoloji və hüquq xidmətləri, təhqir və ya etinasızlığa aid şübhəli hallarla bağlı sosial xidmətlər ola bilər. Keçmişdə silahlı qüvvələr və silahlanmış qruplarla birgə olan uşaqlara ailələrini tapmaq və ailə ilə yenidən birləşmək kimi məsələlərdə kömək göstərmək lazım ola bilər (həmçinin bax. Əlverişlilik və təlim mühiti standartı 2, Rəhbər göstəriş N2, səh. 62; Tədris və təlim standartı N1, Rəhbər göstəriş N6, səh. 80-81; Tədris və təlim standartı N2, Rəhbər göstəriş N2, səh. 83-84).

**Bu standartların tətbiqinə aid FHTAŞ-nin vəsaitlərinə bax.:**
**www.ineesite.org/toolkit**

FHTAŞ-nin vəsaitləri
↳ FHTAŞ-nin Minimum standartları
↳ Tətbiqetmə vəsaitləri
↳ Əlverişlilik və tədris mühiti

3

# TƏDRİS VƏ TƏLİM


Əsas Standartlar:
icmanın iştirakı, koordinasiya, araşdırma
Tədris və təlim
Standart 1
Kurrikulum
Mədəniyyətə, cəmiyyətə və dilə müvafiq olan kurrikulum tələbələrin xüsusi kontekstinə və ehtiyaclarına uyğun olan formal və qeyri-formal təhsilin təmin edilməsi üçün istifadə edilir.
Standart 2
Təlim, peşəkar inkişaf və dəstək
Müəllimlər və digər təhsil işçiləri ehtiyaclara və şəraitlərə uyğun dövri, müvafiq və strukturlu təlim alırlar.
Standart 3
Təlimat və təlim prosesləri
Təlimat və təlim prosesləri tələbə-yönümlü, iştiraklı və hərtərəflidir.
Standart 4
Təlim nəticələrinin dəyərləndirilməsi
Təlim nəticələrini qiymətləndirmək və təsdiqləmək üçün müvafiq metodlardan istifadə edilir.

Təhsil imkanı yalnız təhsil proqramları keyfiyyətli tədris və təlim təklif edəndə mənalı olur. fövqəladə hallar kurrikulumu təkmilləşdirmə, müəllimlərin təlimi, peşəkar inkişaf və dəstək, təhsilin tələbələrə müvafiq, onları müdafiə edən və dəstəkləyən olması üçün təlimat və təlim proseslərinin, həmçinin təlim nəticələrinin dəyərləndirilməsi imkanlarını təklif edə bilər. Təklif edilən kurrikulum növü və təlim prioritetlərinin hədəfi barədə əhəmiyyətli qərarlar qəbul etmək lazım ola bilər. Cari və gələcək risklərin və təhlükələrin qarşısını almaq və ya minimuma endirmək üçün bilik və bacarıqların artırılması əsas məsələdir. İnsan hüquqları, sülh və demokratik vətəndaşlıq naminə təhsilə xüsusi əhəmiyyət verilməlidir.

Yaşamaq üçün vasitələrə və məşğuliyyətə aid təhsil (məsələn, kiçik biznesin inkişafı, maliyyə üzrə savad, texniki-peşə təhsili və təlimi) gənc kişi və qadınlara, xüsusilə də həssas qruplardan olan və məktəbin formal təhsilini bitirməyən oğlan və qızlar üçün təmin edilməlidir. Əmək bazarının təhlili, iqtisadiyyat və erkən yenidənqurma sektorları  ilə əməkdaşlıq proqramların müvafiq olmasını və öyrədilən iqtisadi bacarıqların faydalı olmasını daha yaxşı təmin edəcək. Fəlakət və ya böhranın birbaşa, yaxud dolayı nəticəsində yaranmış çatışmazlıqları həll edən təlim almamış və ya az təlim almış müəllimlər və təhsil işçiləri tədris mövzusunu tələbələrə effektiv çatdırmaq üçün təlim keçməlidirlər. Müəllimlər və digər təhsil işçiləri fəlakət yaşamış uşaqlara necə dəstək vermək barədə xüsusi təlimatlar almalıdırlar.

Fövqəladə halların erkən mərhələsindən yenidənqurma mərhələsinədək milli hökumət orqanlarının, təhsil təşkilatlarının, işlə təmin edənlərin kurrikulumu və verilmiş attestatları tanıması əhəmiyyətlidir. Cəmiyyətlər bilməlidir ki, onların uşaqlarının aldığı təhsilin dəyəri var və milli hökumət orqanları bu dəyəri tanıyırlar. Tədris və təlim prosesinin vaxtında və müvafiq dəyərləndirilməsi və qiymətləndirilməsi:

- etibar yaradır;
- tədris təcrübələri haqqında məlumat verir;
- kurrikulumun və tələbələrin güclü və zəif tərəflərini müəyyən edir;
- təhsil işçilərini, cəmiyyət üzvlərini və tələbələri irəliləyiş və ehtiyaclar barədə məlumatlandırır.

## Tədris və təlim standartı N1: Kurrikulum

Təlim mühiti təhlükəsizdir; tələbələrin, müəllimlərin və digər təhsil işçilərinin müdafiəsi və psixoloji rifahı möhkəmləndirilir.

**Əsas fəaliyyətlər** (Rəhbər göstərişlərə uyğun oxunmalıdır)

- Təhsil orqanları bütün müvafiq maraqlı tərəfləri cəlb edərək formal kurrikulumun yoxlanmasına, inkişaf etdirilməsinə və ya uyğunlaşdırılmasına rəhbərlik edirlər (bax. Rəhbər göstərişləri 1-3).
- Kurrikulum, dərsliklər və əlavə materiallar tələbələrin yaşına, inkişaf səviyyəsinə, dilinə, mədəniyyətinə, bacarıqlarına və ehtiyaclarına müvafiq olmalıdır (bax. Rəhbər göstərişlər 1-4).
- Qaçqınların və məcburi köçkünlərin təhsili üçün istifadə edilən formal kurrikulum və imtahanlar doğma və qəbul edən hökumətlər tərəfindən tanınmalıdır (bax. Rəhbər göstəriş N3).
- Formal və qeyri-formal kurrikulum fəlakət riskinin azaldılması, ətraf mühitə və münaqişənin qarşısının alınmasına aid təlimi özündə birləşdirir (bax. göstəriş qeydləri 3-4).
- Kurrikulum, dərsliklər və əlavə materiallar əsas təhsilin mahiyyəti olan təcrübələri özündə birləşdirir; buraya savad, hesablama (sinfi), erkən təlim, həyat bacarıqları, cinsi və gigiyena təcrübələri daxildir (bax. Rəhbər göstərişləri 4-5).
- Kurrikulum tələbələrin psixoloji rifahı və müdafiə ehtiyaclarına aid məsələlərə toxunur (bax. Rəhbər göstəriş N6).
- Təlim mövzusu, materiallar və təlimat tələbələrin dil(lər)ində təmin edilir (bax. Rəhbər göstəriş N7).
- Kurrikulum, dərsliklər və əlavə materiallar gender məsələsinə həssasdır, müxtəlifliyi qəbul edir, ayrı-seçkiliyin qarşısını alır və bütün tələbələrə hörməti möhkəmlədir (bax. Rəhbər göstəriş N8).
- Qaneedici, yerli istehsal edilmiş tədris və təlim materialları vaxtında təmin edilir (bax. Rəhbər göstəriş N9).

### Rəhbər göstərişlər

1. **Kurrikulum** tələbələrə onların bilik və bacarıqlarını inkişaf etdirməyə kömək edən hərəkət planıdır. Kurrikulum həm formal, həm də qeyri-formal təhsil proqramlarında tətbiq edilir; bütün tələbələrə müvafiq və uyğun olmalıdır. Kurrikulum özündə təlim məqsədlərini, təlimin mövzusunu, dəyərləndirmələri, tədris metodlarını və materialları birləşdirir:
   – «təlim məqsədləri» tələbələrin koqnitiv, sosial, emosional və fiziki inkişafını təmin edən və təhsil fəaliyyətləri vasitəsilə inkişaf etdirilən biliyi, münasibətləri və bacarıqları müəyyən edir;

– «təlim mövzusu» savad, hesablama (sinfi) və həyat bacarıqları kimi mövzulara aiddir;
– «dəyərləndirmə» - bilik, münasibətlər və bacarıqlar formasında öyrənilmiş materialın ölçülməsinə aiddir;
– «tədris metodları» - bütün tələbələri bilik və bacarıqları qavramağa həvəsləndirmək məqsədilə öyrədilən mövzusunun təqdimatı üçün seçilmiş və istifadə edilən yanaşmaya istinad edir;
– «təlimat materialı» kitablara, xəritələrə və cədvəllərə, əlavə tədris materiallarına, müəllimlərin göstərişlərinə, təchizata, oyuncaqlara və başqa tədris və təlim materiallarına istinad edir.

**2. Kontekstə, yaşa və inkişaf səviyyələrinə uyğun kurrikulum:**
Kurrikulum tələbələrin yaşına və inkişaf səviyyəsinə müvafiq olmalıdır; buraya onların duyğu, əqli, koqnitiv, psixoloji və fiziki inkişafı da daxildir. fövqəladə halların erkən mərhələsindən yenidənqurma mərhələsinədək kontekstlərdə formal və qeyri-formal təhsil proqramları çərçivəsində yaş və inkişaf səviyyələri müxtəlif ola bilər. Bu, kurrikulum və metodların uyğunlaşdırılmasını tələb edir. Müəllimlərin öz təlimlərini tələbələrin ehtiyaclarına və səviyyələrinə uyğunlaşdırmağına dəstək verilməlidir (həmçinin bax. Tədris və təlim standartı N2, səh. 83-86).

**3. Kurrikulumun yoxlanması və inkişaf etdirilməsi – uzun,** mürəkkəb prosesdir; bu, qəbul olunmuş və müvafiq təhsil orqanları tərəfindən icra edilməlidir. Əgər formal təhsil proqramları fövqəladə hallar zamanı və ya sonra bərpa olunursa, tanınmış milli ibtidai və orta məktəb kurrikulumu istifadə edilməlidir. Bunların olmadığı halda kurrikulum cəld hazırlanmalı və ya uyğunlaşdırılmalıdır. Qaçqınlarla işləyərkən, kurrikulum qəbul edən ölkənin və ya mənşə ölkəsinin kurrikulumuna əsaslana bilər. Başqa hallarda müvafiq fövqəladə hallarda istifadə edilən kurrikulum uyğunlaşdırıla bilər.

Qaçqınlar olan vəziyyətlərdə kurrikulum həm mənşə ölkəsi, həm də qəbul edən ölkə tərəfindən tam qəbul edilməlidir; bu, vətənə könüllü qayıtma hallarına kömək edər. Bu, rayon və müəssisələrarası əhəmiyyətli koordinasiya tələb edir və dil uyğunluğunu, attestatın verilməsi üçün imtahanın nəticələrinin qəbul edilməsini nəzərə alır. Qaçqınlarla qəbul edən ölkənin perspektivləri və beynəlxalq qanun bu qərarlara aid məlumat verməlidir (həmçinin bax. Təhsil siyasəti standartı 1, Rəhbər göstəriş N7, səh. 110-111).

Fövqəladə halların erkən mərhələsindən yenidənqurma mərhələsinədək formal və qeyri-formal təhsil proqramlarının kurrikulumu fövqəladə halların xüsusi kontekstinə uyğun olan bilik və bacarıqlarla zənginləşdirilməlidir (aşağıda Rəhbər göstəriş N5 bax).

Müəyyən qruplar üçün xüsusi kurrikulum lazım ola bilər, məsələn:
– yaşamaq üçün vasitə qazanan uşaqlar və gənclər;
– keçmişdə silahlı qüvvələr və silahlı qruplarla birgə olanlar;

– sinif səviyyələrindən yaşı çox olan tələbələr və ya uzun müddət məktəbdən kənarda olandan sonra qayıdan tələbələr;
– yetkin yaşlı tələbələr.

Kurrikulumun və dərsliklərin inkişaf etdirilməsi və qiymətləndirilməsi, təhsil proqramlarının müntəzəm yoxlanması müvafiq təhsil orqanları tərəfindən icra edilməlidir. Tələbələr, müəllimlər və müəllimlər ittifaqları, aidiyyəti olan cəmiyyətlər bunda fəal iştirak etməlidir. Müxtəlif milli və başqa həssas qruplardan nümayəndələr də daxil olmaqla, dərslikləri yoxlayan komissiyalar mənfi təsirin aradan qaldırılmasına və müxtəlif cəmiyyətlər arasında sülhün qurulmasına kömək edə bilər. Dərsliklərdən ayrılıq yaradan məlumatı kənar edərkən onların gərginliyi təhrik etməməsinə diqqət yetirilməlidir.

4. **Əsas təcrübələr** təlim mövzusunun və müəllimin təlim materiallarının inkişaf və ya uyğunlaşdırılmasından əvvəl müəyyən edilməlidir. Təhsilin mahiyyəti olan «əsas təcrübələr» bunlardır:
– funksional savad və hesablama (sinfi);
– ləyaqətli həyatı əldə etmək və öz cəmiyyətlərinin üzvləri kimi fəal və mənalı iştirak etmək üçün tələbələrdən tələb edilən zəruri bilik, həyat bacarıqları, münasibətlər və təcrübələr.

Əsas təcrübələr həyata tətbiq vasitəsilə möhkəmləndirilməlidir. Uşaqların erkən inkişafına aid müdaxilələr ən kiçik yaşlı uşaqlara əlverişli olmalıdır. Erkən uşaqlıqda inkişaf etdirilmiş möhkəm təməllər əsas təcrübələri əldə etmək və yiyələnməkdə əsasları formalaşdırır.

5. **Həyat bacarığı üzrə təlim mövzusu və əsas anlayışlar** tələbələrin yaşına, müxtəlif təlim metodlarına, təcrübə və mühitə müvafiq olmalıdır. Bunlar tələbələrin müstəqil və səmərəli həyat sürmək bacarığını möhkəmlədir. Məzmun və anlayışlar kontekstə aid olmalı və özündə aşağıdakı bəndləri birləşdirməlidir:
– sağlamlıq və gigiyenanın möhkəmləndirilməsi; buraya cinsi sağlamlıq, İİV və QİÇS də daxildir;
– uşaqların müdafiəsi və psixoloji dəstək;
– insan hüquqları üzrə təhsil, vətəndaşlıq, sülhün yaradılması və humanitar qanun;
– fəlakət riskinin azaldılması və xilasetmə bacarıqları; buraya torpaq minaları və partlamamış artilleriya sursatı üzrə təlim də daxildir;
– mədəniyyət, istirahət, idman növləri və incəsənət; buraya musiqi, rəqs, dram və vizual sənətlər də daxildir;
– yaşamaq üçün vasitələrə aid bacarıqlar, peşə və texniki bacarıqlar üzrə təlim;
– ətraf mühitə aid yerli mənşəli bilik;
– qızların və oğlanların qarşılaşdıqları xüsusi risklər və təhlükələrə aid müdafiə bacarıqları;

Təlim mövzusu tələbələrin yaşamaq vasitələrinin təməlini təşkil edir. Peşə təlimi proqramlarının məzmunu işlə təmin olunma imkanlarına görə müəyyən edilməlidir və şagirdlik kimi təcrübələr iş yerlərində tətbiq edilməlidir (həmçinin bax. KMTH Şəbəkə Böhrandan sonra iqtisadi yenidənqurma üçün tələb edilən Minimum Standartlar, İş yerinin yaradılması standartı və Müəssisə inkişafı üzrə standartlar).

Münaqişənin təsir etdiyi cəmiyyətlərdə münaqişə həlli və sülh məzmunlu təhsil və metodlar qruplar arasında anlaşmanı artıra bilər. Bunlar kommunikasiya bacarıqlarını təmin edərək barışdırılma və sülhyaratma işini dəstəkləyə bilər. Cəmiyyətlərin mübahisəli və ya ağrılı məsələləri müzakirə etməyə hazır olmasını təmin etmək üçün sülh təşəbbüslü təhsilin tətbiqinə diqqət yetirmək lazımdır (bax. Təhsil siyasəti standartı 1, Rəhbər göstəriş N1, səh. 107-108).

6. Psixoloji ehtiyaclar, hüquqlar və inkişaf: fövqəladə halların erkən mərhələsindən yenidənqurma mərhələsinədək bütün mərhələlərdə tələbələrin, müəllimlərin və digər təhsil işçilərinin psixoloji ehtiyaclarına, hüquqlarına və inkişafına diqqət yetirilməlidir. Tələbələrin ehtiyaclı olduqlarını görmək üçün təhsil işçiləri təlim keçməlidirlər. Ehtiyac problemini aradan qaldırmaq üçün onlar tədbirlər görməlidir; buraya dəstəkləyən istinad mexanizmləri də daxildir. Sinifdə və sinifdən kənarda olan uşaqlara psixoloji dəstəyin təmin edilməsinə aid müəllimlərin, təhsili dəstəkləyən heyətin və cəmiyyət üzvlərinin aydın göstərişləri olmalıdır. Ehtiyacı olan tələbələr proqnoz verilə bilən struktur çərçivəsində təlim keçməli, diqqəti təşviq etmək üçün müsbət nizamlayıcı metodlardan və qısa təlim müddətlərindən istifadə etməlidirlər. Bütün tələbələr kooperativ istirahət və təlim fəaliyyətlərində iştirak edə bilər. Müvafiq tədris metodları və məzmun tələbələrin əminliyini və gələcəyə ümidini artırır (həmçinin bax. Əlverişlilik və təlim mühiti standartı 2, Rəhbər göstərişlər 8-9, səh. 65-66; Əlverişlilik və təlim mühiti standartı 3, Rəhbər göstəriş N8, səh. 72; və Təhsil siyasəti standartı 1, Rəhbər göstəriş N1, səh. 107-108).

Çox vaxt fövqəladə halın təsir etdiyi əhalidən səfərbər edilmiş müəllimlərin və digər təhsil işçilərinin tələbələrlə eyni məzmunlu ehtiyacları olur. Bu məsələlər təlim, monitorinq və dəstək vasitəsilə həll edilməlidir. Müəllimlərdən və ya tələbələrdən onların psixoloji rifahına mənfi təsir göstərən öhdəlikləri üzərinə götürməsi gözlənilməməlidir (həmçinin bax. Müəllimlər və digər təhsil işçilərinin standartı 3, göstəriş qeydi 6, səh. 102 və "Sağlamlığa aid hərəkət" fəslində Əqli sağlamlıq və psixoloji rifah standartları).

7. **Təlimatın dili** çoxdilli ölkələrdə və cəmiyyətlərdə ayrılıq salan məsələ ola bilər. Təcrid edilməni minimuma endirmək məqsədi ilə təlimat dil(lər)i üzrə razılıq əsasında qərarlar qəbul olunmalıdır; bu məsələdə cəmiyyət, təhsil orqanları və başqa müvafiq maraqlı tərəflər iştirak etməlidir. Müəllimlər anlaşılan dil(lər)də tələbələrə təlim verməyə, valideynlərə və geniş ictimaiyyətə məlumat verməyə qadir olmalıdırlar. Eşitmə və görmə qabiliyyətindən

məhrum tələbələrin tam iştirakını təmin etmək üçün onlara ən müvafiq dillərdən və metodlardan istifadə etmək öyrədilməlidir. Əlavə dərslər və fəaliyyətlər, xüsusilə uşaqların erkən təlimi tələbələrin dil(lər)ində əlverişli olmalıdır.

Qaçqınlar olduğu halda qəbul edən ölkələr qaçqınların məktəblərindən öz standartlarına uyğunlaşmalarını tələb edə bilərlər; buraya onların istifadə etdiyi dil(lər) və kurrikulum da aiddir. Qaçqın tələbələrin hüquqlarını bilmək əhəmiyyətlidir. Onların
gələcəkdəki imkanları, fövqəladə haldan sonra qəbul edən və ya doğma cəmiyyətlərində onların təhsillərini davam etdirmək üçün onlara imkan yaradan və lazım olan şeylər nəzərə alınmalıdır. Geniş köçmə halında tələbələrə qəbul edən cəmiyyətin və ya ölkənin dilini öyrənmək imkanı təmin edilməlidir. Bu, onlara qəbul edən cəmiyyətdə fəaliyyəti, təhsili və imkanları əlverişli edir (bax. Təhsil siyasəti standartı 1, Rəhbər göstəriş N7, səh. 110-111).

8. **Müxtəliflik** fövqəladə hallarda ilkin mərhələdən yenidənqurmayadək bütün mərhələlərdə təhsil fəaliyyətlərinin inkişaf və tətbiqində nəzərə alınmalıdır. Bu, müxtəlif təcrübəli və həssas qruplardan olan tələbələri, müəllimləri və başqa təhsil işçilərini qəbul etmək, dözümlülüyü və hörməti möhkəmləndirmək deməkdir. Müxtəlifliyin xüsusi cəhətləri özündə aşağıdakı bəndləri birləşdirə bilər:
- gender;
- əqli və fiziki qabiliyyəti itirmə;
- təlim bacarığı;
- müxtəlif gəlirli qruplara aid tələbələr;
- müxtəlif yaşlı uşaqları birləşdirən siniflər;
- mədəniyyət və milliyyət;
- etnik azlıqlar və din.

Kurrikulum, təlim materialları və tədris metodları mənfi münasibəti azaltmalı və ədaləti gücləndirməlidir. Proqramlar dözümlülük barədə yalnız söhbətlər keçirmir, münasibətləri və davranışları dəyişməyə başlayır. Bu, başqalarının hüquqlarını daha yaxşı bilməyə və hörmət etməyə gətirib çıxarır. Yaşa uyğun və mədəniyyətə həssas olan metodlarla müxtəliflik möhkəmləndirilməli, insan hüquqları üzrə təhsil isə formal və qeyri-formal təhsil tərəfindən dəstəklənməlidir.

Məzmun beynəlxalq insan hüquqları, humanitar qanun və həyat bacarıqları ilə əlaqəli ola bilər. Əgər dərsliklərə və başqa materiallara yenidən baxılmalıdırsa, mövcud olan materiallarda və tədris metodlarında dəyişikliklər etmək işində müəllimlərə kömək lazım ola bilər (həmçinin bax. Tədris və təlim standartı N2, Rəhbər göstəriş N2, səh. 83-84 və Təhsil siyasəti standartı 1, Rəhbər göstəriş N7, səh. 110-111).

9. **Mövcud olan yerli təlim materialları** fövqəladə halın əvvəlində qiymətləndirilməlidir. Qaçqınlara və ya məcburi köçkünlərə verilən materiallara onların ölkəsindəki və ya mənşə ərazisindəki materiallar daxil edilir. Zəruri olduqda materiallar uyğunlaşdırılmalıdır və ya inkişaf etdirilməlidir, hamıya kifayət qədər əlverişli olmalıdır. Bunlar əmək qabiliyyətini itirmiş tələbələr üçün əlverişli ölçüdə olmalıdır. Müvafiq təhsil orqanlarına materialların saxlanılmasına, paylanmasına və istifadə edilməsinə nəzarət etməkdə kömək göstərilməlidir (həmçinin bax. Müəllimlər və digər təhsil işçilərinin standartı 3, Rəhbər göstəriş N1, səh. 101).

## Tədris və təlim standartı N2:
## Təlim, peşəkar inkişaf və dəstək

Müəllimlər və digər təhsil işçiləri ehtiyaclara və şəraitlərə uyğun dövri, müvafiq və strukturlu təlim alırlar.

**Əsas fəaliyyətlər** (Rəhbər göstərişlərə uyğun oxunmalıdır)

- Ehtiyaclara müvafiq olaraq, kişi və qadın müəllimlərin və digər təhsil işçilərinin təlim almaq imkanları olmalıdır (bax. Rəhbər göstərişləri 1-2).
- Təlim kontekstə müvafiq olmalıdır, təlim məqsədlərini və məzmununu əks etdirməlidir (bax. Rəhbər göstərişlər 1-2).
- Təlim müvafiq təhsil orqanları tərəfindən tanınmalı və təsdiq edilməlidir (bax. Rəhbər göstərişlər 3-4).
- İxtisaslı müəllimlər təlim kurslarına rəhbərlik etməlidirlər; bu kurslar iş yerindən ayrılmadan təlim, dəstək, göstəriş, monitorinq və sinif otağında nəzarəti özündə birləşdirir (bax. Rəhbər göstərişlər 3-4).
- Təlim və davamlı dəstək vasitəsilə müəllimlər təlim mühitində səmərəli köməkçilər olurlar, tədrisin iştiraklı metodlarından və tədris vəsaitlərindən istifadə edirlər (bax. Rəhbər göstərişlər 3-6).
- Təlim formal və qeyri-formal kurrikuluma aid bilik və bacarıqları özündə birləşdirir; buraya təhlükədən xəbərdarlıq, fəlakət riskinin azaldılması və münaqişənin qarşısının alınması da aiddir (bax. Rəhbər göstəriş N6).

### Rəhbər göstərişlər

1. **«Müəllim» -** formal və qeyri-formal təhsil proqramlarında təlimatçı, köməkçi və ya ruhlandıran şəxslərdir. Müəllimlərin müxtəlif təcrübəsi və təhsili ola bilər. Onlar böyük sinif şagirdləri və ya cəmiyyət üzvləri ola bilər (həmçinin bax. Müəllimlər və digər təhsil işçilərinin standartları 1-3, səh. 77-88).

2. **Formal təhsil kurrikulumunun və məzmununun hazırlanması** təhsil orqanlarının məsuliyyətidir. Büdcə və vaxt məhdudiyyəti kontekstində kurrikulum və məzmun tələbələrin ehtiyaclarını və hüquqlarını, təhsil işçilərinin xüsusi ehtiyaclarını əks etdirməlidir.

   Təlim mövzusu özündə aşağıdakı bəndləri birləşdirə bilər:
   - əsas mövzu üzrə bilik, məsələn: sağlamlıq üzrə təhsil də daxil olmaqla, kontekstə müvafiq olan savad, hesablama (sinfi) və həyat bacarıqları;
   - müsbət nizam və sinfin idarə edilməsi, iştiraklı yanaşmalar və hərtərəfli təhsil də daxil olmaqla, pedaqogika və tədris metodları;
   - Müəllimlər və digər təhsil işçiləri üçün davranış qaydaları; buraya tələbələrə qarşı tətbiq edilən gender əsaslı zorakılığın mühakimə edilməsi, müvafiq hesabatlar və istinad mexanizmləri də aiddir;

– fəlakət riskinin azaldılması və münaqişənin qarşısının alınması prinsipləri;
– həm tələbələrin, həm də müəllimlərin ehtiyacları, yerli xidmətlərin və istinad sistemlərinin mövcud olması da daxil olmaqla, psixoloji inkişaf və dəstək;
– insan hüquqları prinsipləri və perspektivləri, humanitar qanun; onların mənasını və məqsədini, onların tələbələrin ehtiyacları və tələbələrin, müəllimlərin, cəmiyyətlərin və təhsil orqanlarının öhdəlikləri ilə bilavasitə və vasitəsiz əlaqələrini anlama;
– kontekstə müvafiq olan digər məzmun.

Təlim təşəbbüsləri müxtəliflik və ayrı-seçkilik məsələlərinin həllini özündə birləşdirməlidir. Məsələn, gender məsələsinə həssas tədris strategiyaları kişi və qadın müəllimləri sinifdə gender bərabərliyini anlamağa və tətbiq etməyə həvəsləndirir. Qadınların təhsil işçiləri və cəmiyyət üzvləri olaraq təlim verməsi sinifdə və geniş ictimaiyyətdə müsbət dəyişiklikləri gücləndirə bilər (həmçinin bax. Tədris və təlim standartı N1, səh. 77-82; Əlverişlilik və təlim mühiti standartı 2, Rəhbər göstərişlər 2-3 və 8, səh. 62-63 və 65; Əlverişlilik və təlim mühiti standartı 3, Rəhbər göstəriş N8, səh. 72; Müəllimlər və digər təhsil işçilərinin standartı 3, səh. 101-102).

3. **Təlim dəstəyi və koordinasiya:** Mümkünsə, təhsil orqanları müəllimlərin formal və qeyri-formal təlimi üzrə fəaliyyətlərinin planlamasına və tətbiqinə rəhbərlik etməlidir. Təhsil orqanları bu prosesə rəhbərlik edə bilməyəndə müəssisələrarası koordinasiya komitəsi göstəriş və koordinasiyanı təmin etməlidir. Təlim planları iş yerində təlimi, həmçinin, zəruri olduqda, müəllimlərə təlimi təmin edən təşkilatların və universitetlərin tədris binalarının bərpasını əhatə etməlidir. Sabit təhsil sektorunun yenidən qurulmasında bu təşkilatlar çox əhəmiyyətli rol oynayırlar (həmçinin bax. Koordinasiya standartı 1, Rəhbər göstəriş 1, səh. 31-32 və Müəllimlər və digər təhsil işçilərinin standartı 3, Rəhbər göstərişlər 3-4, səh. 102).

Milli təhsil orqanları və başqa müvafiq maraqlı tərəflər fövqəladə hallarda yardım mərhələsinin əvvəlində müəllimlərin iş yerində təliminə aid kurrikulum və onun tanınma mexanizmləri barədə dialoqa başlamalıdır. Mümkün olduqda, iş yerində təlim ixtisaslı müəllim statusu üzrə milli tələblərə cavab vermək üçün planlaşdırılmalıdır. Fövqəladə hallara müvafiq olan əlavə elementlər (məsələn, psixoloji ehtiyacların qarşılanması) də əlavə edilməlidir. Qaçqınların məktəb sistemləri yerli təhsil sistemindən ayrı olduğu yerlərdə qaçqın müəllimlərin iş yerində təlim alması mənşə ölkədə və ya qəbul edən ölkədə ixtisaslı müəllim statusunu təşviq edəcək.

Müəllimlərin müvafiq təlimini inkişaf və tətbiq etmək üçün yerli təlimatçılar müəyyən edilməlidir. Onların kömək etmə və təlim vermə bacarıqlarının inkişaf etdirilməsi lazım ola bilər. Kişi və qadın müəllimlərin və təlimatçıların

sayının tarazlığı təmin edilməlidir. Müəllimlərin sayı az olan yerdə və ya onların müvafiq təhsili olmayanda müəllimlərin iş yerində və işə başlamazdan əvvəl təlimini təmin edən təşkilatlar dəstəklənməlidir. Bu, BMT agentlikləri və QHT-lər kimi milli və rayon təşkilatları və xarici agentliklərin uzlaşdırılmış səyləri olmalıdır. Bu, özündə aşağıdakı bəndləri birləşdirə bilər:

- müəllimin təliminə aid kurrikulumun və dərsliklərin yoxlanması;
- uyğunlaşdırılmış və fövqəladə hallara aid məzmunun materiala daxil edilməsi;
- praktiki tədris təcrübəsinin təminatı, məsələn: tədris üzrə köməkçilər və ya stajçılar kimi xidmət etmə.

**4. Təlimin tanınması və sertifikat vermə:** fövqəladə halların erkən mərhələsindən yenidənqurma mərhələsinədək müəllim təliminin keyfiyyət və qəbulunun təmin edilməsində təhsil orqanlarının təsdiqi və sertifikat verməsi zəruridir. Qəbul edən və ya mənşə ölkəsindəki təhsil orqanları qaçqınlardan olan müəllimlərin aldığı təlimin məqbul, tələbələrin və müəllimlərin ehtiyaclarına uyğun olub-olmamasını müəyyən etməlidir (bax. Təhsil siyasəti standartı 1, Rəhbər göstəriş N7, səh. 110-111).

**5. Tədris və təlim materialları:** Müəllimlər kurrikuluma əsaslanaraq xüsusi tədris vasitələrinə ehtiyacları necə müəyyən etmək üzrə təhsil almalıdır. Onlar əldə edilə bilən yerli materiallardan istifadə edərək səmərəli və müvafiq tədris vasitələri yaratmağı öyrənməlidir (bax. Tədris və təlim standartı N1, Rəhbər göstəriş N9, səh. 82 və Müəllimlər və digər təhsil işçilərinin standartı 3, Rəhbər göstəriş 1, səh. 101).

**6. Təhlükəyə aid xəbərdarlıq, riskin azaldılması və yardıma hazırlıq:** Gələcəkdəki fəlakətlərin qarşısını almaqda və zəiflətməkdə tələbələrə və cəmiyyətə kömək etmək üçün müəllimlərə bacarıqlar və bilik lazımdır. Riskin azaldılması və münaqişənin qarşısının alınmasına aid materialı tədris və təlimə daxil etmək işində onlara kömək lazım ola bilər. Bu, cəmiyyətlərin qarşılaşdığı potensial təhlükələrin və fəlakətlərin müəyyən edilməsində, qarşısının alınmasında və yardım edilməsində lazım olan məlumat və bacarıqları özündə birləşdirir (həmçinin bax. Araşdırma standartı 1, Rəhbər göstəriş N3, səh. 37-38; Əlverişlilik və təlim mühiti standartı 2, Rəhbər göstəriş N11 səh. 66-67; Əlverişlilik və təlim mühiti standartı 3, Rəhbər göstərişləri 1-2, səh. 68-70; və Təhsil siyasəti standartı 1, Rəhbər göstərişlər 2 və 6, səh. 108-110).

## Tədris və təlim standartı N3: Təlimat və təlim prosesləri

Təlimat və təlim prosesləri tələbəyönümlü, iştiraklı və hərtərəflidir.

**Əsas fəaliyyətlər** (Rəhbər göstərişlərə uyğun oxunmalıdır)

- Tədris metodları tələbələrin yaşına, inkişaf səviyyəsinə, dilinə, mədəniyyətinə, bacarıqlarına və ehtiyaclarına müvafiqdir (bax. Rəhbər göstərişləri 1-3).
- Müəllimlər tələbələrlə qarşılıqlı əlaqədə olduqda dərs məzmununu anladıqlarını və tədris bacarıqlarına malik olduqlarını nümayiş etdirməlidirlər (bax. Rəhbər göstərişlər 1-3).
- Təlimat və təlim prosesləri əmək qabiliyyətini itirmiş tələbələr də daxil olmaqla, bütün tələbələrin ehtiyaclarını nəzərə alır, əhatə etməni və təlimdəki maneələrin azaldılmasını təmin edir (bax. Rəhbər göstəriş N2).
- Valideynlər və cəmiyyət rəhbərləri təlimin məzmununu və istifadə edilən tədris metodlarını anlamalı və qəbul etməlidirlər (bax. Rəhbər göstəriş N3).

### Rəhbər göstərişlər

**1. Fəal iştirak:** Hər cür inkişaf və yaş səviyyəsində olan tələbələrin fəal iştirakı əhəmiyyətlidir. Tədris qarşılıqlı, fəal və iştiraklı olmalıdır, bütün tələbələrin dərsdə iştirak etməsini təmin etməlidir. Bu, inkişafa müvafiq olan tədris və təlim metodlarının istifadəsini mümkün edir. Bu, qrupda işi, layihə üzrə işi, həmyaşıdların təhsilini, rollarla oyunları, hekayələr danışma və ya hadisələrin təsviri, oyunlar, videolar və ya nağılları özündə birləşdirə bilər. Bu metodlar müəllimin aldığı təlimə, məktəb dərsliklərinə və təlim proqramlarına daxil edilməlidir. Fəal təlim üçün mövcud olan kurrikulumu uyğunlaşdırmaq lazım ola bilər.

Kiçik yaşlı uşaqlar oyun vasitəsilə öyrənirlər. Onların təlimi fəal oyun və qarşılıqlı əlaqədə olmağa əsaslanmalıdır. İstiqamətləndirilən oyun həm həmyaşıdların, həm də müəllimlərin bacarıqlarını və münasibətlərini təşviq edə bilər. Kiçik yaşlı uşaqların valideynləri və ibtidai tərbiyəçiləri aşağıdakı bəndləri anlamaq və tətbiq etmək işində dəstəklənməlidir:

- uşaqların ehtiyaclarına həssas olmağın və onlara kömək etməyin əhəmiyyəti;
- kiçik yaşlı uşaqlara qayğı göstərməyin yolları;
- fəal olaraq uşaqları təlim prosesində iştirak etdirən və onların inkişafını təmin edən oyun metodları.

**2. Təlim qarşısında olan maneələr:** Müəllimlərin valideynlər, cəmiyyət üzvləri, təhsil orqanları və başqa müvafiq maraqlı tərəflərlə fövqəladə hallarda formal

və qeyri-formal təhsil fəaliyyətlərinin əhəmiyyəti barədə söhbətlər aparması dəstəklənməlidir. Bunlar hüquq, müxtəliflik və daxil etmə kimi məsələləri, həmçinin təhsil fəaliyyətlərində iştirak etməyən uşaqlara və gənclərə müraciət etməyin əhəmiyyətini müzakirə edə bilərlər. Bu müzakirələr insanların bütün uşaqların və təmin edilən müvafiq material resursunun və binaların daxil edilməsini anlamasının və dəstəkləməsinin təmin edilməsi üçün əhəmiyyətlidir. Valideyn-müəllim assosiasiyaları, məktəbin təşkili və cəmiyyətin təhsil komitələri kimi qruplar təlim qarşısında olan maneələri müəyyən etmək və planlar hazırlamaq, həmçinin bu məsələləri cəmiyyət səviyyəsində həll etmək işində kömək etmək üçün səfərbər edilə bilər (həmçinin bax. Əlverişlilik və təlim mühiti standartı 1, Rəhbər göstəriş N7, səh. 59).

3. **Müvafiq tədris metodları:** fövqəladə halların erkən mərhələsindən yenidənqurma mərhələsinədək təhsil müəllimlərə formal təhsil şəraitində müsbət tərəfə dəyişmək imkanını təklif etməlidir. Tədris metodları kontekstə uyğun və məqbul olması üçün dəyişdirilə bilər; bunlar da tələbələrin hüquqlarına, ehtiyaclarına, yaşına, bacarıqlarına və əmək qabiliyyətini itirmiş şəxslərə diqqət yetirilməlidir. Lakin daha çox iştiraklı və ya tələbə üçün əlverişli mühitdə tətbiq edilən tədris metodları ehtiyatla və həssaslıqla istifadə edilməlidir. Yeni metodların tətbiqi xüsusilə fövqəladə halın ilkin mərhələlərində hətta təcrübəli müəllimlərə təzyiq yarada bilər. Bu həmçinin tələbələrə, valideynlərə və cəmiyyət üzvlərinə də təsir göstərə bilər (həmçinin bax. FHTAŞ-nin tədris və təlim üzrə Rəhbər göstərişlər, FHTAŞ-nin vəsaitlərindən əldə edilə bilər: **www.ineesite.org/toolkit**.).

   Dəyişikliklər təhsil orqanlarının təsdiqi, koordinasiyası və dəstəyi ilə təqdim edilməlidir. Məktəbə və cəmiyyətə bu dəyişiklikləri anlamaq və qəbul etmək üçün vaxt lazım ola bilər. Valideynlərin və başqa cəmiyyət üzvlərinin maraqlarını nəzərə almaq əhəmiyyətlidir. Müəllimlər bilik və davranışlarında onlardan gözlənilən yeni məzmun və dəyişikliklərlə tanış olmalıdırlar.

   Qeyri-formal təhsil müdaxilələrində tələbəyönümlü yanaşmalar könüllü işçilərin, ruhlandıran şəxslərin, köməkçilərin və tərbiyəçilərin təlimi və davamlı dəstəyi vasitəsilə təqdim edilə bilər. Metodlar kurrikuluma müvafiq olmalıdır; fövqəladə hal kontekstinə aid savad, hesablama (sinfi) və həyat bacarığı da daxil olmaqla, əsas təhsilin mahiyyətinə diqqət yetirməlidir (bax. Tədris və təlim standartı N1, Rəhbər göstəriş N4, səh. 79).

## Tədris və təlim standartı N4:
## Təlim nəticələrinin dəyərləndirilməsi

Təlim nəticələrini qiymətləndirmək və təsdiqləmək üçün müvafiq metodlardan istifadə edilir.

**Əsas fəaliyyətlər** (Rəhbər göstərişlərə uyğun oxunmalıdır)

- Müəyyən edilmiş məqsədlərə doğru tələbələrin tərəqqi etməsinin davamlı dəyərləndirilməsi və qiymətləndirməsi tədris metodlarını məlumatla təmin edir (bax. Rəhbər göstəriş N1).
- Tələbələrin nailiyyəti müəyyən edilir, müvafiq qiymətlər qoyulur və ya kursu bitirməsinə aid sənədlər verilir (bax. Rəhbər göstəriş N2).
- Texniki və peşə proqramlarının məzunları qiymətləndirilərkən proqramların keyfiyyətli və dəyişən mühitə münasib olmaları müəyyən edilir (bax. Rəhbər göstəriş N2).
- Dəyərləndirmə və qiymətləndirmə metodları tələbələr üçün ədalətli, etibarlı və təhlükəsiz hesab olunur (bax. Rəhbər göstəriş N3).
- Dəyərləndirmələr tələbələrin gələcək təhsil və iqtisadi ehtiyaclarına müvafiqdir (bax. Rəhbər göstəriş N4).

### Rəhbər göstərişlər

1. **Səmərəli dəyərləndirmə və qiymətləndirmə metodları və vasitələri** təqdim edilməli və aşağıdakı bəndləri nəzərə almalıdır:
   - münasiblik: testlər və imtahanlar təlim kontekstinə və tələbələrin yaşına müvafiqdir (həmçinin aşağıda Rəhbər göstəriş N4 bax.);
   - ardıcıllıq: qiymətləndirmə metodları hər yerdə məlumdur və bütün müəllimlər tərəfindən oxşar yolla tətbiq edilir;
   - imkan: qiymətləndirməyə gəlməyən tələbələrə başqa qiymətləndirmə şansı verilməlidir;
   - vaxt: dəyərləndirmə təlimat zamanı və təlimatın sonunda baş verir;
   - qiymətləndirmə cədvəli: fövqəladə hal buna təsir göstərə bilər;
   - təhlükəsiz və müvafiq şərait: formal qiymətləndirmələr təhsil işçiləri tərəfindən təhlükəsiz yerdə keçirilir;
   - şəffaflıq: dəyərləndirmənin nəticələri tələbələrə bildirilir və müzakirə edilir (uşaqların qiymətləri isə onların valideynləri ilə müzakirə edilir). Mümkün və müvafiq olduqda, qiymətləndirmənin əsas mərhələlərində imtahanı qəbul etmək üçün nümayəndələr kənardan dəvət olunmalıdır;
   - əmək qabiliyyətini itirmiş tələbələrin yaşayış yeri ilə təmin edilməsi: buna uzun müddət ayrılır; müvafiq alternativ metodlar vasitəsilə bacarıqlar və anlama qabiliyyəti nümayiş etdirilir (həmçinin bax. Əmək qabiliyyətini itirmiş insanların təhsilini dəstəkləmək üzrə FHTAŞ-nin göstəriş kitabçası, FHTAŞ-nin vəsaitlərindən əldə edilə bilər: **www.ineesite.org/toolkit.**).

2. **Dəyərləndirmənin nəticələri:** formal təhsil proqramlarında qiymətləndirmə elə keçirilir ki, tələbələrin nailiyyətləri və imtahan nəticələri təhsil orqanları tərəfindən tanına bilsin. Qaçqınların təhsilindəki qiymətləndirmələri ölkə və ya mənşə ərazisindəki təhsil orqanlarının tanıması üçün səylər göstərilməlidir. Texniki və peşə təhsilində təlim xidmətini təmin edənlər milli attestat verilmə standartları ilə uyğunluğu təmin etməlidir. Kursun bitirilməsinə aid sənədlər diplom və məzun attestatları ola bilər.

3. **Etika qaydalarının qiymətləndirilməsi:** Dəyərləndirmə və qiymətləndirmə etika qaydalarına müvafiq inkişaf və tətbiq edilməlidir. Yəni onlar ədalətli, etibarlı olmalıdır; qorxu və ya ehtiyacı artırmamalıdır. Yaxşı qiymət və ya məktəb, yaxud proqram çərçivəsində irəliləyiş əldə etmək məqsədi ilə tələbələr incidilməməlidir. Bu şərtləri təmin etmək üçün monitorinq, həmçinin inspektorlar və cəmiyyət üzvləri tərəfindən qüsurların müəyyən edilməsi məqsədi ilə keçirilən yoxlamalar faydalı ola bilər (bax. Əlverişlilik və təlim mühitinin standartı 2, Rəhbər göstərişlər 4 və 9, səh. 63-64 və 66).

4. **Münasiblik:** qiymətləndirmələrin və istifadə edilən proseslərin məzmunu təlim materialları ilə bilavasitə əlaqəli olmalıdır. Təlim məqsədləri və meyarlar kurrikulumdan müəyyən edilməlidir. Qiymətləndirmələrin standart kurrikulumu deyil, öyrədilmiş materialları əks etdirməsi üçün mümkün olduğu qədər onlar uyğunlaşdırılmalıdır və beləliklə, onlar tədrisdəki qüsurları deyil, öyrənməni əks etdirəcək.

   Müəllimlər və digər təhsil işçiləri müvafiq və asanlıqla tətbiq edilə bilən qiymətləndirmə vasitələrindən və metodlarından istifadə etməlidirlər. Qiymətləndirmə vasitələrinin istifadəsinin istiqamətləndirilməsi və bunlar üzrə təlim səmərəliliyi artıra bilər. Cəmiyyət üzvləri öyrənmədə tərəqqinin dəyərləndirilməsində və tədrisin səmərəliliyinin qiymətləndirilməsində kömək edə bilərlər. Bu, çox sayda tələbə və ya çox fərqli kateqoriyalar olan siniflərdə, həmçinin tələbələrin daha çox fərdi diqqətə ehtiyacları olanda xüsusilə faydalı ola bilər.

**T Bu standartların tətbiqinə aid FHTAŞ-nin vəsaitlərinə bax.:**
**www.ineesite.org/toolkit**

| FHTAŞ-nin vəsaitləri | FHTAŞ-nin vəsaitləri |
|---|---|
| ↳ FHTAŞ-nin Minimum standartları<br>↳ Tətbiqetmə vəsaitləri<br>↳ Tədris və təlim | ↳ Tədris və təlim üzrə göstərişlər<br>↳ Tədris və təlim üzrə vəsaitlər dəsti |

4

# MÜƏLLİMLƏR VƏ TƏHSİL İŞÇİLƏRİ

## Əsas standartlar: İcmanın iştirakı

### Müəllimlər və başqa təhsil işçiləri

**Standart 1**
**Cəlb edilməsi və seçilməsi**

Kifayət qədər müvafiq ixtisaslı müəllim və başqa təhsil işçiləri seçim meyarlarına əsaslanan, müxtəlifliyi və bərabərliyi əks etdirən, iştiraklı və şəffaf proses vasitəsilə seçilir.

**Standart 2**
**İş şəraitləri**

Müəllimlər və başqa təhsil işçilərinin iş şəraitləri aydın müəyyən edili; onlar müvafiq əmək haqqı alırlar.

**Standart 3**
**Dəstək**
**Nəzarət**

Müəllimlər və başqa təhsil işçilərinin səmərəli işləməsi üçün dəstək və nəzarət mexanizmləri səmərəli işləyir.

Fövqəladə halların erkən mərhələsindən yenidənqurma mərhələsinədək müəllimlər və digər təhsil işçiləri uşaqların və gənclərin təhsil ehtiyaclarını təmin edirlər. Bunlar peşəkar statusa görə fərqlənə bilər: universitet diplomlu dövlət işçiləri, formal təhsilini tamamlamamış könüllü işçilər və ya cəmiyyətəsaslı müəllimlər. «Müəllimlər və digər təhsil işçiləri» termini aşağıdakıları özündə birləşdirir:

- sinif otağı müəllimləri və sinif otağı köməkçiləri;
- kiçik yaşlı uşaqların və ya ibtidai sinif müəllimləri;
- əmək qabiliyyətini itirmiş adamların müəllimləri;
- peşə mütəxəssisləri və peşə müəllimləri;
- uşaqlar üçün əlverişli mühitdəki köməkçilər;
- cəmiyyətdəki könüllü işçilər, din müəllimləri və həyat bacarığı üzrə təlimatçılar;
- tədris-hissə müdirləri, inzibatçılar, məktəb inspektorları və başqa təhsil məmurları.

Müəllimlərin və digər təhsil işçilərinin rolları və öhdəlikləri təhsil növündən (formal və ya qeyri-formal) və təlim mühitinin növündən asılıdır. Müəllimlərin və digər təhsil işçilərinin qərarların qəbul olunmasında və  peşəkar inkişafda iştirak etməsi fövqəladə hallarda təhsil layihəsinin planlaşdırılmasının əhəmiyyətli tərkib hissəsidir.

Müəllimlər və digər təhsil işçilərinin tanınması, cəlb edilməsi və seçilməsi ayrı-seçkilik olmadan, iştiraklı və şəffaf olmalıdır. Gender balansının və cəmiyyətin nümayəndəliyinin olması mühümdür. Müəllimlər və digər təhsil işçiləri müvafiq təcrübə və bacarıqlara malik olmalı və müvafiq əmək haqqı almalıdırlar. Bunlar həmkarlar ittifaqına qoşulmaq və onu təşkil etmək üçün azad olmalıdırlar. Davranış qaydaları, rollar və öhdəliklər, nəzarət mexanizmləri, iş şəraiti, müqavilə əsasında planlar, kompensasiya və iş hüquqları icmalarla məsləhət edildikdə daha effektiv inkişaf  etdirilir.

Böhran vəziyyətlərində müəllimlər və digər təhsil işçiləri işin öhdəsindən gəlmək, bərpa və şəfa işlərinə başlamaq üçün dəstək tələb edirlər. Fövqəladə halların erkən mərhələsindən yenidənqurma mərhələsinədək uşaqlara, gənclərə və icmalara xilasetmə məlumatlarını, təlim imkanlarını və sosial dəstəyi təmin etməklə təhsil dözümlülüyü artırır və daha parlaq gələcəyin təmin edilməsinə imkan yaradır. fövqəladə halların erkən mərhələsindən yenidənqurma mərhələsinədək müəllimlər və digər təhsil işçiləri təhsilə töhfə verən əhəmiyyətli əməkdaşlardır. Onların həmçinin özlərini dəstəkləmək və özlərinə rəhbərlik etmək hüququ var.

## Müəllimlər və digər təhsil işçilərinə aid standart 1: İşçilərin cəlb edilməsi və seçilməsi

Kifayət qədər müvafiq ixtisaslı müəllim və digər təhsil işçiləri seçim meyarlarına əsaslanan, müxtəlifliyi və bərabərliyi əks etdirən, iştiraklı və şəffaf proses vasitəsilə seçilir.

**Əsas fəaliyyətlər** (Rəhbər göstərişlərə uyğun oxunmalıdır)

- Aydın, müvafiq, ayrı-seçkilik olmayan vəzifə təsvirləri və göstərişlər işə cəlb edilmə prosesindən əvvəl tərtib edilir (bax. Rəhbər göstəriş N1).
- Nümayəndə seçən komitə şəffaf meyara və təcrübələrin dəyərləndirilməsinə əsaslanaraq, cəmiyyətin qəbulunu, genderi və müxtəlifliyi nəzərə alaraq müəllimləri və başqa təhsil işçilərini seçir (bax. Rəhbər göstərişlər 2-4).
- Səfərbər və dislokasiya edilən müəllimlərin və digər təhsil işçilərinin sayı kifayət qədərdir və qrupda tələbələrin həddindən çox olmasına ehtiyac yoxdur (bax. Rəhbər göstəriş N5).

### Rəhbər göstərişlər

**1. Vəzifələrin təsviri gender,** milli və dini mənsubiyyət, əlillik və ya başqa müxtəliflik cəhətlərinə görə ayrı-seçkilik edilmədən aparılmalıdır. Bunlara ən azı aşağıda qeyd olunanlar daxildir:

- rollar və öhdəliklər;
- aydın hesabatlar;
- davranış qaydaları.

(Həmçinin bax. Müəllimlər və digər təhsil işçilərinin standartı 2, Rəhbər göstəriş 1 səh. 98).

**2. Təcrübə və ixtisaslar:** İxtisaslı, tanınmış, attestatlı müəllimləri səfərbər etmək əhəmiyyətlidir. Tələbələrə psixoloji dəstəyi təmin etmək və əmək qabiliyyətini itirmiş tələbələri öyrətmək üçün onların bacarıqları olmalıdır. Əgər fövqəladə hallara görə ixtisaslı müəllimlərin attestatları və ya başqa sənədləri yoxdursa, onların tədris bacarıqları qiymətləndirilir. Əgər kifayət qədər ixtisaslı müəllimlər yoxdursa, tədris təcrübəsi az olan və ya tədris təcrübəsi heç olmayan şəxslər də nəzərə alınmalıdır. Təhsil səviyyələrinin dəyərləndirilməsinə və tədris təcrübələrinə əsasən bu müəllimlərə təlim vermək tələb olunacaq.

Tələbələrin ana dil(lər)ində danışan müəllimlər mümkün olan vaxt səfərbər oluna bilər. Zəruri və müvafiq olduqda intensiv kursların milli və ya qəbul edən ölkənin dil(lər)ində təmin edilməsi məsləhət görülür (həmçinin bax. Tədris və təlim standartı N1, Rəhbər göstəriş N7 səh. 81).

Bəzi vəziyyətlərdə müəllimlərin və digər təhsil işçilərinin cəlb edilməsində gender balansı istiqamətində fəal işləmək mühümdür. Bu halda seçki komitəsinin razılığı ilə cəlb edilmə meyarı dəyişdirilə bilər. Beynəlxalq əmək və insan hüquqları meyarlarına, qanunlarına və qaydalarına müvafiq olaraq, müəllimlər və digər təhsil işçilərinin minimum 18 yaşı olmalıdır. Bəzən daha gənc şəxsləri köməkçi, assistent və ya repetitor kimi xidmət göstərmək üçün səfərbər etmək zəruri olur.

3. **Müəllimlərin seçilmə meyarı** aşağıdakı bəndləri özündə birləşdirə bilər:
Peşəkar ixtisaslar və atributlar:
- inzibati təcrübə;
- tədris təcrübəsi, əmək qabiliyyətini itirmiş uşaqların tədrisi də daxil olmaqla;
- uşaqların və gənclərin psixoloji ehtiyaclarına həssaslıq;
- peşə və ya başqa texniki bacarıqlar və təcrübə;
- müvafiq dil qabiliyyəti (jest dili və Braille də daxil ola bilər).

Şəxsi ixtisaslar:
- yaş və gender, gender balansını yadda saxlamaq;
- dözümlülük;
- milli və dini təcrübə;
- cəmiyyətin müxtəlifliyini əks etdirən müxtəliflik. Cəlb edilmə prosesinə təsir göstərə bilən əsas sosial gərginliyi və mövcud bərabərsizlikləri nəzərə almaq əhəmiyyətlidir (həmçinin bax. Tədris və təlim standartı N1, Rəhbər göstəriş N8 səh. 81-82).

Başqa ixtisaslar:
Müəllimlər və digər təhsil işçiləri cəmiyyətlə qarşılıqlı əlaqədə olmalı və cəmiyyət tərəfindən qəbul olunmalıdır. Əgər mümkündürsə, onlar əsasən aid olduqları cəmiyyətdən seçilməlidir, çünki yerli əhalinin qarşılaşdığı sosial, iqtisadi və siyasi məsələlərlə tanışdırlar. Əgər müəllimlər və digər təhsil işçiləri kənardan dəvət olunurlarsa, nəqliyyat və evlə təminetmə kimi əlavə kompensasiyaları da nəzərə almaq mühümdür. Təlim sahəsi qaçqınlar və ya məcburi köçkünlər üçün təsis olunubsa, qəbul edən cəmiyyətdən münasib müəllimlərin və digər təhsil işçilərinin işə götürülməsi yaxşı münasibətlərə həvəsləndirə bilər (həmçinin bax. *FHTAŞ, Müəllimin kompensasiyası üzrə Rəhbər göstərişlər*, FHTAŞ-nin vəsaitlərindən əldə edilə bilər: **www.ineesite.org/toolkit.)**.

4. **Tövsiyə sənədləri:** tələbələri riskə salmamaq üçün mümkün olan yerlərdə bütün səfərbər edilən müəllimlərin və digər təhsil işçilərinin tövsiyə sənədləri yoxlanmalıdır.

5. **Sinfin ölçüsü:** sinif otağının yerli qaydaların müəyyən etdiyi ölçüsünə real hədd qoymaq əhəmiyyətlidir; sinif otağı əmək qabiliyyətini itirmiş tələbələr də daxil olmaqla, bütün uşaqların və gənclərin yerləşməsini mümkün etməlidir. Müvafiq müəllim-tələbə nisbətini təmin etmək üçün səfərbər edilmiş müəllimlərin sayı kifayət qədər olmalıdır. Müəllim-tələbə nisbətini və göstərişləri müəyyən etmək üçün maraqlı tərəflər müvafiq milli və yerli standartları nəzərə almalıdır. Bəzi hallarda humanitar və inkişaf təşkilatlarının müəllim-tələbə nisbətinə aid öz standartları olur. Bəzi hallarda nisbət 1:40 məsləhət görülür. Lakin maraqlı tərəflərə yerli qaydalara müvafiq və real olanı nəzərə almaq və qəbul etmək məsləhət görülür (Minimum standartlar və Tədrisi mühitə uyğun etmə nümunələri bax. Giriş sözü, səh. 14-15; Təlim standartları bax. səh. 74-90).

## Müəllimlər və digər təhsil işçilərinin standartı 2: İş şəraiti

Müəllimlər və digər təhsil işçilərinin iş şəraitləri aydın müəyyən edilir; onlar müvafiq əmək haqqı alırlar.

**Əsas fəaliyyətlər** (Rəhbər göstərişlərə uyğun oxunmalıdır)

- Kompensasiya sistemləri və iş şəraiti bütün müvafiq maraqlı tərəflər arasında eynidir (bax. Rəhbər göstərişlər 1-2).
- Kompensasiya və iş şəraiti müqavilələrdə təsvir edilir; kompensasiya müntəzəm olaraq təmin edilir (bax. Rəhbər göstəriş N2).
- Müəllimlərə və başqa təhsil işçilərinə şərtlərə aid danışıqlar aparmaq üçün təşkilatlanmağa icazə verilir.
- Aydın tətbiq göstərişlərini özündə birləşdirən davranış qaydaları mövcuddur və onlara riayət olunur (bax. Rəhbər göstəriş N3).

### Rəhbər göstərişlər

**1. İş şəraiti:** Vəzifələrin təsviri, iş şəraitlərinin təsvirləri və davranış qaydaları müqaviləyə daxil edilməlidir. Bu, təlim mühitində və cəmiyyətdə müəllimlərin rolunu peşəkar səviyyəyə qaldırmağa imkan yaradır. Bu, cəmiyyətlərdən, təhsil orqanlarından və başqa maraqlı tərəflərdən aldığı kompensasiyanın əvəzində müəllimlərdən gözlənilən xidmətləri müəyyən edir və müəllimin müvafiq davranışına aid strukturu təmin edir.

Müqavilə aşağıdakıları dəqiq müəyyən edir:

- vəzifə və öhdəliklər;
- kompensasiya;
- işə gəlmə tələbləri;
- iş saatları və günləri;
- müqavilənin müddəti;
- davranış qaydaları;
- dəstək, nəzarət və mübahisəni həlletmə mexanizmləri.

(Həmçinin bax. Müəllimlər və digər təhsil işçilərinin standartı N1, Rəhbər göstəriş N1 səh. 95).

2. **Kompensasiya:** Müvafiq kompensasiya müəllimlərə və başqa təhsil işçilərinə öz peşəkar işində fikirlərini cəmləşdirmək və əsas ehtiyaclarını qarşılamaq məqsədi ilə əlavə gəlir mənbələri axtarmamaq üçün kifayət olmalıdır. Lazım olanda, mümkün qədər qısa bir müddətdə müəllimlər və digər təhsil işçiləri üçün müvafiq ödəniş sistemi təşkil edilməlidir və ya inkişaf etdirilməlidir. Kompensasiyanın təmin edilməsində təhsil orqanlarının əsas məsuliyyət daşıdığını ödəniş sistemi qəbul etməlidir. Təhsil orqanları, ittifaqlar, cəmiyyət üzvləri, komitələr və assosiasiyalar, BMT agentlikləri və QHT-lar daxil olmaqla, müvafiq maraqlı tərəflərin bərabərliyi sabit kompensasiya siyasəti və təcrübəsinin təməlini qoyur və yenidənqurmadan inkişafa keçməyə kömək edir.

Kompensasiya pul və qeyri-pul şəklində ola bilər. Sistem ədalətli və sabit olmalıdır. Tətbiq ediləndən sonra kompensasiya siyasətləri president təyin edirlər və müəllimlər və digər təhsil işçiləri bunun təmin edilməsini gözləyirlər. Köçkünlərin olduğu hallarda ixtisaslı müəllimlər və digər təhsil işçiləri hətta sərhədləri keçmək lazım olsa belə, daha yüksək əmək haqqı olan yerlərə köçmək istəyəcəklər. Bazar qüvvələrini nəzərə almaq əhəmiyyətlidir, məsələn:

- yaşamaq üçün zəruri olan minimum vəsaiti;
- müəllimlərə və başqa peşəkarlara tələbatı;
- oxşar ixtisaslarda, məsələn: səhiyyə sahəsində olan əmək haqqı səviyyəsini;
- ixtisaslı müəllimlərin və digər təhsil işçilərinin olmasını.

(Həmçinin bax. KMTH Şəbəkə *Böhrandan sonra iqtisadi yenidənqurma üçün tələb edilən Minimum standartlar*, İş yerinin yaradılması standartı).

Kompensasiya iş şəraiti və davranış qaydalarına əməl etməkdən asılıdır. Maraqların toqquşmasından yan keçmək gərəkdir; buraya müəllimlər tələbələrdən tədris və repetitorluğa görə qeyri-rəsmi ödəniş aldıqları vəziyyətlər daxildir (həmçinin bax. Koordinasiya standartı 1, Rəhbər göstəriş N2 səh. 32 və *FHTAŞ Müəllimin kompensasiyası üzrə Rəhbər göstərişlər* , FHTAŞ-nin vəsaitlərindən əldə edilə bilər: **www.ineesite.org/toolkit**.).

3. **Davranış qaydaları** müəllimlər və digər təhsil işçiləri üçün aydın davranış standartlarını müəyyən edir. Bu standartlar tədris mühitində, təhsil hadisələri və fəaliyyətləri zamanı tətbiq olunur. Davranış qaydaları tabe olmayan şəxslər üçün məcburi mandatları müəyyən edir. Bu, müəllimlərin və digər təhsil işçilərinin aşağıdakı öhdəliklərini özündə birləşdirir:

- hörmət etmək, müdafiə etmək və bacardıqları qədər tələbələrin təhsil hüquqlarını yerinə yetirmək;
- rəftarın və etik davranışın yüksək standartlarını qoruyub saxlamaq;
- bütün tələbələrin qəbul olunduğu və ayrı-seçkilik olmayan mühiti təmin etmək üçün təhsildəki maneələri tez aradan qaldırmaq;
- cinsi və başqa növ təzyiqdən, əmək və ya cinsi məqsədlə tələbələrin istismarından, hədələmə, təhqir, zorakılıq və ayrı-seçkilikdən azad olan, müdafiəli, sağlam və hərtərəfli mühiti qoruyub saxlamaq;
- insan hüquqlarına və ayrı-seçkiliyin salınmaması prinsiplərinə zidd olan bilik və ya fəaliyyətləri öyrətməmək və ya onlara həvəsləndirməmək;
- müntəzəm işə gəlmək və tam vaxtında işi yerinə yetirmə prinsipinə riayət etmək.

(Həmçinin nümunəvi davranış qaydalarına FHTAŞ-nin vəsaitlərində bax.: **www.ineesite.org/toolkit.**; Əlverişlilik və təlim mühiti standartı N2, Rəhbər göstərişlər 4 və 9 səh. 63-64 və 66; həmçinin Müəllimlər və digər təhsil işçilərinin standartı N3, Rəhbər göstəriş N4 səh. 102).

## Müəllimlərin və digər təhsil işçilərinə aid standart 3: Dəstək və nəzarət

Müəllimlərə və başqa təhsil işçilərinə aid dəstək və nəzarət mexanizmləri səmərəli işləyir.

**Əsas fəaliyyətlər** (Rəhbər göstərişlərə uyğun oxunmalıdır)

- Müvafiq tədris və təlim materialları, həmçinin istifadə edilə bilən sahə (bax. Rəhbər göstəriş N1).
- Müəllimlər və digər təhsil işçiləri onları təşviq edən və dəstəkləyən peşəkar inkişafda iştirak edirlər (bax. Rəhbər göstərişlər 2-3).
- Şəffaf, məsul nəzarət mexanizmi müəllimlər və digər təhsil işçilərinin müntəzəm dəyərləndirilməsini, monitorinqini və dəstəyi təmin edir (bax. Rəhbər göstərişlər 2-3).
- Müəllimlərin və digər təhsil işçilərinin fəaliyyətinin qiymətləndirilməsi müntəzəm olaraq keçirilir, sənədləşdirilir və müzakirə edilir (bax. Rəhbər göstəriş N4).
- Tələbələrin müntəzəm olaraq müəllimlərin və digər təhsil işçilərinin işinə aid rəy vermək imkanı var (bax. Rəhbər göstəriş N5).
- Müəllimlərə və başqa təhsil işçilərinə müvafiq, əlverişli və praktik psixoloji dəstək təklif edilməlidir (bax. Rəhbər göstəriş N6).

### Rəhbər göstərişlər

1. **Tədris, təlim materialları və yer** tam uyğun olmalıdır, müəllimlərə və başqa təhsil işçilərinə səmərəli öyrətməyə və işləməyə imkan verməlidir (həmçinin bax. Əlverişlilik və təlim mühiti standartı N3 səh. 68-72; Tədris və təlim standartı N1, Rəhbər göstəriş N9 səh. 82; və Tədris və təlim standartı N2, Rəhbər göstəriş N5, səh. 85).

2. **Dəstək və nəzarət mexanizmləri:** Səmərəli təşkil, nəzarət və məsuliyyət peşəkar dəstək təmin etməkdə, müəllimin marağını və tədris keyfiyyətini qoruyub saxlamaqda son dərəcə əhəmiyyətlidir. Müvafiq təhsil orqanlarının rəhbərliyi altında və təhsil ittifaqlarının, cəmiyyətin üzvlərinin, komitələrin və assosiasiyaların, BMT agentliklərinin və QHT-ların iştirakı ilə sistemlər mümkün qədər inkişaf etdirilməlidir. Tərbiyəçilərin və həmyaşıdların dəstəyi müəllimləri və başqa təhsil işçilərini həvəsləndirə bilər və onlara məqsədlər qoymaqda, öz işlərini daha da yaxşılaşdırmaq üçün atılacaq addımları müəyyən etməkdə kömək edə bilər (həmçinin bax. İcmanın iştirakı standartı 1, Rəhbər göstərişlər 1-5 səh. 22-26; Tədris və təlim standartı 2, Rəhbər göstəriş N3 səh. 84-85; və Müəllimlərin statusuna aid YUNESKO/BƏT tövsiyəsi (1966)).

3. **Bacarığın inkişafı, təlim və peşəkar inkişaf:** Bacarığı təşviq etmə işində səbəb, mükafatlar, ehtiyaclar və prioritetlər barədə müəllimlər və digər təhsil işçiləri ilə məsləhətləşmək əhəmiyyətlidir. Bu, peşəkar inkişafa aid xidmətdən əvvəl və xidmət zamanı yaranan ehtiyacları və imkanları müəyyən etməyə kömək edir. Bacarığın inkişafı, təlim və peşəkar inkişaf ayrı-seçkilik olmadan təmin edilməlidir (həmçinin bax. Tədris və təlim standartı N2, Rəhbər göstəriş N3 səh. 84-85).

4. **Fəaliyyət nəticəsinin qiymətləndirilməsi:** Fəaliyyət nəticəsinin yaxşı səviyyədə təşkil edilmiş qiymətləndirilməsi yaxşı işi dəstəkləyir. Müəllimlərin və digər təhsil işçilərinin effektivliyinin və səmərəliliyinin dəyərləndirilməsi hər şəxs ilə müzakirəni özündə birləşdirir; bu, məsələləri müəyyən etməyə və aşağıdakı fəaliyyətlərə aid razılıq əldə etməyə kömək edir.

   Fəaliyyətin qiymətləndirilmə prosesi aşağıdakı bəndləri özündə birləşdirə bilər:
   - sinif otağındakı müşahidələri və qiymətləndirmələri dəstəkləmək məqsədi ilə meyar yaratmaq;
   - rəy təmin etmək;
   - böyümə və tərəqqini ölçmək üçün məqsədlər və hədəflər qoymaq.

   (Həmçinin aşağıda bax. Rəhbər göstəriş N5 və Müəllimlər və digər təhsil işçilərinin standartı N2, Rəhbər göstəriş N3 səh. 99-100).

5. **Tələbələrin iştirakı:** Tələbələri dəyərləndirmə və qiymətləndirmə proseslərinə daxil etmək əhəmiyyətlidir. Bu, təlim mühitinin bütün aspektlərini anlamağa və keyfiyyəti təmin etməyə kömək edir. Qiymətləndirmə proseslərinin bir hissəsi olaraq, tələbələr neytral tərəflərə vaxtaşırı rəy verə bilərlər. Mövzular öyrətmə, davranış, tədris mühiti və müdafiə məsələlərinə aid fikirləri özündə birləşdirə bilər.

6. **Psixoloji dəstək və rifah:** Eyni təhsil almış, eyni təcrübəli müəllimlər və digər təhsil işçiləri böhran hadisələri nəticəsində sarsıntı keçirə bilərlər. Onlar yeni çətinliklər və öhdəliklərlə qarşılaşdıqda əldən düşə bilərlər. Onların işin öhdəsindən gəlmə və tələbələri təmin etmə qabiliyyəti öz rifahlarından və əldə edilə bilən dəstəkdən asılıdır (həmçinin bax. Əlverişlilik və təlim mühiti standartı 2, Rəhbər göstərişlər 8-9 səh. 65-66; Əlverişlilik və təlim mühiti standartı 3, Rəhbər göstəriş N8 səh. 72; və Tədris və təlim standartı N1, Rəhbər göstəriş N6 səh. 80-81).

**T** **Bunları tətbiq edərkən köməyi FHTAŞ-nin vəsaitlərindən əldə edə bilərsiniz: www.ineesite.org/toolkit**

FHTAŞ-nin vəsaitləri
- ↳ FHTAŞ-nin Minimum standartları
  - ↳ Tətbiqetmə vəsaitləri
    - ↳ Müəllimlər və digər təhsil işçiləri

# 5 TƏHSİL SİYASƏTİ


Əsas standartlar:
Cəmiyyətin iştirakı, uyğunlaşdırması, təhlili
Təhsil qaydaları
Standart 1
Qanun və siyasətin Formalaşması
Təhsil orqanları keyfiyyətli təhsilin davamlılığını və yenidənqurulmasını üstün tuturlar; buraya azad və hərtərəfli əlverişli məktəb də daxildir.
Standart 2
Planlama və tətbiq
Təhsil fəaliyyətləri beynəlxalq və milli təhsil siyasətlərini, qaynunları və planları, həmçinin aiddiyəti olan əhalinin ehtiyaclarını nəzərə alır.

Beynəlxalq hüquq vasitələri və deklarasiyalar bütün fərdlərin təhsil alma hüququnu bəyan edir. Bu hüquqa hörmətlə yanaşmaq, onu müdafiə etmək və yerinə yetirmək milli hökumət orqanlarının və beynəlxalq cəmiyyətin vəzifəsidir. Fikrini azad ifadə etmək, ayrı-seçkilik salınmaması, sosial və təhsil siyasətlərinə aid qərar qəbulu prosesində səs hüququna malik olmaq hüquqları təhsil hüququnun ayrılmaz hissələridir.

Fövqəladə halların erkən mərhələsindən yenidənqurma mərhələsinədək bu hüquqların müdafiə olunması zəruridir. Bunu dəstəkləmək üçün təhsil orqanları və digər əsas maraqlı tərəflər fövqəladə hallarda təhsil planını inkişaf etdirməli və tətbiq etməlidirlər. Bu plan:

- milli və beynəlxalq təhsil standartlarını və siyasətlərini nəzərə almalıdır;
- təhsil hüququ qarşısında öhdəliyi nümayiş etdirməlidir;
- böhranda olan adamların təlim ehtiyaclarına və hüquqlarına həssaslığı nümayiş etdirməlidir;
- hər bir kəsə keyfiyyətli təhsil imkanını təmin etmək üçün görülən tədbirləri özündə birləşdirməlidir;
- fövqəladə hallarda hazırlıq, fövqəladə hallarda yardım və uzunmüddətli inkişafın arasında olan əlaqələri aydın göstərməlidir.

Fövqəladə hallarda hazırlığın və yardımın müvəffəqiyyəti üçün müdaxilələrin, proqramların və siyasətlərin planlaşdırılmasına və tətbiqinə cəmiyyətin cəlb edilməsi son dərəcə əhəmiyyətlidir.

Gender bərabərliyinin və müxtəlifliyə hörmətin həvəsləndirilməsini təmin etmək üçün fövqəladə hallarda təhsil siyasətləri və proqramları Uşaq Hüquqları üzrə Qurultayın təminatlarını tam birləşdirməlidir və “Təhsil hamı üçün” və “Milenium inkişaf məqsədləri”-nin fikirlərini əks etdirməlidir. Bu aktlar təhsildə ayrı-seçkiliyin bütün formalarına qarşı müdafiə edən təhsil siyasətlərini və qanunlarını dəstəkləyir və möhkəmlədir. Buraya  cinsi, milli və dini mənsubiyyət, dil və əmək qabiliyyətini itirmə əsasında ayrı-seçkilik aiddir.

## Təhsil siyasəti standartı 1: Qanun və siyasətin formalaşması

Təhsil orqanları keyfiyyətli təhsilin davamlılığını və yenidənqurulmasını üstün tuturlar; buraya azad və hərtərəfli əlverişli məktəb də daxildir.

**Əsas fəaliyyətlər** (Rəhbər göstərişlərə uyğun oxunmalıdır)

- Milli təhsil qanunları, qaydaları və siyasətləri təhsil binalarına, tələbələrə, müəllimlərə və başqa təhsil işçilərinə aid beynəlxalq humanitar və insan hüquqları qanununa uyğun olaraq, müdafiə olunan statusu dəstəkləyirlər (bax. Rəhbər göstəriş N1).
- Milli təhsil qanunları, qaydalar və taktikalar təhsil hüququna hörmət edir, onu müdafiə edir, onu yerinə yetirir və təhsilin davamlılığını təmin edir (bax. Rəhbər göstərişlər 1-2).
- Qanunlar, qaydalar və taktikalar hər yenidən tikilmiş və ya əvəz edilmiş təhsil binasının təhlükəsiz olmasını təmin edir (bax. Rəhbər göstərişlər 2-3).
- Qanunlar, qaydalar və taktikalar iştiraklı və hərtərəfli proseslər vasitəsilə inkişaf etdirilən kontekstin araşdırılmasına əsaslanır (bax. Rəhbər göstəriş N4).
- Milli təhsil siyasətləri fövqəladə hallarda cəld yardıma imkan yaradan hərəkət planları, qanunlar və büdcələr tərəfindən dəstəklənir (bax. Rəhbər göstərişlər 5-6).
- Qanunlar, qaydalar və taktikalar qaçqın məktəblərinə mənşə ölkə və ya ərazinin kurrikulum və dilindən istifadə etmək imkanını yaradır (bax. Rəhbər göstəriş N7).
- Qanunlar, qaydalar və taktikalar QHT və BMT agentlikləri kimi qeyri-hökumət nümayəndələrinə fövqəladə hallar proqramlarında təhsil təsis etmək imkanı yaradır (bax. Rəhbər göstəriş N8).

### Rəhbər göstərişlər

1. **Milli hökumətin vəzifəsi təhsil hüququna hörmət etmək, onu müdafiə etmək və onu icra etməkdir.** Bu, beynəlxalq insan hüquqları aktlarına müvafiqdir, (bax. Giriş sözü səh. 2).

   Bu insan hüquqlarına aid aktlar əhaliyə qayğı, uşaqlara və gənclərə xüsusi əhəmiyyət verən beynəlxalq qaydaları özündə birləşdirir. Nəzərə alınan sahələr – qidalanma, istirahət, mədəniyyət, təhqirin qarşısının alınması və altı yaşdan kiçik uşaqların təhsilidir. Uşaq Hüquqları üzrə Qurultay xüsusilə əhəmiyyətlidir, çünki burada uşaqların həm təhsil hüququ, həm də təhsil prosesində hüquqları nəzərə alınır, məsələn: onlara təsir göstərən qərarlara aid məsləhətləşmək hüququ, hörmətlə davranılma hüququ və öz hüquqlarını bilmək hüququ (həmçinin bax. İcmanın iştirakı standartı 1, Rəhbər göstəriş N5 səh. 25-26; Əlverişlilik və təlim mühiti standartı 1, Rəhbər göstərişlər 1-2

səh. 55-57; və Tədris və təlim standartı, Rəhbər göstərişlər 5-6 səh. 79-81).

Təhsil binaları kimi, tələbələr, müəllimlər və təhsil sahəsinin işçiləri də mülki statusa malikdirlər. Bunlar hər ölkənin tanıdığı beynəlxalq humanitar qanunun bir hissəsini təşkil edən Cenevrə Konvensiyalarına uyğun olaraq, silahlı hücumlardan müdafiə olunurlar. Milli hökumət orqanları və beynəlxalq maraqlı tərəflər bu müdafiəli statusu milli qanun və təcrübəyə daxil etmək istiqamətində göstərilən səyləri dəstəkləməli və təhsil binalarının hərbi məqsədlə istifadəsinin qarşısını almalıdırlar.

Təhsilin davamlılığına və uşaqların müdafiəsinə zorakılıq təhlükə yaradanda təhsili, insan hüquqlarını və təhsilə aid humanitar qanunu möhkəmlədən himayə birinci dərəcəli əhəmiyyət daşıyır. Tələbələrə, təhsil işçilərinə və binalara hücumlar və ya təhsil binalarının işğalına aid monitorinq keçirmək və hesabat vermək zəruridir. Bu, qurbanların ləyaqətinə hörmət göstərir və uzlaşdırılmış yardıma, araşdırmaya və mühakiməyə gətirib çıxarır (həmçinin bax. Əlverişlilik və təlim mühiti standartı 2, Rəhbər göstərişlər 1, 3-4 və 6-7 səh. 61-65).

**2. Milli təhsil qanunları və siyasətləri təhsilin davamlılığını təmin etməlidir.** Bu, hamıya aiddir. Milli və yerli məktəblərə dair fövqəladə planlar məlum, gözlənilən və təkrar təhlükələri əhatə etməlidir. Bu, kiçikmiqyaslı fəlakətləri özündə birləşdirir, məsələn: təhsilə ümumi mənfi təsir göstərən adi daşqın. Həssas uşaqların və gənclərin xüsusi ehtiyacları nəzərə alınmalıdır. fövqəladə hallar və ya fəlakət zamanı təhsilə aid yardım qanunları olmayan ölkələrdə fövqəladə hallar bunu yaratmaq imkanını təmin edir (həmçinin bax. Araşdırma standartı 1, Rəhbər göstəriş N3 səh. 37-38; Əlverişlilik və təlim mühiti standartı 2, Rəhbər göstəriş N11 səh. 66-67; və Tədris və təlim standartı 2, Rəhbər göstəriş N6 səh. 86).

Məktəbəqədər uşaqlar, onların valideynləri və ya qəyyumları üçün nəzərdə tutulmuş erkən uşaq inkişafı xidmətləri təhsil siyasətləri və proqramlarına daxil edilməlidir. Xidmətlər özündə aşağıdakı bəndləri birləşdirə bilər:

- göstərilən erkən qayğı və valideyn qrupları;
- oyun qrupları;
- kiçikyaşlı uşaqları təhlükəsiz yerdə olan fəaliyyətlərə qoşma;
- sağlamlıq, qidalanma və başqa xidmətlərlə birləşmələr.

Milli gənclər siyasəti olan ölkələrdə fövqəladə hallar gəncləryönümlü təhsildə sektorlararası işi möhkəmlətmək imkanını təmin edir. Gənclərə aid milli siyasəti olmayan ölkələrdə isə müvafiq maraqlı tərəflər böhran şəraitində olan gənclərin problemlərini həll etməlidir. Sektorlararası siyasəti və proqramı planlaşdırma işində əməkdaşlıq olmalıdır və bunlar gənclərin məsələləri nəzərə alınaraq həyata keçirilməlidir. Əgər milli gənclər siyasəti inkişaf etdirilirsə, bu, gənclər yarımqrupları arasında hər cür maraqların və təsirlərin araşdırılmasına və gənclərin müxtəlif iştirak imkanına və risk formalarına

əsaslanmalıdır. Milli gənclər siyasəti aşağıdakı bəndlər üzrə milli strukturları tamamlayır:

– təhsil;
– texniki-peşə təhsili və təlimi;
– fövqəladə hallarda hazırlıq.

(Həmçinin bax. Əlverişlilik və təlim mühiti standartı 1, Rəhbər göstəriş N2, səh. 57, KMTH Şəbəkə Böhrandan sonra iqtisadi yenidənqurma üçün tələb edilən Minimum standartlar, İş yerinin yaradılması standartı).

3. **Yeni və təmir edilmiş məktəblərin təhlükəsizliyi:** Məktəb əraziləri məlum təhlükə və risklərdən təhlükəsiz edilməlidir, möhkəm layihələşdirilməli və tikilməlidir. Yer kifayət qədər planlaşdırılmalıdır ki, məktəblərin fövqəladə, müvəqqəti sığınacaqlar kimi istifadə olunması lazım gəldiyi təqdirdə təhsilə maneə yaranmasın (həmçinin bax. Əlverişlilik və təlim mühiti standartı N1, Rəhbər göstəriş N9 səh. 59-60; Əlverişlilik və təlim mühiti standartı 3, Rəhbər göstərişlər 1-2 səh. 68-70; və *FHTAŞ-nin təhlükəsiz məktəbin inşaatına aid Rəhbər göstərişlər* FHTAŞ-nin vəsaitlərindən əldə edilə bilər: **www.ineesite.org/toolkit.**).

4. **Kontekstin araşdırılması:** Təhsil qanunları və siyasətləri fövqəladə hallar kontekstində sosial, iqtisadi, mühafizə, ətraf mühitə aid və siyasi dinamikaların tam anlayışını əks etdirməlidir. Belə olanda təhsil planlaşdırılması və proqram tərtibatı tələbələrin, geniş cəmiyyətin hüquqlarını və ehtiyaclarını qarşılayır, sosial bölünmələr və ya münaqişə kimi gərginləşmə baş vermir.

Kontekstin təhlili münaqişənin qiymətləndirilməsini, insan hüquqlarının dəyərləndirmələrini, risk və fəlakətə hazırlığın təhlilini özündə birləşdirə bilər. Təhsil orqanları və təhsilə aid başqa maraqlı tərəflər kontekstin araşdırılmasına imkan yaratmalıdır və təhsil məsələlərinin təhlilini təmin etməlidir. Kontekstin araşdırılması cəmiyyətlə hərtərəfli məsləhəti özündə birləşdirir. Təhsil orqanları və təhsil sahəsində maraqlı digər tərəflər belə təhlillərin keçirilməsinin və müntəzəm təhsil sektoru yoxlanmalarının və islahat proseslərinin bir hissəsi kimi proqrama daxil edilməsinin tərəfdarı olmalıdırlar (həmçinin bax. Araşdırma standartı 1, Rəhbər göstərişlər 3-6 səh. 37-39).

Risk araşdırması siyasi, inzibati və humanitar mühitdə korrupsiya risklərini əhatə edir. Fövqəladə hallarda təhsil üzrə yardımın planlaşdırılması və tətbiqi zamanı korrupsiyanın müzakirəsi mümkün qədər açıq olmalıdır. Sağlam antikorrupsiya siyasətlərinin inkişaf etdirilməsində açıq müzakirə ən yaxşı metoddur. Korrupsiya məsələlərinin müzakirəsi korrupsiya ilə barışmaq və ya icraçı qüvvələrin zəifliyini nəzərdə tutmaq demək deyil (həmçinin bax. Araşdırma standartı 1, Rəhbər göstəriş N3, səh. 37).

5. **Məlumatın bölüşdürülməsi və məlumat sistemləri:** Təhsil siyasətinin inkişafında və tətbiqində iştirak edənlər taktikalar və strateji yardımlar barədə məlumatla bölüşməlidirlər. Münaqişənin və fəlakətin zəifədilməsində bu, xüsusilə əhəmiyyətlidir. Məlumat hamı tərəfindən asanlıqla anlaşılmalı və əlverişli olmalıdır (həmçinin bax. Koordinasiya standartı 1, Rəhbər göstəriş N3 səh. 32-33).

   Qanunlar, qaydalar və taktikalar etibarlı məlumata əsasən inkişaf etdirilməlidir. Təhsilin təşkilinə aid informasiya sisteminin məlumatı xüsusi növ fövqəladə hallara meylli ərazilər və əhali qrupları barədə məlumatla əlaqələndirilməlidir. Bu, milli və yerli təhsil planlaşdırılmalarına təsir göstərən hazırlıq strategiyasıdır. Mümkün olan yerdə cəmiyyət tərəfindən toplanmış təhsil məlumatı milli təhsil təşkilatlarının məlumat sistemlərinə daxil edilməlidir (həmçinin bax. Araşdırma standartı 3, Rəhbər göstəriş N3 səh. 46-47).

6. **Fəlakətə hazırlıq strukturları:** Təhsil fəlakətə hazırlıqla bağlı milli strukturların ayrılmaz hissəsi olmalıdır. Təhsil üzrə yardımın səmərəli və vaxtında təmin edilməsinə şərait yaradan resurslar təmin edilməlidir. Milli və ya yerli təhsil proqramlarını dəstəkləyən beynəlxalq xarakterli maraqlı tərəflər inkişaf proqramlarının tərkib hissəsi olaraq fövqəladə hallarda təhsil üzrə yardıma hazırlığı təmin etməlidirlər. Hazırlıq strukturları cəmiyyət səviyyəsində icra edilən yardım səylərində uşaqların və gənclərin iştirakı üçün dəqiq təminatlar təşkil etməlidir (həmçinin bax. İcmanın iştirakı standartı 1, Rəhbər göstərişlər 4-5 səh. 24-26; İcmanın iştirakı standartı 2, Rəhbər göstəriş N5 səh. 30; Əlverişlilik və təlim mühiti standartı 2, Rəhbər göstəriş N11 səh. 66-67; və Tədris və təlim standartı N2, Rəhbər göstəriş 6 səh. 86).

7. **Ayrı-seçkiliyin salınmaması:** Bütün qruplara ədalətli tərzdə təhsilin əlverişli olmasını təhsil orqanları təmin etməlidir. Beynəlxalq qanuna görə, qaçqınlar ibtidai səviyyədə milli vətəndaşlarla eyni təhsil hüquqlarına malik olmalıdır.

   Daha yüksək səviyyələrdə isə təhsil, attestatların qəbul edilməsi, diplomlar və dərəcələr, təhsil haqqında endirimlər, ödənişlər və təqaüdlər qəbul edən ölkənin vətəndaşlarına əlverişli olduğu qaydada qaçqınlara da əlverişli olmalıdır. Məcburi köçkün tələbələr digər köçkün olmayan vətəndaşlarla eyni təhsil hüquqlarına malikdir. Bunlar milli və beynəlxalq insan hüquqları qanunu və Məcburi Köçürtmə üzrə Əsas Prinsiplərlə müdafiə olunur (həmçinin bax. Əlverişlilik və təlim mühiti standartı 1, Rəhbər göstərişlər 1-2 və 4 səh. 55-58; Tədris və təlim standartı N1, Rəhbər göstərişlər 3 və 7-8 səh. 78-79 və 81-82; və Tədris və təlim standartı N2, Rəhbər göstəriş N5 səh. 85).

8. **Qeyri-hökumət təşkilatlarının və BMT-nin nümayəndələri:** bütün tələbələrin təhsil ehtiyaclarının və hüquqlarının qarşılanması məqsədi ilə qeyri-hökumət təşkilatlarının və BMT-nin nümayəndələrinə milli təhsili təmin etmək imkanı verilməlidir. Qəbul edən ölkə onlara proqramlar və binalar təşkil etmək, fövqəladə hallarda cəld və zəmanətlə yardım etmək imkanını əlverişli etməlidir. Buraya tezləşdirilmiş viza prosedurları, həmçinin təlim və yardım materialları üçün xüsusi gömrük qaydaları aiddir.

## Təhsil siyasəti standartı 2: Planlama və tətbiq

Təhsil fəaliyyətləri beynəlxalq və milli təhsil siyasətlərini, qanunları, standartları, planları və aidiyyəti olan əhalinin təlim ehtiyaclarını nəzərə alır.

**Əsas fəaliyyətlər** (Rəhbər göstərişlərə uyğun oxunmalıdır)

- Formal və qeyri-formal təhsil proqramları beynəlxalq və milli hüquq strukturlarını və siyasətlərini əks etdirməlidir (bax. Rəhbər göstəriş N1).
- Təhsil fəaliyyətlərinin planlama və tətbiqi başqa fövqəladə hallarda yardım sektorları ilə birləşdirilir (bax. Rəhbər göstəriş N2).
- Fövqəladə hallarda təhsil proqramları milli təhsil planları və strategiyaları ilə əlaqəlidir və təhsil sektorunun uzunmüddətli inkişafına daxil edilir.
- Təhsil orqanları milli və yerli təhsil planlarını inkişaf etdirir və tətbiq edir; bunlar gələcəkdə olan və hazırkı fövqəladə hallara hazırlığı və yardımı təmin edir (bax. Rəhbər göstəriş N3).
- Maddi, texniki, maliyyə və insan resursları təhsil siyasətinin səmərəli və şəffaf inkişafı, həmçinin təhsil proqramlarının planlaşdırılması və tətbiqi üçün kifayətdir (bax. Rəhbər göstərişlər 4-5).

### Rəhbər göstərişlər

1. **Təhsil hüquqlarını və məqsədlərini qarşılamaq:** Formal və qeyri-formal təhsil proqramları təhsil hüquqlarını və məqsədlərini yerinə yetirən hərtərəfli təhsil fəaliyyətlərini təmin etməlidir. Bunlar milli və beynəlxalq hüquq strukturlarına uyğun olmalıdır (bax. Əlverişlilik və təlim mühiti standartı 1, Rəhbər göstərişlər 1-2 və 4 səh. 55-58 və Təhsil siyasəti standartı 1, Rəhbər göstərişlər 1 və 7 səh. 107-108 və 110-111).

2. **Sektorlararası əlaqələr:** uşaqların erkən inkişafı və gənclərin fəaliyyətləri də daxil olmaqla, təhsil üzrə yardım başqa sektorlarda həyata keçirilən fəaliyyətlərlə (məsələn, su təchizatı, sanitariya və gigiyenanın möhkəmləndirilməsi, qidalanma, qida təhlükəsizliyi və ərzaq yardımı, sığınacaq, səhiyyə xidmətləri və iqtisadi yenidənqurma) əlaqəli olmalıdır (həmçinin bax. Araşdırma standartı N1, Rəhbər göstəriş N6 səh. 39; Əlverişlilik və təlim mühiti standartı N1, Rəhbər göstəriş N9 səh. 59-60; Əlverişlilik və təlim mühiti standartı N3 səh. 68-72; Sahə üzrə vəsait; və KMTH Şəbəkə *Böhrandan sonra iqtisadi yenidənqurma üçün tələb edilən Minimum standartlar*, İş yerinin yaradılması standartı və Müəssisə inkişafı standartları).

3. **Milli və yerli təhsil planları** hazırkı və ya gələcəkdə olan fövqəladə hallarda icra edilən fəaliyyətləri əks etdirməlidir. Bunlar sektorlararası koordinasiya üzrə qərar qəbuletmə, koordinasiya, mühafizə və müdafiə mexanizmlərini müəyyən etməlidir. Planlar kontekstin tam anlayışına əsaslanmalıdır, fəlakət

və münaqişə üzrə erkən xəbərdarlıq göstəricilərini və mexanizmləri özündə birləşdirməlidir. Bunlar müvafiq təhsil siyasəti və strukturları tərəfindən dəstəklənməlidir. Milli və yerli təhsil planlarına müntəzəm olaraq yenidən baxılmasını təmin edən sistem olmalıdır (həmçinin bax. İcmanın iştirakı standartı 1, Rəhbər göstəriş N4 səh. 24-25; İcmanın iştirakı standartı 2 səh. 28-30; Koordinasiya standartı 1, Rəhbər göstəriş N1 səh. 31-32; Araşdırma standartı N1, Rəhbər göstəriş N3 səh. 37-38; və Təhsil siyasəti standartı 1, Rəhbər göstəriş N4 səh. 109-110).

4. **Resurslar:** fövqəladə hallarda təhsil təminatının müvafiq maliyyələşdirilməsini təmin etmək üçün milli hökumət orqanlar, humanitar agentliklər, donorlar, QHT-ları, cəmiyyətlər və başqa maraqlı tərəflər birlikdə işləməlidir. Resursların koordinasiyası ölkə tərəfindən istiqamətləndirilməli və mövcud koordinasiya mexanizmləri ilə birgə olmalıdır. Kontekstə görə mümkün olan yerdə resursların bölüşdürülməsi aşağıdakı qeyd olunanlar arasında tarazlıq təşkil etməlidir:
   – fiziki elementlər, məsələn: əlavə sinif otaqları, dərsliklər, həmçinin tədris və təlim materialları;
   – keyfiyyətə aid hissələr, məsələn: müəllim və nəzarət təlimi üzrə kurslar, tədris və təlim materialları.

   Resurslar təhsilə hücumlar üzrə sistemləşdirilmiş və mərkəzləşdirilmiş hesabatlara, həmçinin təhsil məlumatının toplanmasına, araşdırılmasına və təhsil məlumatı ilə bölüşməyə uyğun təyin edilməlidir (həmçinin bax. İcmanın iştirakı standartı 2, Rəhbər göstəriş N1 səh. 28; Koordinasiya standartı 1, Rəhbər göstərişlər 1-2 səh. 31-32; Araşdırma standartı 1 səh. 35-40; Araşdırma standartı N2, Rəhbər göstəriş N2 səh. 42; Araşdırma standartı 3, Rəhbər göstəriş 3 səh. 46-47; Araşdırma standartı 4, Rəhbər göstərişlər 3-4 səh. 49; və Əlverişlilik və təlim mühiti standartı 2, Rəhbər göstərişlər 4 və 7 səh. 63-65).

5. **Şəffaflıq və məsuliyyət:** pul və qeyri-pul formalarda olan korrupsiyanın qarşısını alma təcrübələri də daxil olmaqla, planlaşdırma və tətbiq siyasətinə aid müvafiq məlumat mərkəzi və yerli hökumət orqanları, cəmiyyətlər və başqa humanitar iş üzrə maraqlı tərəflər arasında bölüşdürülməlidir. Şəffaflıq səmərəli monitorinq və məsuliyyət üçün əhəmiyyətlidir. Korrupsiyaya aid şikayətləri həll etmək üçün məxfi və mədəniyyətə müvafiq sistemlər olmalıdır. Bu, adamları korrupsiya barədə məlumat verməyə həvəsləndirmək və onları müdafiə etmək siyasətlərini özündə birləşdirir (həmçinin bax. Koordinasiya standartı 1 Rəhbər göstəriş N5 səh. 33; Araşdırma standartı 1, Rəhbər göstəriş N3 səh. 37-38; və Təhsil siyasəti standartı 1, Rəhbər göstəriş N4 səh. 109-110).

**T Bu standartların tətbiqinə aid köməyi INEE vəsaitlərindən əldə edə bilərsiniz: www.ineesite.org/toolkit**

FHTAŞ-nin vəsaitləri
↳ FHTAŞ-nin Minimum standartları
↳ Tətbiqetmə vəsaitləri
↳ Təhsil siyasəti

# ƏLAVƏ 1: LÜĞƏT

**Əlverişlilik:** formal və ya qeyri-formal təhsil proqramına üzv olmaq, onda iştirak etmək və onu bitirmək imkanı. Əlverişlilik məhdudiyyətli olmayanda, yəni təcrübi, maddi, fiziki, mühafizəyə, quruluşa aid, təşkilati və ya sosial-mədəni maneələr olmayanda tələbələrə təhsil proqramında iştirak etməkdə və onu bitirməkdə maneə olmur.

**Məsuliyyət:** aidiyyəti olan tərəflərin ehtiyaclarını, maraqlarını, bacarıqlarını və şəraitlərini nəzərə alan fəaliyyət və qərarlarının məna və səbəblərinin izahı. Məsuliyyət təşkil proseslərinin şəffaflığına aiddir; buraya maddi resursların istifadəsi də daxildir. Bu, eşidilmək hüququ və yardım etmək vəzifəsidir. Təhsildə məsuliyyət göstərdikləri xidmətin keyfiyyətinə görə təhsili təmin edənləri məsul etməkdir; buraya tələbələrin biliyi, bacarıqları və münasibətləri, müəllimin davranışı, məktəbin və ya sistemin işi aiddir.

**Dəyərləndirmə:** 1) təhsil fəaliyyətlərini planlaşdırmazdan əvvəl keçirilən tədqiqat; yardım və əldə edilə bilən resurslar sahəsində ehtiyacları və çatışmazlıqları müəyyən etmək üçün fövqəladə hallarda müdaxilə; 2) tələbələrin inkişafı və nailiyyətlərinə aid test. “Təlim nəticələrinin dəyərləndirilməsi” təhsil proqramı əsasında müəyyən edilmiş dəyərləndirmə formasıdır. Bir çox dəyərləndirmə vasitələri FHTAŞ-nin vəsaitlər bölməsindən əldə edilə bilər: **www.ineesite.org/toolkit.**. Xüsusi kontekst və ya mühitdə lazım olan məlumatı təqdim etmək üçün dəyərləndirmə vasitələrindən istifadə etmək zəruridir.

**Bacarıq:** razılaşdırılmış məqsədlərə nail olmaq üçün istifadə edilə bilən və fərdlərə, yaxud icmaya, cəmiyyətə, təşkilata məxsus olan güclü cəhətlərin, atributların və resursların kombinasiyası.

**Bacarığın inkişafı:** adamlara və təşkilatlara onların məqsədlərinə nail olmaqda kömək etmək üçün biliyin, qabiliyyətin, bacarıqların və davranışın möhkəmləndirilməsi.

**Uşaqlar üçün əlverişli mühit və məktəblər:** təhlükəsiz mühit və məktəblər – burada cəmiyyətlər uşaqlar üçün azad və təşkil edilmiş oyun, istirahət, asudə vaxt və təlim fəaliyyətləri üçün tədris mühiti yaradırlar. Uşaqlar üçün əlverişli mühit normallıq hissi və davamiyyəti bərpa edən sağlamlıq, qidalanma və psixoloji dəstəkləri və başqa fəaliyyətləri özündə birləşdirir. Bunlar tərəflərin iştirakı ilə layihələşdirilir və istifadə edilir. Bunlar müəyyən və ya müxtəlif yaş qrupuna aid uşaqlara xidmət edə bilər. Uşaqlara əlverişli olan mühit və məktəblər fövqəladə halların erkən mərhələsindən yenidənqurma mərhələsinədək əhəmiyyətlidir.

**Uşaqların müdafiəsi:** Təhqirin, istismarın, etinasızlığın və zorakılığın (hədələmə də daxil olmaqla); cinsi istismarın; həmyaşıdları, müəllimləri və ya başqa təhsil işçiləri tərəfindən gələn zorakılığın, təbii təhlükələrin; əl və döyüş sursatının; torpaq minaları və partlamamış artilleriya silahının; silahlanmış işçilərin; çarpaz atəş sahələrinin; siyasi və hərbi təhlükələrin; silahlı qüvvələrə və ya silahlı qruplara cəlb edilmələrinin bütün formalarından azadlıq.

**Uşaqlar:** 0 - 18 yaşlı bütün adamlar. Bu kateqoriyaya yeniyetmələrin əksəriyyəti daxil edilir (10–19 yaş). Bu, gənclər kateqoriyası ilə (15–24 yaş) üst-üstə düşür (həmçinin aşağıda «gənclər» tərifinə bax.).

**Silahlı qüvvələr və silahlı qruplarla birgə olan uşaqlar:** uşaqlar silahlı qüvvələrə güclə aparıla, yaxud güclə səfərbər edilə bilərlər və ya silahlı qüvvələrə «könüllü» qoşula bilərlər. Onlar çox hallarda döyüşə dərhal getmirlər. Ola bilsin ki, onlardan yük daşıyan, casus, aşpaz kimi istifadə olunur; onlar şəhid və ya cinsi zorakılıq qurbanları da ola bilər. Bu uşaqlar təhsil imkanından məhrumdurlar. Təkrar səfərbərlik və yenidən inteqrasiya prosesləri zamanı onların xüsusi təhsil ehtiyaclarına diqqət yetirilməlidir (buraya formal və qeyri-formal təhsil, intensiv təlim, həyat bacarıqları və peşə təlimi daxildir). Qızlara xüsusi diqqət yetirilməlidir, çünki çox vaxt onlar üzə çıxmırlar və yenidənqurma proqramlarından kənarda qalırlar.

**Koqnitiv:** əqli proseslərdir, məsələn: düşüncə, təsəvvür, anlama, yaddaş,qərar qəbuletmə, fikirləşmə və problem həlletmə.

**Cəmiyyətin təhsil komitəsi:** cəmiyyətin təhsil ehtiyaclarını müəyyənləşdirən və onlarla əlaqəli müraciətlər edən mövcud olan və ya yeni komitədir. Onun üzvləri valideyn nümayəndələri və qəyyumlar, müəllimlər, tələbələr, cəmiyyət təşkilatçıları və liderləri, ayrı-ayrı qrupların, vətəndaş assosiasiyalarının, gənclər qruplarının və səhiyyə sahəsinin işçiləridir.

**Konfliktin qarşısının alınması:** fəaliyyətlər və proseslərdir; bunlar aşağıdakı qeyd olunanları özünə daxil edir: 1) münaqişəyə həssasdır və zorakılıq mənbələrini və ya gərginliyini artırmır; 2) məqsədləri – münaqişə səbəblərinə aid müraciətlər etmək və iştirakçıların hərəkətetmə və anlama tərzini dəyişməkdir. Humanitar, yenidənqurma və inkişaf fəaliyyətləri onların münaqişə kontekstində məqsədləri hesab olunur; bu mühitdə onlar hərəkət edirlər, uzunmüddətli sülh və sabitliyin qurulması istiqamətində xidmət edirlər. Münaqişənin qarşısının alınması yanaşmaları münaqişə zamanı və münaqişədən sonrakı vəziyyətlərdə münaqişənin qarşısının alınmasında və müdaxilələrdə istifadə edilə bilər.

**Əmək qabiliyyətini itirmək:** fiziki, əqli, zehni və ya mənəvi zədələr və fərdlərin cəmiyyətdə başqaları ilə bərabər əsasda tam və səmərəli iştirak etməsinə münasibətdə və mühitdə göstərilən maneələr.

**Təfərrüatlara ayrılmış məlumat:** öz tərkib hissələrinə ayrılmış statistik məlumatlar. Məsələn, əhalinin dəyərləndirmə məlumatı və ya cins, yaş qrupu və coğrafi əraziyə görə təhlil edilə bilən nümunə.

**Fəlakət:** icmanın və ya cəmiyyətin fəaliyyətinin ciddi pozulması; buraya böyük ölçüdə insan, material, iqtisadi və ya ətraf mühit itkiləri və təsirləri daxildir ki, nəticədə icma və ya cəmiyyət öz resurslarından istifadə edərək onun öhdəsindən gələ bilmir.

**Fəlakət zamanı riskin azaldılması:** fəlakət faktorlarının səbəblərini təhlil etmək və öhdəsindən gəlmək üçün icra edilən sistematik səylər vasitəsilə risklərin azaldılması anlayışı və təcrübəsi; buraya təhlükələrə açıqlığın (məruz qalmanın) azaldılması, adamların və mülkiyyətin həssaslığının azaldılması vasitəsilə, torpağın və ətraf mühitin müdrik idarə edilməsi, arzuedilməz hadisələrə hazırlığın gücləndirilməsi daxildir.

**Ayrı-seçkilik:** gender, din, cinsi oriyentasiya, yaş, etnik mənsubiyyət, İİV statusu və ya başqa faktorlar əsasında adamlara fərqli yanaşma; nəticədə bu, onları binalara daxil olmaq, xidmətlərdən faydalanmaq, imkanlardan, hüquqlardan istifadə etmək və ya iştirakdan məhrum edir.

**Distres:** kədərli, həyəcanlı olmaq və qeyri-sabit vəziyyət. Bu, çətin həyat şəraitlərinə cavab olaraq yarana bilər (məsələn, sıxlığı çox olan yerlər, kasıblıq, mühafizəyə və ya rifaha təhdid).

**«Ziyan vurma!»:** münaqişə və ya münaqişə riski olan şəraitlərdə humanitar və inkişaf müdaxilələrinin nəticəsində qərəzsiz olaraq göstərilən mənfi və ya müsbət təsirləri müəyyən etməyə kömək edən yanaşmadır. Bu, müdaxilənin münaqişəni pisləşdirməməsi və yaxşılaşdırmasını təmin etmək üçün planlama, monitorinq və qiymətləndirmə zamanı tətbiq oluna bilər. «Ziyan vurma!» münaqişə vəziyyətlərində fəaliyyət göstərən təşkilatlar üçün zəruri əsas hesab olunur.

**Uşaqların erkən inkişafı:** prosesləri vasitəsilə 0–8 yaşlı kiçikyaşlı uşaqlar öz optimal fiziki sağlamlığını, əqli sayıqlığını, emosional cəsarətini, sosial təcrübəsini və öyrənməyə hazırlığını inkişaf etdirirlər. Bu proseslər sosial və maliyyə taktikaları, həmçinin sağlamlıq, qidalanma, su, sanitariya, gigiyena, təhsil və uşaqların müdafiə xidmətlərini özündə birləşdirən hərtərəfli proqramla dəstəklənir. Bu yüksək keyfiyyətli proqramlardan bütün uşaqlar və ailələr faydalanır, lakin çox halda zərər çəkmiş qruplar faydalanır.

**Təhsil orqanları:** təhsil hüququnun təminatı üçün məsul olan hökumətlər və onlarla birgə hərəkət edən nazirliklər, departamentlər, təşkilatlar və agentliklər. Onlar milli, rayon və yerli səviyyədə təhsil təminatına aid səlahiyyət icra edirlər. Hökumət səlahiyyətlərinin nüfuzdan düşdüyü hallarda bəzən qeyri-hökumət icraçıları, məsələn: QHT-lar və BMT agentlikləri bu məsuliyyəti yerinə yetirə bilərlər.

**Təhsil Qrupu:** məcburi köçkünlük vəziyyətlərində təhsil sektorunda humanitar yardım üzrə səlahiyyəti və mandatı olan agentliklərin və təşkilatların müəssisələrarası koordinasiya mexanizmi. MDK (xüsusi qeydə bax.) vasitəsilə 2007-ci ildə təsis olunub; qlobal səviyyədə Təhsil Qrupu UNICEF və «Uşaqları xilas edin» Alyansı tərəfindən idarə olunur. Ölkə səviyyəsində isə başqa agentliklər onu idarə edə bilər və milli təhsil nazirliyi onda fəal olaraq iştirak edir. Qaçqınlarla iş sahəsində BMTQAK əsas agentlikdir. Təhsil Qrupu fövqəladə hallarda humanitar yardım göstərmək üçün texniki cəhətdən hazırlığın möhkəmləndirilməsinə görə məsuliyyət daşıyır. Humanitar yardım zamanı Təhsil Qrupu etibarlı rəhbərliyi və təhsil sektorunda məsuliyyəti təmin etməlidir.

**Fövqəladə hallarda təhsil:** böhran vəziyyətlərində uşaqların erkən inkişafı, ibtidai, orta məktəb, qeyri-formal, texniki, peşə, ali və yetkin yaşlı tələbələrin təhsili də daxil olmaqla, bütün yaş qruplarına təklif edilən keyfiyyətli təlim imkanları. Fövqəladə hallarda təhsil həyatı təmin və xilas edən fiziki, psixoloji və koqnitiv müdafiə ilə təmin edir.

**Təhsil üzrə yardım:** fövqəladə halların erkən mərhələsindən yenidənqurma mərhələsinədək insanların təhsil ehtiyaclarını və hüquqlarını təmin edən təhsil xidmətləri.

**Fövqəladə hallar:** parçalanmış cəmiyyətin sabitliyə qayıtmasının zəruri olduğu vəziyyət.

**Formal təhsil:** məktəblər, kolleclər, universitetlər və başqa təhsil təşkilatları sistemində təmin edilən təlim imkanları. Adətən bu, uşaqlara və gənclərə (5-7 yaşdan 20-25 yaşadək) tam gün ərzində təhsili təqdim edir. Bu adətən milli təhsil nazirlikləri tərəfindən inkişaf etdirilir, lakin fövqəladə vəziyyətlərdə başqa təhsilə maraqlı tərəflərlə dəstəklənə bilər.

**Gender:** qadınların və kişilərin rolları, öhdəlikləri, identifikasiyaları və bunların cəmiyyətdə dəyərləndirilməsi. Bunlar fərqli mədəniyyətlərdə müxtəlifdir və zaman keçdikcə dəyişir. Gender identifikasiyaları cəmiyyətin qadın və kişilərdən gözlədiyi düşüncə və hərəkət tərzini müəyyən edir. Bu davranışlar ailədə və məktəblərdə, dini təlim və media vasitəsilə öyrədilir. Gender rolları, öhdəlikləri və identifikasiyaları cəmiyyətdə öyrənilməsinə görə dəyişə bilər.

**Gender balansı:** kişi və qadın, oğlanlar və qızların təxminən bərabər sayıdır. Həm kişi, həm də qadın maraqlarının hesab və müdafiə olunduğunu təmin etmək üçün bu, iştiraka və fəaliyyətlərlə qərar qəbuletmə məlumatına istinad edə bilər. Təhsil orqanları beynəlxalq və milli agentliklərin işə götürdüyü kişi və qadınların sayına da istinad edə bilər. Bu xüsusilə müəllimlərin işində əhəmiyyətlidir. Bütün səviyyələrdə kişi və qadınların balansı taktikaların və proqramların kişi və qadınlara, oğlan və qızlara müxtəlif təsirlərini müzakirə etmək və bu məsələləri qaldırmaq üçün daha çox imkanlar yaradır.

**Gender-əsaslı zorakılıq:** gender fərqinə əsaslanan hər bir ziyanlı hərəkət. Bir çox kontekstlərdə, cəmiyyətdə daha aşağı statusa malik olduğuna görə qadınlar genderəsaslı zorakılığın təsirindən daha çox əziyyət çəkir. Kişilər və oğlanlar da qurban, xüsusilə cinsi zorakılıq qurbanları ola bilər. Gender əsaslı zorakılığın təbiəti və dərəcəsi müxtəlif mədəniyyət, ölkə və rayonlarda fərqlidir. Nümunələr bunlardır:

- *cinsi zorakılıq* məsələn, cinsi istismar və təhqir, məcburi fahişəlik, məcburi və uşaq nikahları;
- *ev və ailə zorakılığı* fiziki, emosional və psixoloji təhqirləri özündə birləşdirir;
- *ziyanlı mədəni* və *ya ənənəvi təcrübələr* məsələn, qadının cinsiyyətini şikəst etmə, qeyrətə görə qətl və dul qadını miras alma (mirası adətən ölü ərin ailəsindən olan bir kişi alır).

**Təhlükə:** zədələmə potensiallı, həyat itkisinə və ya zədələnməyə, mülkiyyətin zədələnməsinə, sosial və iqtisadi pozuntuya, yaxud ətraf mühitin korlanmasına səbəb ola bilən fiziki hadisə, fenomen və ya insan fəaliyyəti. Təhlükələr təbii və ya insanın fəaliyyəti nəticəsində yarana bilər, yaxud bunların kombinasiyası ola bilər. Təhlükənin yaratdığı risk onun ehtimalından və harada, hansı tezliklə və güclə baş verməsindən asılıdır. Məsələn, 100 ildə bir dəfə səhrada baş verən kiçik zəlzələ adamlara çox böyük risk yaratmır. Şəhərdə hər 5 –10 ildən bir 3 metr hündürlüyündə 48 saat ərzində baş verən daşqın nisbətən yüksək təhlükə ehtimalına malikdir və qarşısının alınması tədbirlərini tələb edir.

**İİV-nun qarşısının alınması, müalicəsi, xəstələrə göstərilən qayğı və dəstək:** yeni İİV infeksiya daşıyıcılarının sayını azaltmaq üçün lazım olan bio-tibbi və davranışa, hüquqa, quruluşa aid müdaxilələrin kombinasiyası və İİV-nun və QİÇS-nun infeksiyalı və yoluxmuş adamlara təsiri. İİV-nun qarşısının alınması, müalicə, xəstələrə qayğı və dəstək biliyə əsaslanmalıdır. Bu bilik epidemiyanın nə olduğu, həmçinin ən çox infeksiya riskinə məruz qalanların kimlər olduğu və hansı davranışların yeni infeksiyalara gətirib çıxardığı barədə anlayışlara əsaslanmalıdır. Ən riskli davranışlar bunlardır: kişinin kişi ilə cinsi əlaqədə olması; narkotiki şpris vasitəsilə qəbul etmə; pul və ya başqa şeylərin əvəzinə cinsi yaxınlıq; rəqabətli əməkdaşlıq; bir-birinə uyğun olmayan yaşda olan adamların münasibətləri. Cəmiyyəti və iqtisadiyyatı istiqamətləndirənlər də İİV-nun qarşısının alınmasına, müalicəsinə, xəstələrə qayğı və dəstək göstərilməsinə təsir edə bilər.

**İnsan hüquqları:** ləyaqətli həyat yaşamaq üçün vasitədir. İnsan hüquqları universaldır və insandan alına bilməz: onlar nə verilə, nə də alına bilməz. Fövqəladə hallarda ayrı-seçkilik salınmaması, müdafiə və yaşamaq hüququ kimi əsas insan hüquqları təxirəsalınmaz prioritetə çevrilir, başqa hüquqların proqressiv reallaşdırılması isə mövcud resurslardan asılı ola bilər. Təhsil müdafiə, ayrı-seçkilik salınmaması və yaşamaq üçün vasitə olduğuna görə əsas insan hüququ hesab olunmalıdır. Beynəlxalq insan hüquqları üzrə qanunlar beynəlxalq hüquq sazişlərinin və dövlətlərin bütün vaxtlarda (fövqəladə hallar da daxil olmaqla) insan hüquqlarına hörmət etmək, müdafiə etmək və yerinə yetirmək öhdəliklərini idarə edən normativ standartların əsasıdır. Münaqişə zamanı həmçinin beynəlxalq humanitar və cinayət qanunu tətbiq olunur. Bu sazişlər və standartlar döyüş əməliyyatlarını nizamlayır, vətəndaşları müdafiə edir və dövlət adına çalışanlar üçün öhdəlikləri təyin edir. Qaçqınlara aid qanun təqib və ya silahlı münaqişə zamanı təhlükə qorxusuna görə beynəlxalq sərhədlər çərçivəsində məcburi köçmüş insanlar qarşısında hökumətin öhdəliklərini təyin edir.

**Hərtərəfli təhsil:** bütün fərdlərin təlim imkanlarında iştirak etmək və nailiyyətlər qazanmaq imkanını təmin edir. Bu, təhsil taktikalarının, təcrübələrin və binaların kontekstdə olan bütün fərdlərin müxtəlifliyinə yardım etmək təminatını özündə birləşdirir. Təhsildən ayırma ayrı-seçkilik, maneələri aradan qaldırmaqda kifayət qədər dəstəyin olmaması və ya istifadə olunan dillər, bütün tələbələrə fayda gətirməyən tədris məzmunu və ya tədris metodları ola bilər. Fiziki, emosional, əqli və zehni əmək qabiliyyətini itirmiş adamlar çox vaxt təhsildən ayrılmışların sıralarında olurlar. Fövqəladə hallar təhsildən ayırmalara da təsir göstərir. Vəziyyətə, sosial, mədəni, fiziki və ya infrastruktura aid faktorlara görə əvvəllər təhsil alan bəzi fərdlər də təhsildən ayrıla bilər. Hərtərəfli təhsil iştirakda və təlimdə olan belə maneələrin aradan qaldırılmasını, həmçinin əmək qabiliyyətini itirmiş tələbələr üçün tədris metodlarının və kurrikulumun əlverişli və müvafiq olmasını təmin edir. Bütün fərdlər dəvət olunur, onların irəliləyişi dəstəklənir və onların individual tələblərinə diqqət yetirilir.

**Məlumatın təşkili:** ehtiyacların, bacarıqların və əhatə olunan sahələrin dəyərləndirməsini, həmçinin birgə monitorinqi və qiymətləndirməni, məlumatın saxlanılmasını, məlumatın araşdırılmasını, məlumatla bölüşmə sistemlərini təşkil edir. Məlumatı təşkil edən vasitələr və sistemlər maraqlı tərəflərə faktların və məlumatın toplanması, emalı və bölüşməsi, kimə, nə vaxt, nə üçün, nə məqsədlə və necə verilməsi kimi məsələlər üzrə qərar qəbul etməkdə kömək göstərməlidir.

**Təlimat və təlim prosesləri:** tələbələr və müəllimlər arasındakı qarşılıqlı əlaqələr. Təlimat kurrikuluma, dəyərləndirmə vasitəsilə müəyyən edilmiş ehtiyaclara əsasən planlaşdırılır və müəllimlərin müvafiq təlimi vasitəsilə mümkün olur. Tələbəistiqamətli, iştiraklı və hərtərəfli təlimat və təlim prosesləri təhsili təmin etməkdə və dəstəkləməkdə daha böyük cəmiyyətin iştirak etməsinə imkan yaradır.

**Müəssisələrarası Daimi Komitə (MDK):** humanitar yardım çərçivəsində koordinasiya, siyasət inkişafı və qərar qəbuletmə məqsədi ilə təşkil edilmiş müəssisələrarası forum. Humanitar yardımın möhkəmləndirilməsinə aid BMT-nin Baş Assambleyasının Qətnaməsinə cavab olaraq MDK 1992-ci ilin iyun ayında təsis olunub. MDK həm əsas BMT və qeyri-BMT humanitar iştirakçıları özündə birləşdirir.

**Məcburi köçkün (MK):** beynəlxalq sərhədi keçmədən doğma ölkəsində təhlükəsiz yer tapmaq məqsədi ilə yaşadığı ərazini məcburi tərk edən şəxs. MK-lər çox vaxt qaçqınların səbəblərinə bənzəyən səbəblərə görə köçürlər, məsələn: silahlanmış münaqişə, fəlakətlər, ümumi zorakılıq və ya insan hüquqlarının pozulması halları olduğu vəziyyətdə. Lakin hətta hökumət onların köçməsinin səbəbi olsa belə, hüquqi cəhətdən onlar öz hökuməti tərəfindən müdafiə olunurlar. Vətəndaş kimi onlar öz hüquqlarını saxlayırlar; buraya həm insan hüquqları qanunun, həm də beynəlxalq humanitar qanunun müdafiəsi daxildir.

**Tələbələr:** Uşaqlar, gənclər və yetkin yaşlı şəxslər də daxil olmaqla, təhsil proq-ramlarında iştirak edən adamlar. Bu, rəsmi məktəblərin, texniki və peşə təhsil müəssisələrinin şagirdlərini, təlim və qeyri-formal təhsil proqramlarının iştirakçılarını, məsələn: savad və hesablama (sinfi) əsasları üzrə kurslarda, cəmiyyətdəki həyat bacarığı üzrə kurslarda və həmyaşıdları arasında təlim alan tələbələri də özündə birləşdirir.

**Təlim nəticələri:** kurs və ya təhsil proqramında iştirak nəticəsində tələbələrin əldə etdiyi bilik, münasibətlər, bacarıqlar və qabiliyyət. Təlim nəticələri adətən belə təsvir edilir: təlimat və təlim prosesləri nəticəsində "tələbələr nəyi bilməlidir və nəyi edə bilməlidir".

**Təlim sahələri:** tədris yerinin yerləşdiyi sahə.

**Tədris yeri:** tədrisin və təlimin baş verdiyi yerlər. Məsələn, şəxsi evlər, uşaq-qayğı mərkəzləri, ibtidai məktəb, müvəqqəti strukturlar və məktəblər.

**Həyat bacarıqları:** fərdləri gündəlik həyatın çətinliklərini və tələblərini qəbul etməyə və səmərəli həll etməyə qadir edən müsbət davranışa aid bacarıqlar və qabiliyyət. Bunlar adamlara fərdlər və cəmiyyətdə iştirak edən üzvlər kimi düşünmək, hiss etmək, hərəkət etməkdə kömək edir. Həyat bacarığı üç kateqoriyaya aiddir: koqnitiv; şəxsi, yaxud emosional; fərdlərarası, yaxud sosial. Həyat bacarığı ümumi ola bilər: məsələn, məlumatın təhlili və istifadəsi, başqaları ilə səmərəli və qarşılıqlı əlaqə sax-lamaq. Bunlar xüsusi məzmunlu sahələrə aid ola bilər, məsələn: riskin azaldılması, ətraf mühitin müdafiəsi, sağlamlığın möhkəmləndirilməsi, İİV-nun qarşısının alınma-sı, zorakılığın qarşısının alınması və ya sülh təşviqi. Həyat bacarıqlarına ehtiyac çox vaxt böhran vəziyyətlərində artır; fövqəladə hallarda və yerli kontekstlərə müvafiq və tətbiq edilə bilən həyat bacarıqlarının təşviqinə tələbat artır.

**Yaşamaq üçün vasitə:** həyat üçün tələb olunan qabiliyyət, müsbət keyfiyyətlər, imkanlar və fəaliyyətlər. Müsbət keyfiyyətlər maddi, təbii, fiziki, sosial və insan resurslarını özündə birləşdirir. Məsələn, dükanlar, torpaq və bazarlar və ya nəqliyyat sistemlərinə əlverişlilik. Yaşamaq üçün vasitə o vaxt sabit olur ki, stres və şoklarla bacarır və bunlardan sonra bərpa olunur, öz qabiliyyətini və müsbət keyfiyyətlərini saxlayır və ya möhkəmləndirir, aşağıdakı nəsli sabit yaşamaq üçün vasitə imkanları ilə təmin edir.

**Qeyri-formal təhsil:** formal təhsilin tərifinə uyğun olmayan təhsil fəaliyyətləri (yuxarıdakı xüsusi qeydə bax). Qeyri-formal təhsil – təhsil təşkilatlarında və təhsil təşkilatlarından kənarda baş verir və bütün yaşda olan adamlara xidmət edir. Bu həmişə attestatın verilməsinə gətirib çıxarmır. Qeyri-formal təhsil proqramları müxtəlif olur, asanlıqla uyğunlaşan və uşaqların, yaxud yetkin yaşlı şəxslərin yeni təhsil ehtiyaclarına tez cavab vermə qabiliyyəti ilə səciyyələnir. Bunlar çox vaxt tələbələrin xüsusi qrupları, məsələn: öz sinfi üçün həddindən yaşlı olanlar, for-

mal məktəbə getməyənlər, ya yetkin yaşlı şəxslər üçün layihələşdirilir. Kurrikulum formal təhsilə və ya yeni yanaşmalara əsaslana bilər. Məsələn, müəyyən səviyyəyə «çatdıran» intensiv təlim, məktəbdənkənar proqramlar, savad və hesablama (sinfi). Qeyri-formal təhsil formal təhsil proqramlarına gec daxil olmağa gətirib çıxara bilər. Bu bəzən « təhsilin ikinci-şans» adlanır.

**İştirak:** proseslərdə, qərar və fəaliyyətlərdə iştirak etmək və onlara təsir etmək. İştirak hamının hüququdur, cəmiyyətlər və inkişaf proqramları ilə işləmək üçün əsasdır.  Bacarıqların inkişafına uyğun olaraq iştirak müxtəlif olur. Bütün qruplar daxil olmaqla, yetkin yaşlı şəxslər, uşaqlar, gənclər, əmək qabiliyyətini itirmiş şəxslər və həssas adamlardan ibarət olan qrupların üzvləri ən az yaşdan başlayaraq müxtəlif yolla iştirak edə bilərlər. Adamların heç bir qrupu əlçatmaz olduqlarına və ya ağır iş şəraitlərinə görə imkanlardan məhrum olmamalıdır. İştirak könüllüdür. Adamlar iştirak etməyə dəvət olunur və həvəsləndirilir, məcbur və ya manipulyasiya olunmurlar. İştirak bir sıra fəaliyyətləri və yanaşmaları özündə birləşdirə bilər.

**Qeyri-fəal rollar bunları özündə birləşdirir:** xidmətlərdən istifadə etmə, maddi resurslarla yardım etmək, başqalarının verdiyi qərarları qəbul etmək və minimal məsləhət almaq. Fəal rollar özündə bunları birləşdirir: vaxt sərf etmək, qərar qəbul etmə, planlaşdırma və tətbiq kimi təhsil fəaliyyətlərində bilavasitə iştirak etmək.

**İştirak edərək təlim:** tələbə yönümlü olan tədris və təlim yanaşması. Bu, təcrübə, kiçik qrupların istifadəsi, konkret materiallar, açıq sorğu-sual və həmyaşıdların öyrədilməsi kimi təlim metodlarına həvəsləndirir. Məsələn, tələbələr riyazi anlayışları anlamaq, yaxud problemləri həll etmək və suallar vermək və onları cavablandırmaq məqsədi ilə birlikdə işləmək üçün təcrübi fəaliyyətlərdən istifadə edirlər. İştirak edərək öz təlim yerlərində qeyri-fəal əyləşən, bağlı suallara cavab verən və lövhədən köçürən tələbələrlə səciyyələndirilən müəllim-mərkəzli metodlardan fərqlidir. İştirak edərək təlim həmçinin müəllimlər və təhsil orqanlarının öz ehtiyaclarını təhlil etməkdə, çıxış yollarını müəyyən etməkdə və hərəkət planını inkişaf etdirməkdə və tətbiq etməkdə onları dəstəkləmək məqsədi ilə istifadə edilə bilər. Belə kontekstlərdə bu, cəmiyyətin iştirakını, koordinasiyasını və araşdırmasını özündə birləşdirə bilər.

**Hazırlıq:** qaçılmaz və ya hal-hazırda olan təhlükəli hadisələrin və ya şəraitlərin təsirini səmərəli gözləmək, yardım etmək və bərpa olunmaq üçün hökumətlər, peşəkar yardım və yenidənqurma təşkilatları, cəmiyyətlər və fərdlərin inkişaf etdirdiyi bilik və bacarıqlar.

**Qarşısının alınması:** təhlükələrin və fəlakətlərin arzuedilməz təsirlərindən yan keçmək üçün tətbiq edilən fəaliyyətlər (bu terminlərə aid ayrı qeydlərə bax).

**Müdafiə:** təhqir, istismar, zorakılıq və etinasızlığın bütün formalarından azadlıq.

**Psixoloji dəstək:** adamların ictimai həyatında qlobal rifahı möhkəmləndirmək məqsədi ilə icra edilən proseslər və fəaliyyətlər. Bu, ailə və dostların dəstəyini özündə birləşdirir. Ailə və cəmiyyət dəstəyinin nümunələri ayrı düşmüş uşaqları yenidən birləşdirmək və fövqəladə hallarda təhsili təşkil etmək səylərini özündə birləşdirir.

**Keyfiyyətli təhsil:** keyfiyyətli təhsil mümkün, əlverişli, genderi nəzərə alan və müxtəlifliyə uyğun təhsildir. Bu aşağıdakı hissələri özündə birləşdirir: 1) tələbələr üçün mülayim olan, təhlükəsiz və hərtərəfli mühit; 2) mövzunu və pedaqogikanı

bilən, səlahiyyətli və yaxşı hazırlığı olan müəllimlər; 3) müvafiq və xüsusi kontekstli, tələbələr üçün anlaşıqlı və mədəniyyətə, dilə və cəmiyyətə müvafiq olan kurrikulum; 4) tədris və təlim üçün nəzərdə tutulmuş tam uyğun və müvafiq materiallar; 5) təlimatın iştiraklı metodları və tələbənin ləyaqətinə hörmət edən təlim prosesləri; 6) müvafiq sinif ölçüsü və müəllim-tələbə uyğunluğu; 7) savad, hesablama (sinfi) və həyat bacarıqları kimi sahələrdən əlavə istirahət, oyun, idman və yaradıcılıq kimi fəaliyyətlərin əhəmiyyətinin vurğulanması.

**Yenidənqurma:** müvafiq cəmiyyətlərin binalarının, yaşamaq üçün vasitələrinin, yaşayış şəraitlərinin və ya psixoloji rifahının bərpası və yaxşılaşdırılması; buraya fəlakət riski faktorlarının azaldılma səyləri də daxildir.

**Qaçqın:** 1951-ci ildə keçirilmiş Qaçqın Qurultayının qərarına müvafiq olaraq, qaçqın – «irqi, dini, milli, xüsusi sosial qrupun üzvlüyü və ya siyasi fikir səbəbi ilə əsaslandırılmış təqib qorxusuna görə milli ölkəsindən kənarlaşdırılır və həmin ölkənin müdafiəsindən faydalana bilmir və ya bu qorxuya görə istəmir».

**Müvafiq təhsil:** tələbələrə uyğun təlim imkanları. Müvafiq təhsil yerli adətləri və təşkilatları, müsbət mədəni təcrübələri, inanc sistemlərini və cəmiyyətin ehtiyaclarını nəzərə alır. Bu, cəmiyyətdəki uşaqları milli və beynəlxalq kontekstdə müsbət gələcəyə hazırlayır. Müvafiq təhsil nəyin öyrənildiyi, necə öyrənildiyi və öyrənmənin nə dərəcədə səmərəli olduğu barədə məsələlərə aid olan keyfiyyətli təhsilin elementidir.

**Dözümlülük:** təhlükələrə məruz qalma potensialı olan sistemin, cəmiyyətin və ya individualın uyğunlaşma bacarığıdır. Uyğunlaşma fəaliyyət və strukturun məqbul səviyyəsinə çatmaq və bu səviyyəni saxlamaq üçün müqavimət göstərmək və ya dəyişmək deməkdir. Dözümlülük problemlərin öhdəsindən gələn mexanizmlərdən və həyat bacarıqlarından asılıdır: məsələn, problem həlletmə, dəstək axtarma qabiliyyəti, səbəb, optimizm, inam, dəyanət və fərasət. Dözümlülük rifahı dəstəkləyən müdafiə faktorları ziyanlı risk faktorlarından daha güclü olanda yaranır.

**Risk:** zahiri təhlükələrin nəticəsi, məsələn: təbii təhlükələr, İİV-nun geniş yayılması, genderəsaslı zorakılıq, silahlı basqın və adam oğurluğu; buraya həmçinin fərdlərin həssaslığı da daxildir, məsələn: kasıblıq, fiziki və ya əqli əmək qabiliyyətini itirmə, yaxud həssas adamlardan ibarət qrupa üzv olma.

**Riski dəyərləndirmə:** təhlükələrin potensialını təhlil etməklə və təhlükə potensialını yarada bilən və ya adamlara, mülkiyyətə, yaşamaq üçün vasitələrə və asılı olduqları mühitə ziyan vura bilən mövcud həssaslıq şəraitlərini qiymətləndirməklə riskin təbiətini və dərəcəsini müəyyən etmək üçün istifadə edilən metod.

**Təhlükəsizlik:** fiziki və ya psixoloji ziyandan azadlıq.

**Mühafizə:** təhlükə, hədə, zədə və ya itkidən müdafiə.

Maraqlı tərəf: layihə və ya proqramda maraqları olan şəxs, qrup və ya təşkilat.

**Həssaslıq:** fərdlərin və ya qrupların onları hücum, ziyan və ya fəlakətin təsiri altına salan səciyyəvi xüsusiyyətləri və şəraitləri. Həssas adamlardan ibarət olan qrupların nümunələri bunlardır: tənha uşaqlar, əmək qabiliyyətini itirmiş insanlar, tək qalmış ailə üzvü və keçmişdə silahlı qüvvələr və silahlı qruplarla birgə olan uşaqlar.

**Rifah:** qlobal sağlamlıq şəraiti və bu şəraiti əldə etmə prosesi. Rifah fiziki, emosional, sosial və koqnitiv sağlamlığa aiddir. Rifah insana xeyirli olan şeyləri özündə birləşdirir: əhəmiyyətli sosial rolda çıxış etmək; xoşbəxtlik və ümid hiss etmək; cəmiyyətdə müəyyən edilmiş müsbət dəyərlərə müvafiq həyat yaşamaq; müsbət sosial münasibətlərə və dəstəkli mühitə malik olmaq; müsbət həyat bacarıqlarından istifadə edərək çətinliklərin öhdəsindən gəlmək; təhlükəsizlik, müdafiə və keyfiyyətli xidmətlərlə faydalanma imkanına malik olmaq (həmçinin «koqnitiv» başlıqlı qeydə bax.).

**Gənclər və yeniyetmələr:** gənclər 15 və 24 yaş arasında, yeniyetmələr isə 10 və 19 yaş arasında olan adamlardır. Birlikdə bunlar 10-24 yaşlı gənclərin ən böyük kateqoriyasını təşkil edir. Uşaqlıq dövrünün sonu və yeniyetmə dövrünün başlanğıcı müxtəlif vaxtda olur. Müxtəlif ölkə və ya mədəniyyətlərdə, cəmiyyətin fərdə müəyyən öhdəlikləri tapşırması üçün fərd müxtəlif yaşda kifayət qədər yetkin hesab olunur. Fövqəladə hallarda yeniyetmələrin ehtiyacları kiçik uşaqların və yetkin yaşlı şəxslərin ehtiyaclarından fərqli olur. Gənclik müstəqil məsuliyyətə tərəf inkişaf dövrünə aiddir. Sosial-mədəni, təşkilati, iqtisadi və siyasi faktorlardan asılı olaraq, təriflər müxtəlif kontekstlərdə fərqlidir.

Əsas terminlərin daha geniş siyahısını FHTAŞ-nin vəsaitlərdə tapa bilərsiniz: **www.ineesite.org/toolkit.**.

# ƏLAVƏ 2: AKRONİMLƏR

| | |
|---|---|
| QİÇS | Qarşısıalınmaz İmmun Çatışmazlığı Sindromu |
| İİV | İnsan İmmun Çatışmazlığı Virusu |
| MDK | Müəssisələrarası Daimi Komitə |
| MK | Məcburi Köçkün |
| BƏT | Beynəlxalq Əmək Təşkilatı |
| FHTAŞ | Fövqəladə Hallarda Təhsil üzrə Agentliklərarası Şəbəkə |
| XİN | Xarici İşlər Nazirliyi |
| QHT | Qeyri-hökumət Təşkilatı |
| NİA | Norveç İnkişaf Agentliyi |
| KMTH | Kiçik Müəssisələr üçün Təhsil və Həvəsləndirmə |
| BMT | Birləşmiş Millətlər Təşkilatı |
| YUNESKO | BMT-nin Təhsil, Elm və Mədəniyyət məsələləri üzrə Təşkilatı |
| BMTQAK | BMT-nin Qaçqınlarla iş üzrə Ali Komissarlığı |
| UNICEF | BMT-nin Uşaq Fondu |

# ƏLAVƏ 3: Siyahı


əlverişlilik 8, 29, 53, 115 *həmçinin bax.* bərabər əlverişlilik
əlverişlilik yolları 64
məsuliyyət 33, 114, 115
fəal təlim 87
yeniyetmələr 126
yetkin tələbələr 43, 44, 57
araşdırma 19, 21, 35–49
    dəyərləndirmə 19, 35–40, 116
    qiymətləndirmə 19, 48–9
    monitorinq 19, 45–7
    yardım strategiyaları 19, 41–4
dəyərləndirmə 19, 35–40, 115
    əməkdaşlıq 39
    kontekst araşdırması 37–8
    koordinasiya 33, 36
    məlumat toplama vasitələri 36
    məlumatın etibarlılığı və araşdırılması 38
    təfərrüatlara ayrılmış məlumat 35–6, 40, 116
    təhsil və psixoloji ehtiyaclar 40
    etik məsələlər 36
    nəticələr 40
    məlumat mənbələri 36
    əsas fəaliyyətlər 35
    tələbələrin 47
    təlim nəticələrinin 75, 76, 78, 89–90
    iştirakçılar 39
    və yardım strategiyaları 41–2
    komandalar 36
    ilkin dəyərləndirmələrin vaxt bölgüsü 35
hücumlar, müdafiə 64–5, 108

əsas məlumatlar 44

bacarıq 9–10, 30, 33, 38, 115
bacarığın inkişafı 27, 42, 47, 49, 102, 115
uşaqlar üçün əlverişli mühit və məktəblər 57–8, 115
uşaqların müdafiəsi 115
uşaqlar 25–6, 29, 87, 115
sinfin ölçüsü 97
sinfin idarə edilməsi 66
davranış məcəllələri 63, 65, 66, 99–100
koqnitiv (dərketmə) proseslər 116
cəmiyyətin təhsil komitələri 23–4, 116
cəmiyyətin iştirakı 19, 20, 22–7, 121
    bacarığın inkişafı 27

uşaqlar və gənclər 25–6
cəmiyyətin təhsil komitələri 23–4, 116
bərabər əlverişlilik 59
əhatə etmə 22–3
əsas fəaliyyətlər 22
təhsil üzrə yerli fəaliyyət planları 24–5
planlama və tətbiq 106
müdafiə 63, 66
rollar və öhdəliklər 24
təhlükəsizlik barədə həvəsləndirmə 63
sosial auditlər 26
cəmiyyət resursları 19, 28–30
əlverişlilik və təhlükəsizlik 29
uzunmüddətli gücləndirmə 29
əsas fəaliyyətlər 28
yerli imkanlar 30
töhfənin qəbul edilməsi 29–30
münaqişənin araşdırılması 37
münaqişənin qarşısının alınması 116
kontekst araşdırması 9–10, 11, 21, 37–8, 78, 109–10
müqavilələr 98
koordinasiya 19, 20–1, 31–4
məsuliyyət 33
məlumat və biliyin təşkili 32–3
müəssisələrarası koordinasiya komitələri 31–2
birgə  dəyərləndirmələr 33, 36
əsas fəaliyyətlər 31
resursların səfərbərliyi 32
nəticələrə əsaslanan yanaşma 34
əsas təcrübələr 79
korrupsiya 109–10
kurrikulum 75, 76, 77–82
kontekst, yaş və inkişaf səviyyələri 78, 79
əsas təcrübələr 79
təriflər 77–8
müxtəliflik 81–2
əsas fəaliyyətlər 77
təlimatın dili 81
təlim materialları 82
həyat bacarıqları 79–80
psixoloji ehtiyaclar 80–1
yoxlama və inkişaf 78–9
müəllimin təlimi üçün 83–4

təhlükələr 62, 63–4
məlumat
əsas məlumat 44

toplama 36, 42
Təfərrüatlara ayrılmış məlumat 35–6, 40, 116
keyfiyyət bildirən məlumat 49
kəmiyyət bildirən məlumatı 48–9
etibarlılıq və araşdırma 38, 42
əmək qabiliyyətini itirmiş insanlar 70, 71, 81, 116
fəlakətlər 116
hazırlıq 110, 121
riskin azaldılması və idarə edilməsi 44, 66–7, 116
ayrı-seçkilik 54, 55–7, 68–9, 95, 110–11, 117
distres 76, 80, 117
‘Ziyan vurma!’ 42, 117

uşaqların erkən inkişafı 62, 79, 108, 117
təhsil orqanları 117
Təhsil Qrupu 4, 11, 16, 31, 117
fövqəladə hallarda təhsil 2–3, 117
və humanitar yardım 3–4, 44
təhsil hüququ 5–6, 7, 56, 106, 107–8
təhsil siyasəti 8, 105–14
qanun və siyasətin formalaşması 105, 107–11
planlama və tətbiq 105, 106, 112–14
təhsil üzrə yardım 48–9, 117
fövqəladə hallar 117
bərabər əlverişlilik 43, 53, 55–60
qəbul, davamiyyət və saxlama 57
uşaqlar üçün əlverişli mühit 57–8, 115
cəmiyyətin cəlb edilməsi 59
ayrı-seçkilik 54, 55–7, 68–9
asanlıqla uyğunlaşma 58
təxirəsalınmaz təhsil prioritetləri 58
əsas fəaliyyətlər 55
imkanlar 57–8, 122
keyfiyyətli təhsil 122
resurslar 59, 72, 80
müvəqqəti sığınacaqlar 59–60
etik nəzərlər 36, 90
qiymətləndirmə 19, 48–9

binalar 53, 54, 68–71
tədris yerinin layihələndirilməsi və təmir-bərpası 70
gigiyena barədə həvəsləndirmə 71
əsas fəaliyyətlər 68
yerləşmə 64, 68–9, 109
əmək qabiliyyətini itirmiş insanlar 70, 71
təhlükəsiz su 71
sanitariya 701

struktur, layihə və inşaat 69–70, 109
müvəqqəti sığınacaqlar 59–60, 109
*həmçinin bax*. xidmətlər
formal təhsil 118
Əsas standartlar 8, 9, 13, 19–50
araşdırma 19, 21, 35–49
cəmiyyətin iştirakı 19, 20, 22–30
koordinasiya 19, 20–1, 31–4
maliyyələşdirmə 32, 43, 99

gender 26, 29, 54, 71, 106, 118
gender balansı 42, 46, 85, 94, 96, 118
genderəsaslı zorakılıq 63–4, 72, 118

təhlükələr 86, 118
sağlamlıq və qidalanma 71
İnsan hüquqları 5–6, 7, 76, 81–2, 119
Humanitar yardım 3–4, 44
gigiyena barədə həvəsləndirmə 71

hərtərəfli təhsil 81–2, 106, 119
FHTAŞ-nin Minimum standartları 4–5
kontekst araşdırması 9–10, 11
İnkişaf 5
mühitlər 8
tez-tez verilən suallar 17
rəhbər göstərişlər 10
İnsan hüquqlarının strukturu 5–6, 7
əsas fəaliyyətlər 9, 10, 11
standartlar 10, 11
strateji əlaqələr 15–16
tətbiq vasitələri 12
istifadə 10, 13–15
məlumatın təşkili 32–3, 46–7, 110, 119
məlumat mənbələri 36
təlimat və təlim prosesləri 75, 81, 87–8, 119
təlimat materialları 78, 79, 82, 85, 101
müəssisələrarası koordinasiya komitələri 31–2
Fövqəladə Hallarda Təhsil üzrə Agentliklərarası Şəbəkə (FHTAŞ) 4
Müəssisələrarası Daimi Komitə (MDK) 16, 120
məcburi köçkünlər (MK) 43, 96, 111, 120
İqtisadiyyat, Sosial və Mədəni Hüquqlar üzrə Beynəlxalq Saziş (1966) 6, 56–7
beynəlxalq hüquq vasitələri 6

vəzifələrin təsviri 95, 98

təlimatın dili 81, 95

qanun və siyasətin formalaşması 105, 107–11
kontekst araşdırması 109–10
Təhsilin davamlılığı 108–9
Fəlakətə hazırlıq 110
məlumatın bölüşdürülməsi və sistemlər 110
əsas fəaliyyətlər 107
ayrı-seçkilik salınmaması 110–11
qeyri-hökumət təşkilatlarının və BMT-nin nümayəndələri 111
təhsil hüququ 107–8
məktəbin təhlükəsizliyi 109
tələbələr 47, 102, 120
təlim bax. tədris və təlim
təlim mövzusu 78
təlim mühiti 8, 53–4, 61–72
binalar 53, 54, 68–71
müdafiə və rifah 53, 61–7, 117, 121, 123
xidmətlər 53, 68, 71–2, 80, 112
təlim məqsədləri 77
təlim nəticələri 75, 76, 78, 89–90, 120
təlim prosesləri 87–8, 119
təlim sahələri 122
təlim məkanları 70, 101, 120
həyat bacarığı 44, 47, 78, 79–80, 120
savad 7, 44, 47, 54, 76, 78, 79
yaşamaq üçün vasitə 123
təhsil üzrə yerli fəaliyyət planları 24–5, 108, 113

monitorinq 19, 45–7

qeyri-formal təhsil 88, 121
qeyri-hökumət təşkilatları 111
hesablama (sinfi) 44, 47, 78, 79

iştirak 121
iştirak edərək təlim 87, 121
fəaliyyət nəticəsinin qiymətləndirilməsi 102
planlama və tətbiq 11, 105, 106, 112–14
təhsil hüquqları və məqsədlər 112
sektorlararası əlaqələr 112
əsas fəaliyyətlər 112
milli və yerli təhsil planları 24–5, 108, 113
resurslar 113
şəffaflıq və məsuliyyət 114
oyun 87
hazırlıq 110, 121
qarşısının alınması 121
peşəkar inkişaf *bax.* təlim və peşəkar inkişaf

müdafiə 53, 61–7, 115, 121
    əlverişlilik yolları 64
    cəmiyyətin iştirakı 63, 66
    təhlükələr 62, 63–4
    fəlakət halında riskin azaldılması və idarə edilməsi 66–7
    genderəsaslı zorakılıq 63–4, 72, 118
    əsas fəaliyyətlər 61
    tələbələr–təlim sahəsi arasında məsafə 64
    sinfin idarə edilməsində zorakılığa yol verilməməsi 66
    hücum qarşısında təhlükəsizlik 64–5, 108
    mühafizə və təhlükəsizlik 61–2
    pozuntular 63
    *həmçinin bax.* rifah
psixososial ehtiyaclar 2, 40, 65, 72, 80–1, 102, 121

keyfiyyətli təhsil 7, 76, 122

yenidənqurma 124
müəllimlərin cəlb edilməsi və seçilməsi 93, 94, 95–7
    sinfin ölçüsü 97
    təcrübə və ixtisaslar 95–6
    vəzifələrin təsviri 95, 98
    əsas fəaliyyətlər 95
    istinadlar 97
    seçim meyarları 96
qaçqınlar 43, 55, 78, 81, 90, 96, 110–11, 122
müvafiq təhsil 122
dözümlülük 38, 125
resurslar 19, 28–30, 32, 42, 59, 113
yardım strategiyaları 19, 41–4
    dəyərləndirmə 41–2
    əsas məlumat 44
    bacarığın inkişafı 42
    fəlakət zamanı riskin azaldılması 44
    'Ziyan vurma!' 42, 117
    donor yardımı 43
    fövqəladə hallarda yardım hazırlığı 44, 66–7, 86, 121
    əsas fəaliyyətlər 41
    milli proqramlar 43
    Təşkilati mandatlar 44
    yardım strategiyalarının yenilənməsi 43
təhsil hüququ 5–6, 7, 56, 106, 107–8, 112
risk 122
riskin dəyərləndirilməsi 37–8, 62, 63, 69, 86, 109–10, 122

təhlükəsizlik 2, 46, 61–2, 63, 64, 109, 122
sanitariya 70–1

mühafizə 29, 61–2, 64–5, 123
xidmətlər 53
    əlverişlilik və istinadlar 72, 80
    sağlamlıq və qidalanma 71
    sektorlararası əlaqələr 112
    əsas fəaliyyətlər 68
sosial auditlər 26
Sfera Layihəsi 4, 6, 15–16
maraqlı tərəflər 10, 123
dəstək və nəzarət 93, 94, 101–2
    *həmçinin bax.* təlim və peşəkar inkişaf

müəllimin kompensasiyası 99
müəllimlər və təhsil sahəsi işçiləri 8, 93–102
    iş şəraiti 93, 98–100
    tərif 94
    işçilərin cəlb edilməsi və seçilməsi 93, 94, 95–7
    rollar və öhdəliklər 94
    dəstək və nəzarət 93, 94, 101–2
    *həmçinin bax.* təlim və peşəkar inkişaf
tədris və təlim 8, 75–90
    dəyərləndirmə 75, 76, 78, 89–90
    kurrikulum 75, 76, 77–82
    təlimat və təlim prosesləri 75, 81, 87–8, 119
    təlimat materialları 78, 79, 82, 85, 101
    təlim və peşəkar inkişaf 75, 76, 83–6
tədris metodları 78, 88
müvəqqəti sığınacaqlar 59–60, 109
təlim və peşəkar inkişaf 75, 76, 83–6
    kurrikulum və məzmunu 83–4
    təhlükədən xəbərdarlıq 86, 118
    əsas fəaliyyətlər 83
    tanıma və sertifikatlaşdırma 85
    yardım hazırlığı 86
    dəstək və koordinasiya 84–5
    müəllim: tərif 83
    tədris və təlim materialları 85
şəffaflıq 114

peşə təlimi 32, 44, 47, 57, 76, 80
həssaslıq 9–10, 123

su, təhlükəsiz 71
rifah 46, 53, 61, 62, 65, 72, 123 *həmçinin bax.* müdafiə
iş şəraitləri 93, 98–100

gənclər 25–6, 29, 30, 42, 108–9, 123

# Əlavə 4: RƏY FORMASI

| Əlaqə məlumatı | |
|---|---|
| Tarix: | Adı |
| Təşkilat, vəzifə: | |
| Ünvan: | |
| Tel: | |
| E-mail: | |

1. Xahiş edirik təşkilatınızın Minimum Standartlardan necə istifadə etdiyini qeyd edin. Mümkün qədər təfsilatla məlumat verin və kitabçadakı əsas fəaliyyətləri sizin kontekstə və sizin layihə/təşkilat/koordinasiyanızın strukturuna necə uyğunlaşdırdığını təsvir edin.

2. Bu kitabçadan istifadə edərkən hansı çətinliklərlə üzləşdiniz, onları necə aradan qaldırdınız və ya onlarla bərabər necə işləyə bildiniz?

3. Bu kitabçadan istifadə edərkən siz hansı ibrət dərsi götürdünüz və səmərəli təcrübə əldə etdiniz? Standartlardan işinizdə istifadə etməyinizin nəticəsi nə oldu?

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

4. Təcrübənizə əsaslanaraq söyləyin: bu kitabçanı hansı əlavə məlumat və vasitələr daha səmərəli və müvafiq edə bilərdi?

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

5. Xahiş edirik bu kitabçaya aid əlavə şərh və ya rəy verin.

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

*“Təhsil üzrə Minimum standartlar: hazırlıq, yardım, yenidənqurma”* kitabçasından istifadə etdiyinizə aid təcrübənizlə bölüşdüyünüzə görə çox sağ olun. Bu rəy Minimum Standartların təkmilləşdirilmə işini və reklam strategiyasını məlumatla təmin edəcək. Xahiş edirik bu anketi doldurun və bu elektron poçt ünvanına göndərin: **minimumstandards@ineesite.org** və ya poçtla bu ünvana göndərin: INEE Coordinator for Minimum Standards, c/o UNICEF – Education Section, 3 United Nations Plaza, New York, NY 10017, USA. Həmçinin bu rəy formasını İnternetdə doldura bilərsiniz: **www.ineesite.org/feedback**.